# KİTABXANAŞÜNASLIQ VƏ İNFORMASİYA

## ELMİ-NƏZƏRİ VƏ PRAKTİKİ JURNAL

*"Kitabxanaşünaslıq və informasiya" jurnalı 08.10.2010-cu il tarixində Beynəlxalq İSSN Mərkəzi (Paris, Fransa) tərəfindən 2219-5882 nömrəsi ilə ardı davam edən nəşrlərin beynəlxalq reyestrinə daxil edilmişdir.*

# № 3 (30)

**http://libinfo.bsu.edu.az/az/content/ktabxananasliq_v_nformasya_jurnali**

**https://ricest.ac.ir/**

Azərbaycan Milli Kitabxanası http://anl.az

**Bakı – 2019**

| | |
|---|---|
| **Təsisçi və baş redaktor:** | **Abuzər XƏLƏFOV**<br>***Əməkdar elm xadimi, BDU-nun fəxri professoru, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor*** |
| **Baş redaktor müavini:** | **Azad QURBANOV**<br>***fəlsəfə doktoru (fizika-riyaziyyat elmləri üzrə) dosent*** |
| **Məsul katib:** | **Pərviz KAZİMİ**<br>***Fəlsəfə doktoru (tarix üzrə), dosent*** |

**Redaksiya heyəti:**

**Zülfi Toman,** ***Türkiyə Milli Kitabxanasının direktoru***
**Roman Motulskiy,** ***Belarus Milli Kitabxanasının direktoru***
**Aybəniz Əliyeva-Kəngərli,** ***filologiya elmləri doktoru***
**Xəlil İsmayılov,** ***tarix elmləri doktoru, professor***
**Umutkan Munalbaeva,** ***Qazaxıstan Milli Akademik Kitabxanasının direktoru***
**Kərim Tahirov,** ***fəlsəfə doktoru (tarix üzrə), professor Azərbaycan Milli Kitabxanasının direktoru***
**Mayıl Əhmədov,** ***Prezident Kitabxanasının direktoru***
**Aleksandr Verşinin,** ***Rusiya Milli Kitabxanasının baş direktoru***
**Vadim Duda,** ***Rusiya Dövlət Kitabxanasının baş direktoru***
**Tamara Vileqjanina,** ***Yaroslav Mudrıy adına Ukrayna Milli Kitabxanasının baş direktoru***
**Elçin Əhmədov,** ***fəlsəfə doktoru (pedaqogika üzrə), dosent***
**Knyaz Aslan ,** ***fəlsəfə doktoru (pedaqogika üzrə), dosent***
**Nadir İsmayılov,** ***fəlsəfə doktoru (pedaqogika üzrə), dosent***

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır.
Şəhadətnamə № 3135, 16.03.2010.

---

Redaksiyanın ünvanı: Az 1073, Bakı şəhəri, Zahid Xəlilov küç. 23
Bakı Dövlət Universiteti, 2 saylı tədris korpusu, mərtəbə 4, otaq № 508
Telefon: (+994 12) 439-05-47.
№3(30) 2019

© *"Kitabxanaşünaslıq və informasiya", 2019, № 3 (30).*

# LIBRARY SCIENCE AND INFORMATION

## SCIENTIFICO-THEORETICAL AND PRACTICAL JOURNAL

*The journal of «Library science and information» dates in 08.10.2010 was included to the international schedule by ISNN Centre (Paris, France) numbered 2219-5882 with the regulation of publications to be continued.*

# № 3 (30)

**http://libinfo.bsu.edu.az/az/content/ktabxananasliq_v_nformasya_jurnali**

**https://ricest.ac.ir/**

http://anl.az

**Baku – 2019**

| | |
|---|---|
| **Founder and Editor-in-chief:** | **Abuzar KHALAFOV**<br>***Honoured Science worker, honored professor of BSU, Academician of International Information Academy by UNO, Doctor of History professor*** |
| **Assistant editor-in-chief:** | **Azad QURBANOV**<br>***Doctor of Philosophy (on Physico-mathematical) docent*** |
| **Executive Secretary:** | **Parviz KAZIMI**<br>***Doctor of Philosophy (of History)*** |

**Editorial board:**

**Zulfi Toman,** ***Director of the National Library of Turkey***
**Roman Motulskiy,** ***Director of the National Library of Belarus***
**Aybaniz Aliyeva-Kangarli,** ***Doctor of Philology***
**Khalil Ismayılov,** ***Doctor of History, professor***
**Umutkan Munalbaeva,** ***The director of the National Academic Library of Kazakhstan***
**Karim Tahirov,** ***Doctor of Philosophy (on History), professor Chief of the National library of Azerbaijan***
**Mayıl Ahmadov,** ***Chief of the Presidential Library***
**Alexander Vershinin,** ***General Director of the Russian National Library***
**Vadim Duda,** ***General Director of the Russian State Library***
**Tamara Vilegzhanina,** ***General Director of the National Library of Ukraine named after Yaroslav Mudriy***
**Elchin Ahmedov,** ***Doctor of Philosophy (on Pedagogy), docent***
**Knyaz Aslan,** ***Doctor of Philosophy (of Pedagogy), associate professor***
**Nadir Ismayilov,** ***Doctor of Philosophy (on Pedagogy)***

Journals have been registered in the Justice Ministry of the Azerbaijan Republic.
Certificate 3135, 16.03.2010.

Address of the editorial office: Az 1073, Baku city, Zahid Khalilov str. 23
Baku State University, educational building №2, 4th floor, room №508
Phone: (+994 12) 439-03-66
№3(30), 2019

© *"Library science and Information", 2019, №3(30).*

# БИБЛИОТЕКОВЕДЕНИЕ
# И
# ИНФОРМАЦИЯ

## НАУЧНО-ТЕОРЕТИЧЕСКИЙ
## И ПРАКТИЧЕСКИЙ ЖУРНАЛ

*Журнал «Библиотековедение и информация» включен Международным Центром ISSN (Париж, Франция) в продолжающиеся издание международного реестра под номером 2219-5882 с 08.10.2010*

# № 3 (30)

**http://libinfo.bsu.edu.az/az/content/ktabxananasliq_v_nformasya_jurnali**

**https://ricest.ac.ir/**

http://anl.az

**Баку – 2019**

**Учредитель и главный редактор:** **Абузар ХАЛАФОВ**
***Заслуженный деятель науки, почётный профессор БГУ, Академик Международной Информационной Академии при ООН, доктор исторических наук, профессор***

**Зам. главного редактора:** **Азад ГУРБАНОВ**
***доктор философии (по физико-математическим наукам) доцент***

**Ответственный секретарь:** **Парвиз КАЗЫМИ**
***Доктор философии (по историческим наукам), доцент***

**Редакционная коллегия:**

**Зулфи Томан, *директор Национальной библиотеки* Турецкой Республики**
**Роман Мотульский, *директор Национальной библиотеки* Беларусии**
**Айбениз Алиева-Кенгерли, *доктор филологических наук***
**Халил Исмаилов, *доктор исторических наук, профессор***
**Умуткан Муналбаева, *директор Национальной библиотеки* Казахстана**
**Керим Тахиров, *доктор философии (по историческим наукам) профессор, Директор Национальной библиотеки Азербайджана***
**Маил Ахмедов, *директор Президентской Библиотеки***
**Александр Вершинин, *генеральный директор Российской Национальной Библиотеки***
**Вадим Дуда, *генеральный директор Российской Государственной Библиотеки***
**Тамара Вилегжанина, *генеральный директор Национальной Библиотеки Украины имени Ярослава Мудрого***
**Эльчин Ахмедов, *доктор философии (по педагогическим наукам), доцент***
**Князь Аслан *Доктор философии(по педагогическим наукам), доцент***
**Надир Исмаилов, *доктор философии (по педагогическим наукам)***

Журнал регистрирован в Министерстве Юстиции Азербайджанской Республики.
Свидетельство № 3135, 16.03.2010.

---

Адрес редакции: Аз 1073, г. Баку, ул. Захида Халилова 23
Бакинский Государственный Университет, учебный корпус №2, 4-ый этаж, кабинет № 508
Телефон: (+994 12) 439-03-66
№3(30), 2019

*© "Библиотековедение и информация", 2019, № 3(30)*

# ELMİ İSTİNAD ÜZRƏ VERİLƏNLƏR BAZALARI VƏ AXTARIŞ SİSTEMLƏRİ

**AZAD QURBANOV**
***BDU, Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, dosent***
azadqurbanov@bsu.edu.az

**SƏADƏT MÜTƏLLİMOVA**
***"B.est Solutions" şirkətinin İnformasiya Texnologiyaları üzrə Baş mütəxəssisi***

*Məqalədə tədqiqatçının elmi işinin səmərəliliyini qiymətləndirmək üçün elmmetrik parametrlərin istifadəsi müzakirə olunur. Scopus, Web of Science, elibrary.ru elmi axtarış sistemlərinin verilənlər bazalarının müqayisəsi təqdim edilmişdir. Müəlliflərə elmi verilənlər bazalarında və axtarış sistemlərində tədqiqatçıların məhsuldarlıq göstəricilərinin obyektivliyini artıran tövsiyələr verilmiş, həmçinin müəllifin nəşr fəallığının meyarları və xüsusiyyətləri, müxtəlif axtarış sistemlərindəki təyinatı açıqlanmışdır.*

***Açar sözlər:*** *elmmetriya, impakt faktor, elmi istinad indeksi, beynəlxalq elmmetrik bazalar.*

Doğru zamanda lazımi informasiyaya əlyetərlilik tədqiqatçılara məhsuldarlığı yüksəltməyə və elmi tədqiqat nəticələrini maksimum artırmağa kömək edir. İstifadəçilərin zəruri informasiya mənbələrinə olan tələbatlarını başa düşmək, kitabxanalara büdcəni daha səmərəli şəkildə idarə etməyə, bu və ya digər informasiya mənbələrini maksimum effektli şəkildə əldə etməyə yardım edəcəkdir. Elmi kitabxanalar, o cümlədən universitet kitabxanalarında mütəmadi olaraq istifadəçilərin informasiya tələbatlarını, fondların rasional formalaşdırılması, informasiya resurslarından istifadənin səmərəliliyini öyrənmək üçün sorğular keçirilir və tədqiqatlar aparılır [1,2].

Ən mühüm problem istifadəçilər tərəfindən elektron formada əldə edilən məlumatların uçotunun aparılmasıdır. Belə halda elektron resurslara müraciətlər, yüklənən məlumatların kəmiyyəti (MB ilə), soruşulan məqalələrin sayı və s. də nəzərə alına bilər.İnformasiya məhsullarını yaradan bütün dünya (məsələn, Elsevier, EBSCO, Oksford University Press, Emerald və s.) və məşhur Rusiya (İntegrum, elibrary.ru, EastView və s.) şirkətləri öz resurslarının istifadəsinə dair statistik məlumatları təqdim edirlər. Bu statistika yalnız kitabxanalarda məhdud sayda mütəxəssislər üçün, təhlil üçün əlyetərlidir.

Bu gün alimlərin nəşr fəaliyyətinin yüklənilən məqalələrin kəmiyyətindən bir qədər asılılığı nəzərə çarpır. Belə bir sual yaranır: bütün tədqiqatçılar, informasiya elmi məkanında elmi əsərlərin irəliləyişinə təsir edən və öz tədqi-

qatlarına istinad etmə imkanlarını artıran elmi-tədqiqat işlərinin (və müvafiq olaraq informasiya fəaliyyətinin) səmərəliliyini qiymətləndirmək üçün bugünkü meyarları bilirlərmi? Məsələn, Kembric Universitetində Science Direct resursu üzrə ayda orta hesabla 50 min məqalə yüklənir və hər il təxminən 9 minə yaxın məqalə (bu isə yüklənilmiş məqalələrin sayının 18% -ni təşkil edir), Mançester Universitetində müvafiq olaraq il ərzində təxminən 32 min məqalə və 5 minə yaxın nəşr (15%) dərc edilir.[3-5] Artıq 400 ilə yaxındır ki, elmi tədqiqatların nəticələri əvvəlki əsrlərdə olduğu kimi şifrəli anaqramlar şəklində deyil, açıq, hamı üçün əlyetərli formada, elmi nəşrlər vasitəsilə yayılır. Elmi tədqiqatların nəticələrinin bu cür dövri və sistemli şəkildə işıq üzü görməsi prosesi kitab çapının ixtirasından, xüsusən də, 1665-ci ildə Fransada Jan Batist Kolberin rəhbərliyi ilə dünyada ilk elmi jurnalın (fr. “Le Journal des sçavans”- azərb. “Alimlərin jurnalı”) nəşrə başlanmasından sonra geniş vüsət almışdır. Lakin bu qədər müddət ərzində daha dəqiq desək, XX əsrin ortalarınadək hər hansı cəmiyyətdə elmi tədqiqatların nəticələrini təhlil etmək təcrübəsi meydana gəlməmişdir.

20-ci əsrin ortalarına qədər elmi işin qiymətləndirilməsinin əsas mənbəyi ekspert rəyi idi. Son 20-25 il ərzində ekspert rəyi ilə yanaşı kəmiyyət bibliometrik göstəricilərin uçotunun dünya tendensiyası artmağa başlamışdır. Bu yeni yanaşma axtarışında Qərb elmmetriyasında alimlərin istinad indeksi termini ortaya çıxdı. Belə ki, 1955-ci ildə ABŞ linqvist-alimi Yucin Harfild elmi istinad indeksləri haqqında məqaləsində elmi tədqiqat nəticələrinin təhlilinin zəruriliyini əsaslandırmış, 1963-cü ildə onun rəhbərliyi altında məşhur Elmi İnformasiya İnstitutu (Institute for Scientific Information-ISI) yarandıqdan sonra ilk dəfə elmi istinad göstəriciləri dərc olunmuşdur. Bu indeksin ilkin məqsədi indi olduğu kimi sanballı elmi nəşrləri təsnifləşdirmək, indeksləşdirmək və onların impakt-faktorunu müəyyənləşdirmək olub. Doğrudur, o vaxtlar "ISI"nin fəaliyyət spektri o qədər də geniş deyildi; institut 600 jurnalı indeksləşdirməklə kifayətlənirdi. Bu gün isə "ISI" 15 minə yaxın elmi jurnalın impakt-faktorunu müəyyənləşdirən iri elmi korporasiyaya çevrilib. 1990-cı ildə dünyada ilk beynəlxalq elmmetrik bazanın (Web of Science) yaranması ilə peşəkar səviyyədə elmmetrik təhlillərin əsası qoyulmuş, alınan göstəricilər dünyanın aparıcı ölkələrində elmi idarəçiliyin əsas istiqamətverici qüvvəsinə çevrilmişdir. Beləliklə, artıq 30 ildir ki, elmin inkişaf səviyyəsi, müxtəlif elm və təhsil müəssisələrinin dünya elmi müstəvisindəki çəkisi, alimlərin elmi fəaliyyət nəticələrinin nə dərəcədə təsirli olması elmmetrik təhlillər əsasında müəyyən olunur.

**Elmmetriya** - elmin təkamülünü və vəziyyətini, o cümlədən elmi fəaliyyətin struktur və dinamikasını, elmi informasiya axınını və massivlərini çoxsaylı riyazi-statistik hesablamalar və digər kəmiyyət-keyfiyyət göstəriciləri üzrə öyrənən elm sahəsidir. Elmmetriyanı elm haqqında elm də adlandırmaq

mümkündür. İnfometriyanın əsasını təşkil edən elmmetriya elmşünaslığın bir qolu kimi yeni formalaşsa da elmi məlumatların ölçülməsinə və şərh edilməsinə maraq hələ XIX əsrin ikinci yarısından, elmi statistikanın yarandığı vaxtlardan mövcud olmuşdur. Lakin elmmetriyanın müstəqil bir elm sahəsi kimi formalaşmağa başlaması az qala bir əsr sonraya İkinci Dünya müharibəsi dövrünə təsadüf edir. Məhz o illərdə, dünyada elmə maraq kəskin şəkildə artmış, elmin müxtəlif parametrlər üzrə təhlili zamanı yaradıcı məhsuldarlığın inkişafına təsir edən dayanıqlı statistik qanunauyğunluqlar (Zipf-Lotk-Pareto bölgüsü üzrə) aşkar olunmuşdur. Sonrakı illərdə Böyük Britaniyada C.Bernalın (“Elmin sosial funksiyaları”, 1939), ABŞ-da D.C.Praysın (“Elmi təhlilin kəmiyyət metodu”, 1960), SSRİ-də V.Nalimov və Z.Mulçenkonun (“Elmmetriya”, 1969) rəhbərliyi altında elmi fəaliyyətin nəticələrinin qiymətləndirilməsi üzrə müxtəlif tədqiqatlar aparılsa da, artıq qeyd etdiyimiz kimi bu sahədə Yucin Harfildin araşdırmaları və fəaliyyətləri daha əhəmiyyətli olmuşdur.

**“Elmmetrik təhlil”** dedikdə, elmi müəssisə və ya tədqiqatçının fəaliyyətinin 2 əsas parametr üzrə qiymətləndirilməsi başa düşülür:

1. Qiymətləndirmək istədiyimiz parametrlər üzrə;
2. Bilavasitə qiymətləndirilə bilən parametrlər üzrə.

Qiymətləndirmək istədiyimiz parametrlər elmi tədqiqat İnstitutunun və ya alimin məhsuldarlığıdır. Əfsuslar olsun ki, bu parametrlər üzrə bilavasitə hesablama aparmaq çox çətindir, başqa sözlə, məsələn bir alimin bütün elmi imkanlarını, elmi istedadını, onun müxtəlif formalarda əksini tapmış fikir və rəylərini, elmin inkişafına təkan verən ideyalarının yayılma arealını, elmi təhlillərinə, baxışlarına biblioqrafik təsvir verilmədən edilmiş istinadları və s. tam şəkildə aşkara çıxarmaq, hesablamaq mümkün deyil. Göstərici və ya indikator adlanan ikinci parametr üzrə qiymətləndirmə isə daha rahatdır. Bu zaman əsas təhlillər məqalə sayına və onlara edilən istinad göstəricilərinə görə aparılır. Yeri gəlmişkən, tədqiqatçıların nəşr aktivliyinin nəticələrini hesablamaq üçün müxtəlif elmi-statistik təşkilatların, ayrı-ayrı fiziklərin, riyaziyyatçıların, linqvistlərin və s. özünəməxsus metodları var. Biz həmin metodları 2 qrupa bölməyi daha məqsədəuyğun hesab edirik:

- Lokal hesablama metodu;
- Qlobal hesablama metodu.

**Elmi məqalələrə istinad indeksi** (ing. Science Citation Index) – İstinad indeksi - elmi aləmdə bir alimin və ya bütövlükdə elmi kollektivin əsərlərinin "əhəmiyyəti" ilə əlaqəli qəbul edilmiş bir ölçü hesab edilir. Bibliometrik (elmmetrik) tədqiqatların təhlili zamanı əsas ölçülər, şərti desək, "ekstensiz" (ekstensiv, yəni keyfiyyətcə deyil, ancaq kəmiyyətcə artan, genişlənən) göstəricilər – nəşrlərin ümumi sayı və "intensiv" göstəricilər - bu nəşrlərin hər məqaləyə alınan istinadların sayıdır. Əslində bu, tədqiqatçının müəyyən bir dövr üçün müvafiq elmi fəaliyyət sahəsində yerinə yetirdiyi bütün işlərə edilən istinadla-

rın sayından başqa bir şey deyil. İstinadların strukturunun təhlili və bibliometrik göstəricilərin müəyyənləşdirilməsi üçün əsas məhz dövri mətbuat üzrə “sitat” adlanan verilənlər bazası adlanır. Burada yalnız jurnal nəşrləri (müəllif, sərlövhə, jurnalın adı, ili, cild, buraxılışı, səhifələr) haqqında biblioqrafik məlumatlar deyil, eyni zamanda istinad edilən ədəbiyyatın məqalə siyahıları da toplanılır. Bu, həm müəyyən bir məqalədə istinad edilən nəşrləri, həm də bu məqaləyə istinad edən nəşrləri tapmağa imkan verir. Beləliklə, istifadəçi onu maraqlandıran sual ilə bağlı bütün biblioqrafik informasiya üzrə səmərəli axtarış apara bilər. Eyni zamanda, bütün jurnallar üzrə məlumatları özündə cəmləşdirən belə verilənlər bazası üzərində xüsusi "bazis" - mütəxəssislərə dövri nəşrlərin bibliometrik göstəricilərinə əlyetərlilik imkanı verir.

2005-ci ildə ***h*-indeks (Hirş indeksi)** adlanan bir göstərici meydana gəlir. Bu elmmetrik göstərici San-Dieqo (Kaliforniya) universitetinin fiziki Xorxe Hirş tərəfindən təklif olunmuşdur. Hirş indeksi alimlərin, alim qrupunun, elmi təşkilatın fəaliyyətinin elmi məqalələr və həmin məqalələrə istinada görə kəmiyyət göstəricisidir. Hirş indeksi məqalə sayının həmin məqaləyə edilmiş istinadların kəmiyyət göstəricisi ilə müqayisə olunmasıdır. Məsələn, alimin 100 məqaləsi varsa və hər məqaləyə ancaq 1 dəfə istinad olunubsa, həmin tədqiqatçının və ya elmi müəssisənin h-indeksi 1-ə bərabər olacaq və yaxud əksinə alimin cəmi 1 məqaləsi dərc olunubsa, lakin ona 100 dəfə istinad edilibsə, h-indeksi yenə də 1 qalacaq. Deməк, 100 məqalə yazıb hər məqaləyə cəmi 1 istinad qazanmaqdansa, yaxud 1 məqalə yazıb 100 istinad əldə etməkdənsə, 20 sanballı məqalə yazıb hər məqaləyə, məsələn 5-10 istinad qazanmaq daha məqsədəuyğundur.

Məşhur rus akademiki G.P. Georgiyevin fikrincə, bu olduqca mənasız elmmetrik göstəricidir. Məsələn, bir alimin 30 məqaləsi var, onlardan 20-si 20-30 dəfə, eyni sayda məqaləyə sahib olan alimin 10 məqaləsinə 10-dan 2000-dək istinad edilir. Birincinin Hirş indeksi 20, ikincisi isə yalnız 10 olacaq. Alim nə qədər yaşlıdırsa, onun vəziyyəti daha yaxşı olur. Hirş indeksi yalnız uzun müddət bir tədqiqat sahəsində çalışan elm adamlarının göstəricilərinin müqayisəsi zamanı tətbiq oluna bilər. Bu göstərici yalnız kifayət qədər nəşrləri və həmin nəşrlərin hamısına (və ya bir çoxuna) nəzərə çarpacaq qədər tələbat olan və tez-tez istinad edilənlər üçün yüksək olacaqdır.

Elmi sənədlər və onların müəllifləri arasındakı informasiya əlaqələrinin göstəriciləri biblioqrafik istinadlardır. Hər bir linkdə müəllif və həmmüəlliflər haqqında məlumatlar olduğu üçün nəşrin adı, onun tərkib elementləri istinad olunan məqalənin elementləri ilə birlikdə bir sıra analitik məlumatların çıxarılmasını təmin edir. İstinad edilmə, tədqiqatçıların nəşr fəallığı ilə müqayisədə onların məhsuldarlığını nümayiş etdirən daha vacib göstəricidir.

Bu gün elmi fəaliyyətin səmərəliliyini qiymətləndirmək üçün tətbiq olunan meyarlara patentlərin sayı, elmi jurnalların impakt-faktoru, nəşrlərin sayı,

istinadların tezliyi və s. aid etmək olar. Lakin nəşr olunan məqalələrin çox olması hələ elmi tədqiqat işinin şərtsiz əhəmiyyət göstəricisi hesab edilə bilməz. Ancaq hər nəşrin elmi sahəyə bir informasiya daşıdığı faktı isə danılmazdır. Ən nüfuzlu elmi jurnallarda dərc olunan materialların sayı ölkədə elmin ümumi inkişaf səviyyəsinin xarakteristikalarından biridir. Məqaləyə daha çox istinad edilməsi onun yüksək impakt-faktorla reytinqli jurnalda dərc olunmasına təsir edir.

**Bəs İmpakt-faktor nədir? Hansı jurnallar impakt-faktorlu hesab edilir?**

İmpakt-faktor hər hansı elmi məqaləyə olunan istinadların sayından asılı olaraq onun əhəmiyyətlilik dərəcəsidir. Konkret desək, impakt-faktor hər hansı bir jurnalda dərc olunmuş məqaləyə digər alimlər tərəfindən nə qədər istinad olunmasıdır. İmpakt-faktor rəqəmlərlə qiymətləndirilir. Qiymətləndirmələr 0-dan başlayaraq sonsuzluğa qədər davam edə bilər. Bu isə dərc olunan məqalələrin əhəmiyyətliliyindən asılı olaraq dəyişir. Yüksək impakt-faktor almaq, əlbəttə ki, elmi məqalənin dərc olunduğu jurnalın, eləcə də elmi məqalənin müəllifinin xidmətidir. Əgər bütün dünyada məşhur olan, yüksək istinad olunan alimin məqaləsi hər hansı bir jurnalda dərc olunursa, təbii ki, bu, jurnalın impakt-faktorunun yüksək həddə çatmasına səbəb olur.

İmpakt-faktor haqqında məlumatları «Journal Citation Reports» istinad göstəricisindən əldə etmək mümkündür. Qeyd etmək lazımdır ki, impakt-faktoruna görə müəyyənləşdirilən jurnalların siyahısında müxtəlif elm sahələri qeyri-bərabər şəkildə təqdim olunur. Ən çox biokimya, molekulyar biologiya, fizika, tibb jurnalları üstünlük təşkil edir.[4.5]

Hal-hazırda dünyada istinadlara görə elmi jurnalları, alimləri və ya elmi kollektivləri qiymətləndirməyə imkan verən vahid universal bir sistem yoxdur. Ancaq ingilisdilli jurnallarda müəyyən bir ölkə (ölkələr qrupu) çərçivəsində istinad indeksini hesablamaq üçün istifadə olunan bir neçə əsas qlobal sistem mövcuddur:

**Science Citation Index** **(SCI-Expanded)** - əsasında üç massiv durur: [5,6]

- təbii və dəqiq elmlərin (təbiətşünaslıq, texnika və tibb sahəsi üzrə jurnallar) istinad indeksləri - ***Science Citation Index – SCI***;

- sosial elmlərin istinad indeksi (iqtisadiyyat və ictimai elmlər üzrə jurnallar) - ***Social Science Citation Index – SSCI***;

- humanitar elmlər, ədəbiyyat və incəsənət sahələrində (arxeologiya, memarlıq, bütün incəsənət növləri, ədəbiyyat, tarix, fəlsəfə, din üzrə jurnalla) istinad indeksi - ***Arts and Humanities Citation Index – A&HCI*** (humanitar elmlər üzrə jurnallar saytı –

- http://science.thomsonreuters.com/mjl/publist_ah.pdf

- sosial elmlər üzrə jurnallar saytı - http://science.thomsonreuters.com/-mjl/publist_ssci.pdf)

**Web of Science** – 2002-ci ildə Elmi İnformasiya İnstitutu *"Thomson Reuters"* təşkilatının tərkibinə keçdikdən sonra müəssisənin işi xeyli inkişaf edib. İndi artıq "Creative analytics" təkcə istinad əmsalına malik jurnallar haqqında illik hesabat ("Journal Citation Report") dərc etməklə kifayətlənmir, o, həm də məqalələrinə ən çox istinad edilən alimlərin də siyahısını hazırlayıb dərc edir. Bu isə öz növbəsində dünyada universitetlərin, elmi müəssisələrin reytinq cədvəlini müəyyənləşdirməyə imkan verir. Məntiqi olaraq bununla da dünya elminin akademik səviyyəsi üzə çıxır. Elmi tədqiqatların nəticələrinin qiymətləndirilməsi baxımından impakt faktorun əhəmiyyəti o qədər böyükdür ki, bununla hətta müxtəlif ölkələrdə elmin inkişaf dinamikasını da izləmək mümkündür. Ayrı-ayrı institutlar, elmi təşkilatlar, alimlər "Creative analytics"in ***"Web of Science"*** adlanan indeksləşdirmə bazası vasitəsilə öz elmi tədqiqatlarına edilən istinadların kəmiyyətini müəyyənləşdirə bilirlər. "Web of Science" - **Thompson Reuters** şirkətinin **Web of Knowledge** platformasında təqdim olunan ABŞ Elmi İnformasiya İnstitutunun (İnstitutu Scientific Information, ISI) multidisiplinar referativ-biblioqrafik verilənlər bazasıdır. Nüfuzlu jurnalın impakt-faktoru olduğu kimi elmi tədqiqat institutunun, individual şəkildə alimin və hətta ayrıca məqalənin də impakt faktoru ola bilər. Bu isə onu deməyə əsas verir ki, "Creative analytics"in "Web of Science" bazasına daxil olan "Science Citation Index Expanded", "Social Sciences Citation Index" və "Arts & Humanities Citation Index" kimi elmi indeksləşdirmə sistemləri həm qlobal, həm də regional elmi tərəqqinin güzgüsü rolunda çıxış edir.

"Creative analytics" ən çox istinad edilən elmi nəşrləri - jurnal, kitab, konfrans materiallarını, patentləri və s. müəyyənləşdirməklə elmdə ən doğru prioritetləri aşkarlamağa imkan verir. Dünyanın ən iri informasiya ixracatçılarından olan bu təşkilatın əldə etdiyi statistik göstəricilər müxtəlif elm sahələrinin cari vəziyyətinin öyrənilməsi baxımından əhəmiyyətli olduğu qədər innovativ texnologiyaların, sənayenin, iqtisadiyyatın inkişaf templərini araşdırmaq baxımından da çox qiymətlidir. Çünki bir qayda olaraq, istənilən kommersiya qurumu cari iqtisadi durumu, əmtəə bazarını, tələb-təklifi söyrənərkən ilk növbədə etibarlı biliklərə, dəqiq statistikaya, bir sözlə aprobasiya olunmuş informasiyaya ehtiyac duyur. " Creative analytics" elmi-statistik məlumatları məhz bu cür informasiya məcmusu rolunu oynayır. Təsadüfi deyil ki, təşkilat topladığı məlumatları təhlil edərək özü də böyük iqtisadi uğur və maliyyə balansı qazanır. Şirkətin səhmlərinin Nyu-York və Toronto kimi iri fond birjalarında yüksək əmsallarla kotirovka olunması elmin iqtisadiyyata müsbət təsirinin ən bariz nümunəsi hesab oluna bilər.

*"Web of Science"* bazasının əhatə etdiyi jurnalların coğrafiyasına nəzər saldıqda belə bir fikir yaranır ki, daha çox məhz Qərbdə nəşr olunan elmi jurnallar impakt-faktora malikdirlər. Əlbəttə burada kimisə günahkar çıxarmaq olmaz. Məsələn, *"Science Citation Index Expanded"* siyahısına daxil olan jurnallar tam olaraq ingilis dilində dərc edilən nəşrlərdir və onların böyük əksəriyyəti ingilisdilli ölkələrdə nəşr olunur. Başqa sözlə, bu siyahıya daxil olmaq digər 2 siyahıya daxil olmaqdan daha çətindir. "Creative analytics"in rəsmiləri də bunu dəfələrlə etiraf ediblər. Çünki dəqiq və təbiət elmlərinə həsr olunan jurnallar bir qayda olaraq regional deyil, qlobal xarakterli tədqiqatları özündə cəmlədiyindən onların məhz ingilis dilində dünyaya çıxarılması məqsədəuyğun hesab olunur. "Social Sciences Citation Index" və "Arts & Humanities Citation Index"ə daxil olan jurnallar üçünsə belə bir tələb yoxdur. "Creative analytics" razılaşır ki, bəli, məsələn, bir ölkənin ədəbiyyatı, folkloru məhz milli dildə yayılmalıdır. Həmin siyahılara daxil olan regional jurnallardakı məqalələrə ingilis dilində yalnız xülasə vermək kafi hesab olunur.

Qeyd edək ki, "Creative analytics" Azərbaycanda nəşr olunan elmi nəşrlərə diqqət ayırmağa başlamışdır və bu da təsadüfi deyildir. Artıq 10 ildir ki, ölkəmizdə Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Bakı Dövlət Universitetinin Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutu və Azərbaycan Milli Elmlər Akademiyasının təsisçiliyi ilə dərc edilən ***"Applied and Computational Mathematics"*** ("Tətbiqi və Hesablama Riyaziyyatı") jurnalı elmimizi layiqincə təmsil edir. Qeyd edək ki, bu nəşr "Thomson Reuters" bazasına daxil edilən və impakt faktor almış Azərbaycanın ilk elmi jurnalıdır. Jurnalda tətbiqi və hesablama riyaziyyatının müxtəlif sahələrinə aid yüksək səviyyəli, əsaslı rəydən keçmiş elmi məqalələr çap edilir. ***"Applied and Computational Mathematics"*** jurnalının impakt faktoru "Thomson Reuters" Agentliyinin son reytinq cədvəlinə əsasən 0,717-yə yüksəlmişdir. Nəşr Azərbaycan tətbiqi riyaziyyat elminin uğurlarını beynəlxalq aləmə çıxarmaqla bərabər, müvafiq sahədə xarici alimlərin də seçilmiş elmi tədqiqatlarını yerli alimlərimizə təqdim etməklə bilavasitə elmi körpü rolunu oynayır.

**Scopus (SciVerse Scopus)** – elmi nəşrlərdə dərc olunan məqalələrə istinadın izlənilməsi üçün bir alət və biblioqrafik və referativ verilənlər bazasıdır. Texnika, tibb və humanitar elmlər üzrə 5 min nəşriyyatın 24 min adda elmi nəşrini indeksləşdirir. Verilənlər bazası elmi jurnalları, konfrans materiallarını və seriyalı kitab nəşrlərini indeksləşdirir. Elsevier Nəşriyyat Korporasiyası "Scopus"un sahibi və onun proqram təminatının müəllifi hesab edilir. Axtarış aparatı veb səhifələr və patent verilənlər bazasının axtarışı üçün Scirus axtarış sistemi ilə inteqrasiya edilmişdir. Elsevier nəşriyyatının saytında "Scopus" tərəfindən indekslənmiş xarici jurnalları tapa bilər (sayt - http://www.elsevier.-com/journals/subjects) və müvafiq sahəni seçərək əlifba ardıcıllığı ilə sıralanan jurnalların siyahısını əldə edə bilərsiniz.[9]

**“Scopus”da indeksləşdirmə üçün mənbələrin seçimi siyasəti** – “Scopus” verilənlər bazası tərəfindən yeni nəşrin indeksləşdirilməsi qərarı Məzmun Seçimi üzrə Scopus Məsləhət Komitəsi (CSAB) tərəfindən yeni nəşrlərin daxil edilməsi üçün müraciətlərin nəzərdən keçirilməsi nəticələrinə əsaslanır. Bu komitəyə dünyanın müxtəlif elm sahələrini və müxtəlif bölgələrini təmsil edən sahəvi mütəxəssislər (təxminən 20 alim və 10 kitabxanaçı) daxildir. İstənilən alim, ScopusInfo veb səhifəsində ərizə ilə müraciət edərək yeni nəşrin verilənlər bazasına daxil edilməsi ilə bağlı sorğu göndərə bilər. Bundan əlavə CSAB üzvləri verilənlər bazasına daxil edilmək üçün nəzərdən keçirilməli olan nəşrləri müstəqil olaraq müəyyənləşdirə bilər. “Scopus”a yeni nəşrlərin daxil edilməsi (və artıq tələblərə cavab verməyən nəşrlərin çıxarılması) barədə qərar hər il qəbul edilir.

**elibrary.ru** - Rusiyada jurnalların impakt faktoru Rusiya Elmi İstinad İndeksinin (REİİ) Verilənlər Bazasında əks olunur. REİİ sisteminə giriş - elibrary.ru Elmi Elektron Kitabxananın saytında mümkündür.[7]

Rusiya Elmi İstinad İndeksi, Rusiya müəlliflərinin 2 milyondan çox nəşrini, eyni zamanda bu nəşrlərin 2 mindən çox Rusiya jurnallarında istinadı haqqında informasiyanı özündə əks etdirən məlumat-analitik sistemdir.

O, elibrary.ru Elmi Elektron Kitabxanasının bazası əsasında yaradılıb və yalnız elmi tədqiqatların soraq-biblioqrafiya informasiyası ilə operativ şəkildə təmin edilməsi üçün nəzərdə tutulmamış, eyni zamanda elmi-tədqiqat təşkilatlarının, alimlərin fəaliyyətlərinin, elmi jurnalların səviyyəsinin və s. nəticəsi və effektivliyinin qiymətləndirilməsinə imkan verən bir vasitədir.

Alimin nəşrlərinə istinad haqqında ən doğru məlumatları əldə etmək məqsədilə sənədlərin biblioqrafik təsviri üçün qüvvədə olan QOST-lara uyğun onların tərtib edilmiş tam siyahısı olmalıdır. İstinad indeksini elibrary.ru saytında müstəqil olaraq da hesablamaq olar. *Science Index* sistemində qeydiyyatdan sonra müəllifə fərdi identifikasiya kodu – *SPIN-kod* verilir. Bu kod verilənlər bazasında nəşrlərinin siyahısı ilə işləməyə, müxtəlif parametrlərə görə məqalələrin təhlili və seçimini həyata keçirməyə, nəşrlərinə edilən istinadların siyahısına baxış imkanı əldə etməyə, həmçinin nəşr fəallığını və müəllifə istinadları və s. təhlil etməyə imkanı verir.

Bu gün elibrary.ru ən əlverişli, hər kəs üçün əlyetərli və inkişaf edən informasiya resursudur. Nəzərə almaq lazımdır ki, REİİ və elibrary sisteminin verilənlər bazası fərqlidir, çünki sonuncu, REİİ-yə daxil olan jurnallardan əlavə aşağıdakıları da özündə əks etdirir:

- elmi-kütləvi, reklam-məlumat da daxil olmaqla qeyri-rusdilli jurnallar;
- müxtəlif dillərdə dövri olmayan nəşrlər (monoqrafiyalar, dərsliklər, vəsaitlər və s.);

• naşirləri yaxın gələcəkdə REİİ -yə daxil olmağı planlaşdırmayan xarici dillərdəki xarici jurnallar.

**elibrary** elmi olmayan ədəbiyyatı da nəzərə alır. Nisbi payı kiçik olsa da, istinad indeksində on və hətta yüzlərlə dəfə dəyişikliklərin məlum nümunələri mövcuddur.

## ƏDƏBİYYAT

1. *Писляков В. В. Наукометрические методы и практики, рекомендуемые к применению в работе с российским индексом научного цитирования// Отчёт о научно-исследовательской работе (промежуточный) по теме «Разработка системы статистического анализа российской науки на основе данных российского индекса цитирования». — М., 2005.*
2. *Редькина Н. С. Модель многоуровневого изучения результативности научных исследований// VII Всероссийская конференция молодых учёных по математическому моделированию и информационным технологиям (с участием иностранных ученых). 1-3 ноября 2006 года, Красноярск, Россия.*
3. *Journal Citation Reports: a bibliometric analysis of science journals in the ISI database. Philadelphia: Institute for Scientific Information, Inc., 1993.*
4. *Garfield E. Citation analysis as a tool in journal evaluation. Science 178:471-9, 1972.*
5. *Citation indexing for studying science. Nature 227:669-71, 1970.*
6. *Which medical journals have the greatest impact? Ann. Intern. Med. 105:313-20, 1986.*
7. *htttp://elibrary.ru*
8. *http://elsevierscience.ru/*
9. *https://www.scopus.com*

## БАЗЫ ДАННЫХ И ПОИСКОВЫЕ СИСТЕМЫ ПО НАУЧНОМУ ЦИТИРОВАНИЮ

**КУРБАНОВ. А.И., МУТАЛЛИМОВА С.Ф.**

***РЕЗЮМЕ***

*В статье рассматриваются вопросы применения наукометрических параметров для оценки эффективности научной работы исследователя. Проведено сравнение и описание баз данных научных поисковых систем Scopus, Web of Science, elibrary.ru. Раскрыты критерии и особенности показателей публикационной активности автора, их назначение в различных поисковых системах, в том числе даны рекомендации авторам, позволяющие повысить объективность показателей продуктивности исследователей в научных базах данных и поисковых системах.*

***Ключевые слова:*** *наукометрия, импакт фактор, индекс научного цитирования, международные наукометрические базы данных.*

# DATABASES AND SEARCH SYSTEMS FOR SCIENTIFIC QUOTATION

**GURBANOV A.I., MUTALLIMOVA S.F.**

***SUMMARY***

*The article discusses the use of science metric parameters for evaluating the effectiveness of the researcher's scientific work. The databases of scientific search systems Scopus, Web of Science, elibrary.ru were described. The criteria and characteristics of indicators of author's publication activity were disclosed,* as well *as its purpose in the various search systems, including recommendations to the authors that allow the objectivity of researchers productivity indicators in scientific databases and search systems to enhance.*

***Keywords:*** *scientometric, impact factor, citation index, international scientometric databases.*

# MÜASİR DÖVRDƏ GENİŞ YAYILMIŞ BİR KİBER HÜCUM HAQQINDA

**QULİYEV N.Ə.**
***BDU, dosent, fizika-riyaziyyat elmləri namizədi***

*Müasir dünyada onlayn fəaliyyət formasına keçid formalaşmaqdadır. Xüsusəndə onlayn fəaliyyət formasına geniş miqyaslı keçidi koronovirus pandemiyası dövrü sürətləndirmişdir və bunu alternativsiz bir vasitəyə çevirmişdir. Bu gün dünyada maliyyə dövriyəsinin böyük hissəsi onlayn şəkildə və ya ödəniş kartları vasitəsilə həyata keçirilir. Onlayın fəaliyyətin, bunula bərabər istifadə olunun onlayın ödənişlərin, plastik kartların geniş istifadə olunması da bu sahədə bir çox özünə məxsus təhlükələri də meydana gətirir. Bu məqalə məhz bu tipli təhlükələr və onlarla mübarizə ilə bağlıdır. Bu baxımdan bu məqalənin çap edilməsi çox aktualdır.*

***Açar sözlər**: Kiber hücum, fişinq hüçüm, fişer, fişinq hücumlarının növləri, anti- fişinq*

Müasir dövrdə bütün dünyada əksəriyyət fəaliyyət formalarının onlayn fəaliyyət sisteminə keçidi başlamışdır. Bu keçid xüsusəndə koronovirus pandemiyası dövründə daha da sürətlənmişdir. Həmçinin koronovirus pandemiyası dövründə əksəriyyət fəaliyyət formalarında onlayın fəaliyyət forması alternativsiz fəaliyyət formasına çevrilmişdir. Onu da qeyd edək ki, bütün bəşəriyyətin ən əsas fəaliyyət formalarından biri də ticari münasibətlər sistemidir. Müasir koronovirus pandemiyası dövründə də ticari münasibətlərin onlayn forması ən əsas ticarət formasına çevrilmişdir. Onlayn ticarətin əsas amillərindən biri də ödəmə kartlarının geniş istifadəsidir. Onlayın fəaliyyətin, bunula bərabər istifadə olunun onlayın ödənişlərin, plastik kartların geniş istifadə olunmasıda bu sahədə bir çox özünə məxsus təhlükələri də meydana gətirir.

Onu da qeyd edək ki, müasir dövrdə informasiya texnologiyaları, kompüter texnikaları və ümumiyyətlə texniki tərəqqi nə qədər inkişaf etsə də, cinayətkarlar, fırıldaqçılar bunu öz xeyrinə çevirmək üçün daha mürəkkəb və ixtiraçı cəhdlər edirlər. Belə cəhdləri cinayətkarlar əsasəndə daha çox onlayın alış- verişdə və ödəmə kartlarında həyata keçirməyə cəhd edirlər. Aydındır ki, son dövrlər nağd pulların daha çox plastik ödəmə kartları ilə dövr etməsi müşahidə edilməkdədir. Xüsusində koronovirus pandemiyası müddətində bu keçid daha da sürətlənmişdir və post koronovirus dövründə də bu ənənənin dava da genişlənəcəyi gözlənilir. Ciblərimizdəki nağd pul təchizatı nə qədər aktiv şəkildə, plastik ödəmə kartları ilə əvəzlənirsə, onları sındırmağın yolları da bir o qədər çox tapılır.

Bu baxımdan cinayətkarların, fırıldaqçıların bank kartlarından istifadə etmək üçün hansı üsullardan istifadə etməsini bilmək hər kəs üçün çox fayda-

lıdır və müasir dövrümüzün ən aktual məsələlərindən biridir. Bu üsulları, qaydaları bilməklə istifadəçilər cinayətkarların, fırıldaqçıların asan qurbanı olmaya bilərlər. Bank kartlarına hücum edənlərin ən sevimli üsullarından biri də fişinq hücumlarıdır.

Fişinq (ingilis dilində Phishing “balıqçılıq” sözündən götürülmüşdür), məqsədi istifadəçilərin gizli məlumatlarına, məsələn, loqin və parollarına giriş əldə etmək olan İnternet dələduzluğunun, saxtakarlığının bir növüdür. Fişinq hücumları İnternetdə çox geniş yayılmış kiber hücum növlərindən biridir. Fişinq hücumları adətən məşhur brendlərin, markaların adından elektron poçtların kütləvi göndərilməsi ilə baş verir, habelə müxtəlif xidmətlər içərisində, məsələn, bankların adından və ya sosial şəbəkələrin daxilindəki şəxsi mesajlar göndərməklə nail olunur. Göndərilən məktubda tez-tez əsl saytdan görkəmcə fərqlənməyən saxta bir sayta və ya redriktorlu sayata (URL yönləndirməsi istiqamətləndirilməsi (İngilis sözü olan URL redirection sözündən götürülmüşdür)- World Wide Web-də veb səhifəni bir neçə URL-lər altında əldə etmək üçün istifadə olunan bir texnikadır) birbaşa istinad yerləşir. Hər hansı bir istifadəçi belə saxta səhifəyə daxil olduqdan sonra, fırıldaqçılar (fişinq hücumunu təşkil edənlər) müxtəlif psixoloji fəndlərlə istifadəçini həmin saxta səhifədə öz login və parolunu daxil etməyə təhrik edir, hansı ki bunları istifadəçi müəyyən bir sayta daxil olmaq üçün istifadə edir. Bu login və parollar isə fırıldaqçılara həmin istifadəçilərin hesablarına və bank hesablarına daxil olmağa imkan verir.

Fişinq, digər tərəfdən şəbəkə təhlükəsizliyinin əsaslarını bilməyən istifadəçilərə əsaslanan sosial mühəndislik növlərindən biridir. Şəbəkə təhlükəsizliyinin əsaslarını təşkil edən faktlardan biri də ondan ibarətdir ki, adətən onlayın fəaliyyət göstərən xidmətlər öz qeydiyyat verilənlərinizi, məsələn, parol və s.-ni göstərməyinizi tələb edən elektron məktublar göndərmir.

Fişinq hücumlarını təşkil edən şəxslərə fişerlər də deyilir. Bu gün fişerlərin hədəfi bankların və elektron ödəmə sistemlərinin müştəriləridir. Fişerlər hələ kifayyət qədər İT savadlılığı olan ABŞ- da meydan oxuyurlar. ABŞ-da Daxili Gəlirlər Xidməti (ingilis dilində *Internal Revenue Service*) (ABŞ-ın vergi xidmətidir Amerika Birləşmiş Ştatları Federal Hökumətinin vergi toplayan və vergi qanunlarına əməl edilməsinə nəzarət edən dövlət orqanıdır) adı ilə maskalanaraq, gizlənərək fişerlər vergi ödəyiciləri haqqında kifayyət qədər verilənləri, məlumatları toplamışdılar. Burada fişerlərin hücum taktikasıda dəyişmişdir. Əgər ilk məktublar təsadüfən onlara lazım olan bankın və ya xidmətin müştərilərinə çatacaqları ümidi ilə göndərilirdisə, indi fişerlər zərər çəkmiş şəxsin hansı xidmətlərdən istifadə etdiyini müəyyən edə bilir və məqsədli poçt göndərmələrini tətbiq edir. Son fişinq hücumlarının bir hissəsi birbaşa şirkətlərdə rəhbər vəzifələrdə çalışan rəhbərlərə və şirkətlərdə yüksək vəzifələr tutan digər insanlara yönəldirilmişdir.

Dünyada daha çox istifadəşiyə malik olan Sosial şəbəkələr də fişerlər üçün böyük maraq doğurur. Fişerlər sosial şəbəkələrdən istifadəçilərin şəxsi məlumatlarını toplamaq üçün istifadə edirlər. 2006-cı ildə bir kompüter qurdu (Şəbəkə qurdu, lokal və qlobal (İnternet) kompüter şəbəkələri vasitəsi ilə müstəqil yayılan bir zərərli proqram növüdür) MySpace sosial şəbəkəsində qeydiyyat məlumatlarını oğurlamağa yönəlmiş fişinq saytlarına bir çox linklər, istinadlar yerləşdirmişdir. 2008-ci ilin may ayında ilk belə qurd məşhur rus dilli İnternet mühitinin sosial şəbəkəsi sayılan VKontakte-də yayılmışdır. Mütəxəssislərin fikrincə, sosial şəbəkələrə edilən fişinq hücumlarının 70% -dən çoxu müvəffəqiyyətli olmuşdur.

Ümumiyyətlə, İnternetdə fişinq sürətlə inkişaf edir, lakin onun vurduğu ziyanın qiymətləndirmələri çox dəyişir: Gartner şirkətinə görə, 2004-cü ildə fişerlərin qurbanları 2.4 milyard dollar itirmişdilər, 2006-cı ildə dəymiş ziyan 2.8 milyard dollara çatmışdır, 2007-ci ildə isə dəymiş ziyan 3,2 milyard dollara çatmışdır. Təkcə ABŞ-da 2004-cü ildə 3,5 milyon insan fişinq qurbanı olmudur, 2008-ci ildə isəABŞ-da fişimq qurbanlarının sayı 5 milyona yüksəlmişdir. Nəzərə alsaq ki, dunyada ABŞ dövləti İT texnologiyalarının vətənidir, onda digər dünya dövlətlərində, o cümlədən də ölkəmizdə fişinq hücumları ilə vəziyyətin daha acınacaqlı olduğunu təssəvür etmək çətin deyil.

**Fişinq hücumlarının növləri haqqında**

Müasir dövrdə ən çox istifadə olunan kiber hücum növlərindən saylan fişinq hücumlarının da özünə məxsus hücum texnikası vardır. Bu məqalədə bəzi fişinq hücum texnikaları ilə və onlara uyğun mübarizə üsulları ilə tanış olaq. Müasir dövrdə daha çox istifadə olunan və geniş yayılmış fişinq texnikaları əsasən aşağıdakılardan ibarətdir.

**Fişinq hücumlarında veb- istinadların istifadəsi**

Fişinq hücümlarının, metodlarının bəziləri veb- istinadlar vasitəsilə həyata keçirilir. Bu baxımdan fişinq metodlarının əksəriyyəti, müəyyən həqiqi təşkilatların istinadları altında konkret fişinq saytlarına saxta istinadları gizlətməyə gətirilir. Bu məqsədlə dolaşıq, səhf yazılmış ünvanlar və ya subdomenlər (Subdomen daha yüksək səviyyəli domenin bir hissəsidir) tez-tez fırıldaqçılar tərəfindən istifadə olunur.

Məsələn, müəyyən səhflərlə yazılmış http://www.yourbank.example.-com/ ünvanı Your bank adlı bankının ünvanına bənzəyir, amma əslində isə bu ünvan example.com saytının fişinq komponentinə yönləndirir. Bu sahədə başqa bir geniş yayılmış hiylə, xarici görünüşcə düzgün yazılmış istinadı, ünvanı fişinq saytına yönləndirməyi istifadə etməkdir. Məsələn, elə formalaşdırırlar ki, http://ru.wikipedia.org/wiki/Baku istinadı "Baku" məqaləsinə deyil, müəyyən fişinq komponentinə malik olan "York" məqaləsinə daxil olmağa səbəb olacaqdır.

Fişinq sahəsində əvvəllər geniş istifadə olunan aldatma metodlarından biri də, istifadəçi adını və şifrəsini linkə, istinada daxil etmək üçün istifadə olunan "@" simvolu daxil edilmiş linklərin, istinadların istifadə edilməsidir. Məsələn, http://www.google.com@polad.booking.com/ yazılışlı linki, istinadı www.-google.com saytına deyil, www.google.com şəklində istifadəçisi adından polad.booking.com səhifəsinə keçidi təmin edir. Bu şəkildə fişinq hücumların qarşısını bəzən brauzerlər səviyyəsində almaq olur. Bu hücumların qarşısını almaq üçün müəyyən brauzerlərə konkret funksiyalar daxil edilmişdir. Belə fəaliyyəti Internet Explorer brauzeri qadağan edir, deaktiv edir. Məsələn, Internet Explorer brauzerində ünvan sətrında http://www.google.com@polad.booking.-com/ ünvanını, linkini daxil etdikdə Internet Explorer heç bir səhifəyə keçidi təmin etmir və ekrana aşağıdakı kimi xəbərdarlıq pəncərəsi çıxır (şəkil 1).




***Şəkil 1.***

Mozilla Firefox və Opera brauzerləri isə belə ünvanlarla qarşılaşanda, bu haqda xəbərdarlıq edir və bu sayta keçidi təsdiqləmək üçün sizin təsdiqinizi təklif edir.

Başqa bir problem brauzerlər tərəfindən Beynəlxalq Domain Adlarını (Internationalized Domain Names (IDN))- milli əlifbaların simvollarını (məsələn, президент.рф) emal edən zaman aşkarlanır: məsələn, rəsmi ünvanla vizual olaraq eyni olan ünvanlar dələduzların saytlarına keçidi təmin edə bilər.

**Filtrlərin yoxlanması üsulu**

Fişerlər bəzən öz məqsədləri üçün mətn əvəzinə şəkillərdən də istifadə edirlər. Fişerlər tez-tez mətn əvəzinə şəkillərdən istifadə edirlər ki, bu da antifişinq filtrləri ilə saxta e-məktubları aşkarlamağı çətinləşdirir. Lakin mütəxəssislər bu növ fişinqlə necə mübarizə aparmağı da öyrənmişdilər. Beləliklə, poçt proqramlarının filtrləri ünvan kitabında olmayan ünvanlardan göndərilən şəkilləri avtomatik olaraq blok edə bilir. Bundan əlavə, spam və fişinq üçün istifadə olunan eyni növ şəkillərin imzaları ilə şəkilləri müqayisə və emal edə biləcək texnologiyalar da meydana gəlmişdir.

**Veb- saytların istifadəsi**

Fişinq hücumlarında aldatma qurbanın fişinq saytına baş çəkməsi ilə bitmir. Bəzi fişerlər ünvan sətrini dəyişdirmək üçün JavaScript- dən istifadə edirlər. Buna ya saxta URL ilə bir şəkil ünvan sətrinin üstünə qoymaqla və ya həqiqi ünvan sətrini bağlamaq və saxta URL ilə yenisini açmaqla nail olurlar.

Təcavüzkar həqiqi bir saytın skriptlərində zəifliklərdən istifadə edə bilər. Bu cür fırıldaqçılıq növü (saytlararası skriptinq kimi tanınır) daha təhlükəlidir, çünki istifadəçi hər şeyin həqiqi göründüyü (veb ünvandan sertifikatlara qədər) rəsmi veb saytın əsl səhifəsində avtorizasiya edir. Bu cür fırıldaqçılıq növü saytlararası skriptinq kimi də tanınır. Xüsusi bacarıqlar olmadan belə fişinq hücumlarını aşkarlamaq çox çətindir. Bu üsul ən böyük debet elektron ödəmə sistemi olan PayPal sisteminə də tətbiq edilmişdir.

Fişinqlik əleyhinə nəzərdə tutulan skanerlərə qarşı mübarizə aparmaq üçün fişerlər Flash texnologiyaya əsaslanan veb saytlardan istifadə etməyə başladılar. Flash texnologiya veb əlavələri və ya multimedialı təqdimatları yaratmaq üçün Adobe Systems şirkətinin multimedia platformasıdır. Bu texnologiyadan reklam plakatları, animasiyalar, oyunlar yaratmaq, habelə veb səhifələrdə video və səs yazıları ifa etmək üçün geniş istifadə olunur. Xarici olaraq, oxşar bir sayt orijinal sayta bənzəyir, ancaq burada mətn multimedia obyektlərində gizlidilir.

**Fişinq hücumuna qarşı mübarizə üsulları**

Fişinq hücumlarına qarşı mübarizədə müxtəlif üsullar mövcuddur. Bu mübarizə üsullarına, fişinqdən qorunmaq üçün hazırlanmış xüsusi texnologiyalar və qanunvericilik tədbirlər daxildir.

Fişinqlə mübarizə üsullarından biri insanlara fişinqi ayırd etməyi və bununla mübarizə aparmağı öyrətməkdir. Bu baxımdan da bu məqalə çox aktualdır. İnsanlar fişinqlik haqqında müəyyən biliklər əldə etməklə davranışlarını bir az dəyişdirərək fişinq təhlükəsini azalda bilərlər. Beləliklə, hesabın, xüsusəndə bank hesabının "təsdiqlənməsini" xahiş edən bir elektron məktuba cavab olaraq (və ya fişerlərin hər hansı digər adi istəyinə) mütəxəssislər, mesajın orijinallığını yoxlamaq üçün adından mesaj göndərilən şirkətlə əlaqə qurmağı məsləhət görürlər. Bundan əlavə, mütəxəssislər şübhəli mesajda hər hansı bir hiperistinadı istifadə etmək əvəzinə təşkilatın konkret veb ünvanını brauzerin ünvan sətrinə daxil etməyi məsləhət görürlər.

Əsas diqqət ediləsi məsələlərdən biri də ondan ibarətdir ki, təşkilatlardan demək olar ki, daxil olan bütün orijinal mesajlar, fişerlər üçün əlçatmaz olan müəyyən bəzi məlumatların qeydini ehtiva edir. Bəziləri, məsələn, məşhur PayPal ödəmə sistemi, müştərilərinə elektron formada həmişə adları ilə müraciət edir və bu sistemin adından "Hörmətli PayPal müştərisi" ümumi mesajı ilə göndərilən məktublar artıq bir fişinq hücumu cəhdi kimi qiymətləndirilə bilər. Banklardan və kredit təşkilatlarından gələn elektron məktublar özündə çox

vaxt hesab nömrəsinin bir hissəsini də saxlayır. Ancaq son tədqiqatlar insanların hesabın ilk rəqəmlərinin görünüşünü və ya son rəqəmlərin bir-birindən ayırmadığını, ilk rəqəmlərin isə maliyyə təşkilatının bütün müştəriləri üçün eyni ola biləcəyini göstərdi. İnsanlara heç bir xüsusi şəxsi məlumatı olmayan hər hansı bir məktubun şübhəli olduğunu izah edə bilərsiniz. Lakin 2006-cı ilin əvvəlindəki fişinq hücumları oxşar şəxsi məlumatları malik olurdu, buna görə də bu cür məlumatların mövcudluğu da hələ mesajın təhlükəsizliyinə zəmanət vermir. Bundan əlavə, digər başqa bir araşdırmalara görə, şəxsi məlumatların olması, hələ fişinq hücumlarının müvəffəqiyyət dərəcəsini əhəmiyyətli dərəcədə dəyişmədiyini, insanların əksəriyyətinin bu cür təfərrüatlara əhəmiyyət vermədiklərini göstərmışdır.

Fişinq hücumlarına qarşı ən geniş yayılmış mübarizə üsullarından biri də mübarizənin texniki metodlarıdır. Fişinqlə mübarizənin texniki metodları da geniş spektrə malikdir. Bu metodlar əsasən aşağıdakılardan ibarətdir.

**Fişinq hücumları haqqında xəbərdarlıq edən brauzerlərin istifadəsi**

Fişinq hücumlarından qorunmaq üçün vasitələrdən biri də İnternet- brauzerləri vasitəsilə mübarizədir. Fişinqlərlə mübarizə aparmaq üçün İnternet-brauzerlərində uyğun vasitələrdən istifadə edilir. Bununla bağlı olaraq fişinqlərdən qorunmaq üçün əsas İnternet- brauzerlərinin istehsalçıları istifadəçilərə fırıldaqçılara aid ola biləcək şübhəli sayt açdıqlarını bildirmək üçün eyni metodlardan istifadə etməyə razılıq vermişlər. Belə əsas brauzerlərin son yeni versiyalarında artıq "anti-phishing" adlandırılan bu imkan, xüsusiyyət vardır.

Fişinq hücumlarına qarşı mübarizənin başqa bir istiqaməti, əvvəlcə fişinq saytlarının siyahısını yaratmaq və sonradan onun əsasında müqayisələrin yoxlanılmasıdır. Belə sistemlər Internet Explorer, Mozilla Firefox, Google Chrome, Safari və Opera brauzerlərində mövcuddur. Firefox brauzeri Google şirkətinin antifişinq sistemindən istifadə edir. Opera brauzeri PhishTank və GeoTrust qara siyahılarından istifadə edir. 2006-cı ildə edilən bir müstəqil araşdırmaya görə, Firefox-un Internet Explorer-dən daha çox fişinq saytlarını aşkarlamaqda daha effektiv olduğu aşkar edilmişdir. Buna görədə fişinqlə mübarizəni gücləndirmək üçün daha Firefox brauzerindən istifadə etmək lazımdır.

**Avtorizasiya prosedurunun çətinləşdirilməsi**

Fişinq hücumlarına qarşı mübarizənin əsas texniki metodlarından biri də istifadəçilərin avtorizasiya prosedurunun çətinləşdirilməsidir. Bir qayda olaraq banklar və maliyyə sistemləri öz istifadəçilərinin avtorizasiyasını loqin və parolla həyata keçirirlər. Fişinqliyin qarşısını almaq üçün isə bu metod o qədər də kifayyət etmir. Ona görədə fişinqliklə mübarizəni gücləndirmək üçün əlavə tədbirlərində görülməsi zərurəti yaranır. Bu tipli əlavə tədbirlərə misal olaraq Amerikanın məşhur maliyyə mərkəzlərindən biri olan Bank of America saytını göstərmək olar. Amerikanın məşhur maliyyə mərkəzlərindən biri olan Bank of America saytı istifadəçilərə onların avtorizasiyası zamanı şəxsi təsviri seçməyi

də təklif edir və istifadəçinin seçdiyi bu şəkli hər parol daxil etmə formasında göstərir. Bu zaman həmin bank xidmətinin istifadəçiləri yalnız seçilmiş təsviri görəndə parol daxil etməlidirlər. Ancaq son bir araşdırma da göstərdi ki, görüntünün olmaması parol daxil edərkən əksər diqqətsiz istifadəçiləri də dayandırmır.

Məhz bu avtorizasiya metodunu Azərbaycanda fəaliyyət göstərən bank sistemləri tətbiq etsə daha faydalı olar və ölkəmizdə onlayn ticarət və ödəmə edənlərin təhlükəsizliyini kifayyət qədər artırmış olarlar. Çünki artıq ölkəmizdə də bu sahədə kiber cinayətkarlıq artmağa başlamışdır. Bunun haqqında 24 aprel 2020 tarixində azərtacın yaydığı məlumatda deyilir. (Bax:https://-azertag.az/xeber/Azerbaycanda_bank_sektoruna_qarsi_kibercinayetler_ toret-mekde_teqsirli_bilinen_Bolqaristan_vetendaslari_saxlanilib_VIDEO-1471083). Məlumatda qeyd olunub ki, ölkənin bank sektoruna qarşı kiber cinayətlər törətməkdə təqsirli bilinən Bolqarıstan vətəndaşları saxlanılıb. Belə ki, Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən ölkə ərazisində bank sektoruna qarşı kiber cinayətlər törətməkdə təqsirli bilinən Bolqarıstan vətəndaşları Stoychev Marian Nikolov və Mladenov Vladislav Tsvetanov Bakı şəhəri ərazisində saxlanılıblar. "Müəyyən olunub ki, adları çəkilən şəxslər kibercinayətkarlıqda istifadə olunan xüsusi qurğular, eləcə də mikrosxemlər və digər ləvazimatlar vasitəsi ilə paytaxt ərazisində müxtəlif banklara məxsus bankomatlara müdaxilələr ediblər. Bu ilin fevral və mart aylarında ölkəmizə gələn qrup üzvləri əvvəlcədən hazırladıqları plana əsasən bankomat aparatlarına müdaxilələr edərək külli miqdarda pul vəsaitlərini mənimsəməyə cəhd göstəriblər. Onlar bankomat aparatlarının kart oxuyucu hissəsinə xüsusi qurğular yerləşdirərək bu yolla müştərilərə məxsus kartların PİN kodları barədə məlumatları əldə ediblər və kartların qeydiyyatını aparıblar" məlumatda deyilir.

Bu cinayətkarlarında məqsədi ödəmə kartlarının loqin və parollarını oğurlayaraq onlardan istifadə cəhdləri olmuşdur. Azərtacın yaydığı bu məlumat bu məqalənin ölkəmizdə də bu gün ən aktual olan təhlükəsizlik məsələlərindən birinə həsr olnur.

**Elektron poçt məlumatlarında fişinqlə mübarizə vasitəsi**

Aydındır ki, əksəriyyət fişinq hücumları istifadəçilərə əsasən e-poçt vasitəsilə göndərilir. Bunun üçün e- poçt sistemlərində xüsusi spam filtrlərindən istifadə edirlər. Xüsusi spam filtrləri istifadəçilər tərəfindən qəbul edilən fişinq e-poçtlarının sayını azalda bilir. Bu üsul, fişinq e-poçtlarını təhlil edərkən maşın öyrənməsinə və təbii dil işlənməsinə (Təbii dilin emalı (*Natural Language Processing, NLP*) süni intellekt və riyazi dilçiliyin ümumi istiqamətidir. Bu kompüter analizi və təbii dillərin sintezi problemlərini öyrənir) əsaslanır.

Maşın təlimi, öyrətməsi (İngilis *machine learning,* ML) - süni intellekt metodları sinifidir, xarakterik xüsusiyyəti bir problemin birbaşa həlli deyil, bir çox oxşar problemlərin həllərinin tətbiq etmək prosesinin təlimdir. Bu cür me-

todların qurulması üçün riyazi statistika, ədədi metodlar, optimallaşdırma metodları, ehtimal nəzəriyyəsi, qraflar nəzəriyyəsi, rəqəmli formada məlumatlarla işləmək üçün müxtəlif üsullardan istifadə olunur.

Təbii dilin emalı (*Natural Language Processing, NLP*) süni intellekt və riyazi dilçiliyin ümumi istiqamətidir. Bu kompüter analizi və təbii dillərin sintezi problemlərini öyrənir.

**Monitorinq xidmətlərinin həyata keçirilməsi**

Bəzi şirkətlər antifişinqliklə geniş miqyasda məşgul olmağı özlərinə fəaliyyət forması kimi seçmişdir. Bəzi şirkətlər, fişinq hücumlarına həssas olan banklar və digər təşkilatlara, gecə-gündüz monitorinq, analiz və fişinq saytlarının bağlanmasında kömək təklif edirlər. Fiziki şəxslər bu qruplara kömək edə bilərlər. Belə fəaliyyət formasi ilə məşğul olan misal olaraq PhishTank xidmətini göstərmək olar.

PhishTank– internet istifadəçiləri ilə əməkdaşlıqdan istifadə edərək, fişinqə qarşı yönəlmiş bir xidmətdir. Bu şirkət fişinqin təsdiqlənməsinin özünəməxsus sistemini təklif edir. Bu sistem internet istifadəçilərinin qarşılıqlı fəaliyyətinə əsalanır, belə ki, internet istifadəçilərinin bəziləri fişinq şübhəsi doğuran mənbələrə bağlantıları, linkləri nəşr edirlər, digər istifadəçilər isə bu qaynaqların fişinq olub olmadığına "səs verirlər". Beləliklə də mənbənin doğurdan da fişinq olması aşakarlanır. Bu baxımdan dünyada İnternetdə fişinq mənbələrinin aşkar edilməsində PhishTank ən əsas vasitələrdən biridir. Onu da qeyd edək ki, fişinq hücumlarına qarşı mübarizənin əsas vasitələrindən biri də hüquqi tədbirlərdir.

## ОБ ОДНОМ КИБЕРАТАКЕ, КОТОРАЯ ШИРОКО РАСПРОСТРАНЕНА В НАШЕ ВРЕМЯ

**ГУЛИЕВ Н.А.**

***РЕЗЮМЕ***

*В современном мире происходит переход к онлайн-активности. В частности, широкомасштабный переход к онлайн-активности ускорил период пандемии коронавируса, сделав его без альтернативой. Сегодня большая часть финансового оборота в мире осуществляется онлайн или с помощью платежных карт. Активность в Интернете, а также использование онлайн-платежей, широкое использование пластиковых карт в этой области также создает много неотъемлемых опасностей. В этой статье рассматриваются эти типы угроз и как с ними бороться. В связи с этим публикация этой статьи очень актуальна.*

***Ключевые слова**: кибератака, фишинговая атака, фишер, виды фишинг-атак, антифишинг*

## ABOUT ONE CYBER ATTACK, WHICH IS WIDESPREAD IN OUR TIME

**QULIYEV N.A.**

***SUMMARY***

*In the modern world, the transition to online activity is taking shape. In particular, the large-scale transition to online activity has accelerated the period of the coronavirus pandemic, making it without an alternative. Today, most of the financial turnover in the world is carried out online or using payment cards. Online activity, as well as the use of online payments, the widespread use of plastic cards in this area also creates many inherent dangers. This article deals with these types of threats and how to deal with them. In this regard, the publication of this article is very relevant.*

***Keywords**: cyber attack, phishing attack, phishing, types of phishing attacks, anti-phishing.*

# MÜASİR KİTABXANA- İNFORMASİYA MÜƏSSİSƏLƏRİNİN SOSİAL FUNKSİYALARI

**KAZİMİ PƏRVİZ**
***BDU, Tarix üzrə fəlsəfə doktoru, dosent.***
***pkazimi@mail.ru***

*Kitabxananın ictimai fenomen kimi meydana gəlməsi kitabxanaların yaranmasının obyektiv şərtləri kimi izah olunur. Məlumatın toplanması və saxlanması ehtiyacı, sənədlərin saxlanması üçün xüsusi qurğuların yaradılması, kitabxanaçı peşəsinin meydana gəlməsi, kitabxana oxucusunun (istifadəçisinin) meydana gəlməsi kitabxana fəaliyyətinin başlanğıcı və vəzifələri olaraq müəyyənləşdi. Kitabxananın sosial rolu, sosial məqsədi kimi kitabxanaların insan cəmiyyətində sosial rolu ilə müəyyənləşir. Müasir kitabxananın əsas vəzifələrinin təhlili və qiymətləndirilməsi göstərir ki, informasiya, təhsil, mədəniyyət və s. ünsürlərin inkişafı ilə kitabxanalar da cəmiyyətin inkişaf səviyyəsinin və maddi rifahının göstəricisi kimi ifadə olunur. Cəmiyyətin məlumatlandırılmasında kitabxananın rolu artdıqca Kitabxana gündəlikc həyat forması və mədəniyyətin qorunması üçün bir şərt kimi özünü göstərir.*

**Açar sözlər:** *Sosial funksiyalar, müasir kitabxanalar, informasiya müəssisəsi, texnoloji funksiyalar.*

Kitabxananın "əsas funksiyaları" anlayışına kimi Kumulyativ (Məcmu), utilitar, məlumatverici və digər ümumi kitabxana funksiyaları daxildir. Əsas funksiyaların təsnifat əlamətləri və kitabxananın zəruri funksiyaları konkret tarixi şəraitdə reallaşdırılmışdır, eləcə də onlar ətraf mühitdən xeyli asılıdır.

Sosioloji mənada, kitabxanalar müəyyən bir sosial qurumun daha yüksək səviyyəli bir sisteminin ehtiyacları ilə əlaqədar həyata keçirdiyi rolu ifadə edir. Buna görə də "funksiya" termini leksik formasından asılı olmayaraq kitabxanaşünaslıqda istifadə olunan məsələnin mahiyyətini müəyyənləşdirməkdir: beləki, kitabxanaların cəmiyyət üçün tam olaraq nə edir, cəmiyyətin üzərinə hansı vəzifələr düşür, kitabxanalar cəmiyyətin hansı vəzifələrini həll etməyə kömək edir.

Ənənəvi olaraq kitabxanaların 2 funksiyası müəyyənləşdirilir. Sosial və Texnoloji funksiyalar. Sosial funksiyalar təsir obyektinə görə kitabxananın daxili hüdudlarından kənara çıxan xarici funksiyalardır ki, buna müasir cəmiyyətə birbaşa və ya dolayı təsir göstərən funksiyalar kim də baxmaq olar.

Texnoloji funksiyalar - bunlar kitabxananın sosial funksiyalarını yerinə yetirmək, habelə kitabxananın fəaliyyətini lazımi qaydada və ya tələb olunan lazımi səviyyədə saxlamaq üçün əsas şərt kimi xidmət edən kitabxananın divarlarından kənara çıxmayan daxili fəaliyyətlərdir. Müasir Cəmiyyət tərəfindən kitabxanaların texnoloji funksiyaları hiss olunmaya bilər, eləcə də, onların

mövcudluğundan cəmiyyətin xəbəri olmaya da bilər. Lakin bunlar "kitabxana istehsalının" ümumiləşdirilmiş əksi və ifadəsidir.

Kitabxanaların sosial funksiyaları haqqında milli və dünya kitabxanaşünas alimlərinin fikirlərini ümumiləşdirərək aşağıdakıları: İdeya-tərbiyəvi (ideoloji), mədəni və maarif, məlumatlandırıcı (informativ), əyləndirici-hedonistik (hedone - zövq) funksiyalarını göstərmək olar.

Bir sıra kitabxanaşünas alimlər kitabxanalara aşağıdakı sosial funksiyaları aid edirlər: 1. Məlumatlandırma, 2. Mədəni, 3.İstirahət və ya bərpa edici (Recreatio - bərpa - lat.) funksiyalar. Yəni əmək prosesində sərf olunan insanın intellektual güclərinin bərpasına töhfə verən funksiya. Bu da kifayət qədər diqqəti cəlb edən yanaşmadır.

Rusiya Federasiyasının "Kitabxana haqqında" qanuna (1994) görə, kitabxana "tirajlanan sənədlərin mütəşəkkil fonduna sahib olan və fiziki və hüquqi şəxslərə müvəqqəti istifadəni təmin edən bir məlumat, mədəniyyət, təhsil müəssisəsidir". Buna görə də, Rusiya mütəxəssisləri kitabxanaların sosial sifariş kimi ən azı üç funksiyasının mövcudn olduğunu hesab edir.

1998-ci ildə Azərbaycanda qəbul olunmuş kitabxana işi haqqında qanunda bu problem daha geniş və məzmunlu ifadə olunur. Qanunda deyilir: kitabxana – elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdır.

Göründüyi kimi, bu qanunda kitabxanaların funksiyası ayrı-ayrı istiqamətlər kimi deyil, kompleks institut olaraq təqdim olunur.

İnformasiya (məlumatlandırma) funksiyası maddi və mənəvi istehsalın və çoxalmanın informasiya təminatı üçün fəaliyyət növlərinin məcmusudur.

Mədəni funksiya oxucuların sərbəst mənəvi inkişafına, daxili və dünya mədəniyyətinin dəyərləri ilə tanış olmağa, mədəni şərait yaratmasına yönəlmiş iş növlərindən ibarət olub, reproduktiv və məhsuldar fəaliyyətlərdir. Bunuda qeyd etmək vacibdir ki, kitabxanalar funksional məqsədlərindən kənara çıxan heç bir dəyər yaratmır.

Kitabxanaların əsas sosial missiyası, ümumiyyətlə mədəniyyət institutu kimi, hər bir konkret oxucunun mədəniyyətinə münasibətdə əvəzsiz dəstəkləyici, yəni informasiya təminatçısı rolunu oynaması ilə ifadə olunur.

Kitabxanalar - cəmiyyətin, dövlətin, millətin mədəniyyətinin tərcüməçisi və ifadəçisidir. Qlobal texniki və sosial-mədəni inqilab olaraq informasiyalaşdırma kitabxana ilə cəmiyyət arasındakı münasibətlərin mövcud stereotiplərinin dəyişdirilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Yeni şəraitdə kitabxanalar, xüsusən də ictimai kitabxanalar, ən açıq kommunikativ ictimai quruluşlar olmaqla, təkcə məlumatlandırma obyekti kimi deyil, həm də bu prosesin aktiv subyektləri kimi nəzərə çarpan rol oynayırlar. Sosial funksiyalar müasir

Elektron avadanlıqlarla təchiz edilmiş və yeni kitabxana-informasiya texnologiyalarını mənimsəyən ictimai kitabxanalar geniş oxucu kütləsinin yeni informasiya rejiminə cəlb olunmasına şərait yaradır, onları intensiv, kommunikativ qarşılıqlı fəaliyyətə, informasiya mənbələrindən daha geniş istifadəyə, effektiv dövriyyəyə əsaslanan yeni münasibətlər sisteminə daxil edir.

Müasir insan elmi biliklər və yeni fikirlər nəsli kimi səciyyələndirilir. Beləliklə, kitabxanalar cəmiyyətin müxtəlif təbəqələri arasında "informasiya şüurunun" formalaşmasına fəal şəkildə təsir göstərir, yəni hər hansı bir fərdin həyatı üçün məlumatın vacibliyini, mütərəqqi inkişafda aparıcı rolunu informasiya cəmiyyətinin fərqli xüsusiyyətləri kimi tanıdır.

Kitabxanalar ictimaiyyətə açıq olan məlumatların toplanması, saxlanması, istehsalı, yayılması və istifadəsi proseslərində iştirak etməklə, onu sosial-iqtisadi inkişafın ikinci dərəcəli amilindən maddi istehsalın əsas bazasına, dəyərli sosial məhsula, milli mənbəyə çevirmək, inkişafının daha da sosial tərəqqidən asılı olmasına şərait yaradır. Bundan əlavə, milli informasiya mənbələrinin formalaşmasında və onlardan kütləvi istifadənin təmin edilməsində kitabxanaların rolu durmadan artır.

Nəhayət, bütün müasir informasiya və kitabxana xidmətlərinin sistemi əhalinin bütün təbəqələrinin - üst idarəetmə strukturlarından tutmuş maddi istehsalın aşağı sahələrinə və konkret bir şəxsə informativlik səviyyəsini yüksəltməyə yönəlmişdir. İctimaiyyətin məlumatlandırma səviyyəsi onun informasiya xarakteri daşımasının əsas meyardır.

İctimai şüurda texnokratik paradiqmanın üstünlüyü ilə səciyyələnən informasiya cəmiyyətində ictimai kitabxananın geniş mədəni və maarifləndirici funksiyaları olan bir humanitar qurum olaraq özünü reallaşdırması çox vacibdir. Müasir dövrdə ictimai əlaqələrin humanistləşdirilməsində, mənəvi dəyərlərin, mədəniyyətin qorunub saxlanmasında və ötürülməsində kütləvi kitabxanaların rolu çox böyükdür.

Davam edən sosial-iqtisadi dəyişikliklərin təsiri altında və yeni informasiya texnologiyalarının tətbiqi ilə əlaqədar olaraq kitabxanalar ənənəvi sosial funksiyalarını, məqsədlərini, vəzifələrini və sosial əlamətlərini yenidən nəzərdən keçirməyə başlayır. Yeni sosial mühitdə istənilən kitabxananın əsas sosial funksiyası kimi – memorial funksiya, sənədli (mediada) məlumatların toplanması və saxlanması ilə əlaqədardır. Ən kiçik kütləvi kitabxana bəşəriyyətin kollektiv yaddaşının yerli qoruyucusu rolunu oynayır və bu da onun ümumi mədəniyyət prosesindəki rolunu müəyyənləşdirir.

Eyni zamanda, kitabxanalar yalnız mədəni irsin elementlərini saxlamır, həm də mədəniyyətin reallığında, yəni kollektiv yaddaşın insandan insana, nəsildən-nəslə ötürülməsində iştirak edir, bu da bir çox cəhətdən kitabxananı təhsil sahəsinə yaxınlaşdırır.

İnformasiya cəmiyyətində ictimai kitabxananın xatirə və əlaqələndirici funksiyaları bütövlükdə cəmiyyətin humanizasiyasına və onun mənəviyyatının qorunmasına öz töhfəsini verdikləri üçün xüsusi sosial əhəmiyyət kəsb edir.

Bu funksiyalar, getdikcə daha çox elmi tədqiqat xarakteri qazanan kitabxanaların ölkəşünaslıq (bölgəşünaslıq) işində, təhsilə informasiya dəstəyi sisteminin formalaşmasında, mədəni və maarifləndirici tədbirlərdə fərdi və müxtəlif təhsil strukturlarının informasiya ehtiyaclarının diferensial şəkildə ödənilməsinə yönəldilmişdir.

İnformasiyalaşma kitabxanaların əsas sosial funksiyasının həyata keçirilməsində ciddi dəyişikliklər yaradır. Kitabxanaların təklif etdiyi informasiya xidmətləri və məhsulların çeşidi genişlənir. Kitabxana və ya biblioqrafik xidmətlər düzgün, yəni sənədlərin və ya biblioqrafik məlumatların verilməsi, orijinal mənbələri əvəz edə biləcək və istifadəçinin vaxtına qənaət edə bilən yeni məlumat ötürmə formaları ilə əvəz olunur.

Kitabxanalarda sosial, hüquqi, iqtisadi məsələlər, yerli idarəetmə, sahibkarlıq fəaliyyəti, mədəni həyat və diyarşünaslıq üzrə faktoqrafik məlumat bazaları formalaşdırılır. Məlumatların işlənməsinin analitik metodları mənimsənilir, sənədlərin mətnlərinin semantik fraqmentlərini (məlumat topluları, analitik toplular) qoruyub saxlayır, məlumat problemlərinin həllinə kompleks yanaşma həyata keçirir, bu zaman istehlakçı onu maraqlandıran mövzuda bütün zəruri məlumat və məsləhət xidmətləri alır. Eyni zamanda əvvəllər kitabxananın informasiya fəaliyyətinin əsas məhsulu olan biblioqrafik məlumatlar tədricən "daxili" istifadənin köməkçi vasitəsinə çevrilir.

Elektron texnologiyalar sayəsində kütləvi kitabxanalar istifadəçiyə xidmət edərkən öz məlumat bazalarından kənara çıxmaq imkanı əldə edir. Eyni zamanda, kitabxanalar getdikcə müxtəlif informasiya strukturlarının məhsul və xidmətlərindən geniş istifadəni təşkil edərək vasitəçi rolunu oynayır və mövcud mənbələrə yönəldirlər. Bu da öz növbəsində təkcə informasiya bazarını mükəmməl bilmək üçün deyil, həm də çatdırılan məhsulların, xidmətlərin keyfiyyətini qiymətləndirmək və düzgün seçim etmək ehtiyacını diktə edir.

Alınan və saxlanan məlumatların, habelə şəbəkə texnologiyaları vasitəsilə istifadəçiyə təqdim olunan məlumatların tərkibinə və məzmununa qiymətləndirici üsullarla yanaşma bu gün xüsusi əhəmiyyət kəsb edir. İstifadəçi (User) məlumat xidmətinin bütün sisteminin keyfiyyət səviyyəsi ondan bilavasitə asılıdır: etibarlılığı, mötəbərliyi, operativliyi, tamlığı, rahatlığı və s.

Kütləvi kitabxanalar özlərini geniş bir məlumat sistemində naviqator (bələdçi) kimi tanıyırlar və bu da onları digər kommunikativ ictimai qurumlardan fərqləndirir. Beləliklə, bu gün ümum-açıq bir kitabxananın əsas məlumat funksiyası təkcə cəmiyyətin informasiya ehtiyatlarına əlçatarlıq təmin etməklə əlaqələndirilmir, həm də resurs qiymətləndirən və resurs yönümlü bir xüsusiyyət əldə edir.

İnformasiya qaynaqlarına istiqamətləndirmə - informasiya mənbələrinin qiymətləndirilməsi - informasiya mənbələrinə çıxış - bu, müasir şəraitdə kütləvi və xüsusi kitabxanaların informasiya funksiyasının həyata keçirilməsinin düsturudur. Əgər əvvəllər kitabxanalar onların xidmətlərindən istifadə etmək motivi olan insanların qruplarına yönəlmiş idisə, kitabxanaların marağı mövcud, ortaya çıxan tələbatı ödəməyə yönəldilmişsə, bu gün kitabxanalar yeni istifadəçiləri "açmaq" yolunu fəal idarə edir, idarə edilmir.

Müasir insanın mürəkkəb konfiqurasiyalı məlumat ehtiyacları mövcuddur. Eyni zamanda, informasiya xidmətlərinin yeni bir paradiqması formalaşır. Ümumi oxucu üçün çox sayda oxşar xidmətin rədd edilməsi və müəyyən bir istifadəçi qrupları üçün kiçik bir həcmdə müxtəlif xidmətlərin inkişafı.

Bununla birlikdə, elektron rabitə dövründə ictimai kitabxana lazımi məlumatları əldə edən yeganə kanal deyil. Hər potensial istehlakçı kitabxanadan istifadənin faydalarını görə bilmir, xüsusən də kitabxanaya öz gözləri ilə baxdıqları üçün.

Kitabxana potensial istehlakçıların məlumat davranışlarını bilməklə inandırıcı şəkildə üstünlükləri göstərə bilər: məlumat aldıqları kanallar, keyfiyyət səviyyəsi, kommunikativ peşə əlaqələri, şəxsi axtarış motorlarının (alətlərin) mövcudluğu, informasiya ilə işləmə bacarığı, yəni informasiya mədəniyyətinin səviyyəsini xarakterizə edən hər şey - istifadəçilər, məlumat ehtiyaclarına istiqamətləri və dinamikası və s.

Bu gün ictimai bir kitabxananın marketinq araşdırmaları və prosedurları vasitəsilə daimi istifadəçi kimi görmək istədiyi fərdi sosial qrupların marketinq ehtiyaclarını və məlumat davranışlarını öyrənməsi üçün oxucu kütləsinin təhlili çox geniş öyrənilməyib. Buna baxmayaraq, kütləvi kitabxanalar hal-hazırda da cəmiyyətin informasiya dövrünə keçidində fəal iştirak etməklə yanaşı, həm də onun demokratik və humanist əsaslarını möhkəmləndirir və davamlı inkişafının təmin olunmasında mühüm amil olur.

## ƏDƏBİYYAT

1. *Xələfov A.A. Kitabxana və cəmiyyət. Bakı, Azərnəşr, 2013, 360 s.*
2. *Artemyeva Elena Borisovna. artem@spsl.nsc.ru*
3. *Kazimi P.F. İnformasiya mühəndisliyi. Bakı, Mütərcim, 2018, 290 s.*

# СОЦИАЛЬНЫЕ ФУНКЦИИ СОВРЕМЕННЫХ ИНФОРМАЦИОННЫХ УЧИРЕЖДЕНИИ (БИБЛИОТЕК)

**КАЗИМИ П.Ф.**

***РЕЗЮМЕ***

*Возникновение библиотеки как общественного явления объективные предпосылки возникновения библиотек. Необходимость накопления и хранения информации, строительство специальных сооружений для хранения документов, возникновение библиотечной профессии, появление читателя (пользователя) библиотеки является началом функционирования библиотек и ее задачи. Трансформация роли библиотек по мере развития человеческого общества требовает анализа и оценки основных задач современной библиотеки: информационной, образовательной, культурной и др. Библиотека как показатель уровня развития и материального благосостояния общества определяеть роль библиотеки в информатизации общества.*

***Ключевые слова****: социальные особенности, современные библиотеки, информационное предприятие, социальные и технологические функции****.***

## SOCIAL FUNCTIONS MODERN INFORMATION INSTITUTIONS (LIBRARIES)

***KAZIMI P.F.***

***SUMMARY***

*The emergence of the library as a social phenomenon Objective prerequisites for the emergence of libraries. The need for the accumulation and storage of information. Construction of special facilities for document storage. The emergence of the library profession. The appearance of the reader (user) of the library. The beginning of the functioning of the library and its tasks. The transformation of the role of libraries as human society evolves. Analysis and evaluation of the main tasks of the modern library: information, educational, cultural, etc. The library as an indicator of the level of development and material well-being of society. The role of the library in the informatization of society.*

***Keywords*****:** *Social Functions, Modern Libraries, Information Enterprise, Social and Technological Functions.*

# KİTABXANALARDA MENECMENTİN TƏTBİQİNİN METODİK TƏMİNATI

**MEHMANƏLİ MƏMMƏDOV**
***BDU, Pedaqoqika üzrə fəlsəfə doktoru, dosent Əməkdar***

*Məqalədə menecment anlayışı izah edilmiş və göstərilmişdir ki, bu fəaliyyət sistemi özünə idarəetmə prosesini, fəaliyyətin təşkilini, icraçılar arasında funksiyaların və məsuliyyətin bölüşdürülməsini, resursların səmərəli seçimi və istifadəsini, çox variantlı qərarların qəbul edilməsi və digər bu kimi məsələlərin mövcudluğunu nəzərdə tutur. Burada, həmçinin qeyd edilir ki, menecmentə məxsus bir sıra iş üsullarının kitabxanalarda tətbiqi nəticəsində kitabxana işinin idarə edilməsinin yeni konsepsiyası-kitabxana menecmenti meydana gəlmişdir ki, tədqiqat işində bu anlayış haqqında ətraflı məlumat verilmişdir.*

**Açar sözlər:** *idarəetmə, idarə olunma, menecer, menecment, metodik təminat, kitabxana, metodist*

İngilis sözü olan ´menecment´öz kökləri ilə ´manus´ yunan sözünə uyğun gəlir ki, bu da “əl”,” güc” deməkdir. Bu anlayışa ingilis dilinin mükəmməl Oksford iüğətində aşağıdakı izahlar verilir:

1. Adamlara münasibət tərzi;
2. Səlahiyyət və idarəetmə məharəti;
3. İdarəetmə orqanı və inzibati vahid;
4. Xüsusi bacarıq qabiliyyəti və inzibati vəzifələr.

İxtisaslaşmış fəaliyyət növü kimi menecment konsepsiyasının baniləri amerikalılar olmuşlar.” Menecment” ifadəsinı isə ilk dəfə 1886-cı ildə biznesmen Q.Taun Amerikanın mühəndis-texnik cəmiyyətində çıxış edərək işlətmiş və o vaxtdan başlayaraq menecment ayrıca bir elm sahəsi kimi formalaşmağa başlamışdır. Bu sahədə görkəmli ABŞ mütəxəssisi F.Teylorun xüsusi xidmətləri olmuşdur. Demək olar ki, ilk klassik menecment məktəbinin banisi F.Teylor olmuşdur. Menecment nəzəriyyəçilərin fikrinə görə F.Teylor menecmentdə “intellektual inqilab” etmişdir. F.Teylorun ideyaları menecmentin mühüm tərkib hissəsi olan əməyin elmi təşkili və normalaşdırılması ilə bilavasitə bağlıdır. Menecment nəzəriyyəsinin davamçılarından biri də görkəmli amerkan mütəxəssisi M.Follet olmuşdur. O, menecmenti aşağıdakı kimi şərh etmişdir: “Menecment - işin başqa şəxslər tərəfindən yerinə yetirilməsinin təminatıdır”. Folletin tədqiqatlarının əsasını kiçik insan qruplarında sosial münasibətlər təşkil etmişdir.

Qərbi avropa mütəxəssislərin fikrincə menecmentin inkişafında fransız A.Fayolun da böyük xidmətləri olmuşdur. Bunu onunla əsaslandırırlar ki, A.Fayol menecmentin universal prinsiplərinin, funksiyalarının irəli sürülmə-

sində və onların idarəetmə sistemində tətbiqində xüsusi xidmətləri olmuşdur. Fayol idarəetmə sisteminin səmərəlilik mənbəyini idarəetmə əməliyyatlarının özündə görürdü və hesab edirdi ki, uğura nail olmağın əsas yolu prinsiplərin düzgün müəyyən edilməsi və tətbiqidir. Fayola görə müəssisənin inkişafı bilavasitə menecerin fəaliyyəti ilə bağlıdır. Bütün bunlara əsasən demək olar ki, menecment idarəetmə deməkdir, onun, yəni idarəetmənin daha ali, daha geniş təzahürüdür. İdarəetmə elminin əsasını qoyan F.Teylor tədqiqatları dövründən bu günə qədər idarəetmə elmi və onun praktikası dərin təkamül dövrü keçmiş və elmi –texniki tərəqqinin güclü inkişafı idarəetməni daha da təkmiləşdirmişdir. Artıq dünyada" menecment konsepsiyası" formalaşmış və onun əsasında da "menecment ifadəsi" öz hüquqi statusunu qazanmışdır. Bununla yanaşı qeyd edilməlidir ki, menecment, həmçinin ictimai-iqtisadi münasibətlərin konkret məqsədəuyğun təşkili metodudur, bütöv bir sistemin ayrı-ayrı hissələri, ünsürləri arasındakı əlaqəni təmin edən bir prosesdir. Menecment əvvəlcədən nəzərdə tutulmuş və dərk edilmiş məqsədə nail olmaq, nəticələr əldə etmək üçün hər hansı bir konkret obyektə məqsədəyönlü təsiretmə vasitəsidir. Bundan başqa menecmentin, onun prinsip və metodlarının bir çox sosial-mədəni sahələrdə, o cümlədən kitabxanalarda tətbiqi nəticəsində kitabxana işinin yeni konsepsiyası, yəni kitabxana menecmenti konsepsiyası meydana gəlmişdir. Kitabxana menecmenti - kitabxana işini zamanın tələbləri səviyyəsində idarə etmək məqsədilə, kitabxana işçilərinin əməyi, intellekti və davranış motivlərindən istifadə etməklə, kitabxananın qarşısına qoyulmuş məqsdlərə nail olması üçün dünya menecment nəzəriyyəsi və təcrübəsində sınaqdan çıxmış mütərəqqi iş üsulları və metodlarının tətbiqi ilə bağlı peşəkar fəaliyyət sahəsidir. Kitabxana menecmenti kitabxana işinin inkişafına, kitabxanaların maddi-texniki bazasının yaxşılaşdırılmasına, onların yeni informasiya texnologiya ilə təchiz edilməsinə, kitab fondunun zənginləşməsinə, kitabxana kadrlarının ixtisasının artırılmasına, əmək məhsuldarlığının təkmilləşdirilməsinə, əməyin stimullaşdırılmasına yaxından kömək edir. Bununla əlaqədar görkəmli kitabxanaşünas alim, professor A. Xələfov qeyd edir ki, "Müasir şəraitdə cəmiyyətimizdə bazar iqtisadiyyatının tətbiqi bütün sahələrdə olduğu kimi kitabxana işinin idarəedilməsi sahəsində də menecmentin tətbiqinə böyük ehtiyac meydana çıxarmışdır. Çünki kitabxana işinin idarə edilməsində elə sahələr var ki, bunlar menecmenti öyrənmədən, onun müddəalarından istifadə etmədən keçinə bilməz". Professor A.Xələfovun fikrincə kitabxana menecmentinin mahiyyəti kitabxana işinin dünya standartları səviyəsində idarə olunmasını təmin etməkdən ibarətdir. Kitabxana menecmentinin mahiyətini dərindən dərk edə bilmək üçün müasir dövrdə kitabxana işinin idarə olunması sahəsində dünya təcrübəsini, dünya informasiya məkanında baş verən prosesləri və bu proseslərlə əlaqədar kitabxanaların fəaliyyətində meydana gələn əsaslı dəyişiklikləri öyrənmək lazım gəlir. Kitabxana menecmentində əsas rol menecerə məxsusdur. Kitabxa-

nada menecer hər hansı bir vəzifədə çalışan və müəyyən fəaliyyət sahələri üzrə qərar qəbul etmək səlahiyyətlərinə malik şəxsdir. Onun əsas məqsədi kollektivi öz iradəsinə tabe etməkdən çox, kitabxananın qarşıya qoyduğu strateji məqsədlərə çatdırmaqdan ibarətdir. Ona görə də menecer yenilikçi olmalı, kadrlarla əməkdaşlıq, işçi qrupların yaradılması və onlarla işləmək bacarığı, işgüzar tərəfdaşlıq, razılıqlar əldə etmək məharəti və b. innovativ ideyalara malik olmalıdır. İctimayi-siyasi hadisələrin sürətlə inkişaf etdiyi hazırkı şəraitdə kitabxanaları günün tələbləri səviyyəsində idarə etmək üçün rəhbər qismində fəaliyyət göstərmək və kollektivi idarə etmək bacarığı kimi geniş diapazonuna malik yaradıcı şəxsiyyət tələb olunur. Bu xüsusiyyətləri isə məhz kitabxana meneceri özündə birləşdirir. Qeyd edilməlidir ki, Azərbaycan kitabxanaşünaslığında "kitabxana menecmenti" anlayışı hələ özünə vətəndaşlıq hüququ qazanmamışdır. Bununla əlaqədar respublikamızın heç bir kitabxanasında ayrıca kitabxana meneceri ştat vahidi yoxdur. Ancaq buna baxmayaraq, kitabxana menecmentinə xas olan bir sıra mütərəqqi iş üsulları ölkəmizdə kitabxana işinin müxtəlif sahələrində uğurla tətbiq olunur. Bu baxımdan müasir şəraitdə respublikamızın kitabxanalarında kitabxana menecmentinin tətbiqi əsasən 3 istiqamətdə özünü göstərir:

1. Kitabxanaların metodik təminatı.
2. Kitabxanaların fandrayzinq fəaliyyəti.
3. Kitabxanalarda əməyin elmi təşkili.

Respublikamızın kitabxanalarında menecmentin tətbiqinin əsas sahələrindən birini kitabxanaların metodik təminatı təşkil edir. Belə ki, kitabxana menecmentində ən mühüm vəzifələrdən biri kitabxanaların elmi-metodik fəaliyyətinin tənzimlənməsidir. Bilavasitə kitabxanaların qabaqcıl iş təcrübəsinin ümumiləşdirilməsinə və kitabxanaşünaslıq elminin son nailiyyətlərinə əsaslanan metodik təminat işini müasir şəraitin tələblərinə uyğun şəkildə qurmadan, bu mühum işi ardıcıl olaraq həyata keçirmədən, kitabxanaların metodik təminatında dünya menecment nəzəriyyəsində işlənmiş, hazırlanmış mütərəqqi iş üsullarından istifadə etmədən kitabxana işinin yüksək keyfiyyətindən danışmaq mümkün deyildir. Məhz buna görə də müasir dövrdə respublikamızda kitabxanaların metodik təminatı menecmentin tətbiqinin əsas sahələrindən biri kimi ön plana çəkilir.

Hazırkı dövrdə kitabxanaların metodik təminatı dedikdə, metodik mərkəzlər tərəfindən kitabxanaların və kitabxanaçıların fəaliyyətinin dövrün tələblərinə uyğun dinamik inkişafına yönəlmiş nəzəri əsaslara və mütərəqqi təcrübəyə söykənən, özündə rəngarəng forma və üsulları birləşdirən təşkilati-metodik əməliyyatların hazırlanıb həyata keçirilməsi nəzərdə tutulur. Kitabxanaların metodik təminatı sistemli fəaliyyət olub cəmiyyətdə kitabxana işinin analitik-sintetik təhlil metodlarına əsaslanan elmi, informasiya, pedaqoji və təşkilati funksiyaları yerinə yetirir. Burada metodik təminat sisteminin təşkilati funk-

siyası kitabxanaların fəaliyyətinin müasir menecment prinsiplərinə uyğun şəkildə idarə olunmasını təmin etməkdən ibarətdir. Deməli buradan belə bir qənaətə gəlmək olar ki, kitabxanaların metodik təminatı kitabxana menecmentinin həyata keçirilməsinin mühüm vasitəsidir. Bu baxımdan metodik təminatın məzmununa, həyata keçirdiyi iş üsullarına, normativ sənədlərin, metodik vəsaitlərin, əhaliyə kitabxana xidmətinin vəziyyətinə dair analtik yazıların hazırlanması, işçilərinin təlimatlandırılması və peşə səviyyəsinin yüksəldilməsi məqsədilə seminar, praktikum, treyninq, digər təlim xarakterli tədbirlərin təşkili, kitabxana işinin aktual problemləri üzrə elmi konfrans, simpozium, müşavirə və tədbirlərin keçirilməsi, qabaqcıl təcrübənin aşkar edilməsi, öyrənilməsi tətbiq edilməsi, kitabxana işinə dair informasiya sisteminin yaradılması, kitabxanaşünaslıq tədqiqatlarının nəticələrinin təcrübəyə tətbiq edilməsi və s. kimi çoxşaxəli fəaliyyət növləri daxildir. Kitabxanaların metodik təminat sistemində menecmentin tətbiqi ilk növbədə bu sistemi təşkil edən bütün komponentləri düzgün müəyyənləşdirib onların fəaliyyətini vəhdətdə görməyi tələb edir. Kitabxanaların metodik təminat sisteminə cəmiyyətdə kitabxanaçılıq fəaliyyətini metodik baxımdan idarə edən, tənzimləyən və istiqamətləndirən, bir-biri ilə qarşılıqlı əlaqədə olan iyerarxiya prnsipi üzrə formalaşmış metodik mərkəzlər kompleksi daxildir. Həmin metodik mərkəzlər aşağıdakılardır: M. F. Axundov adına Azərbaycan Milli Kitabxanası, Respublika Elmi-Texniki Kitabxanası, Respublika Elmi Tibb Kitabxanası, Respublika Elmi Pedaqoji Kitabxanası, Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası, F. Köçərli adına Respublika Uşaq Kitabxanası, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası, AMEA-nın Mərkəzi Elmi Kitabxanası və BDU-nun Elmi Kitabxanası. Elmi-metodik mərkəz statusuna malik olan kitabxanalar kitabxanaşünaslığa, biblioqrafiyaya və informasiyaya dair metodik materiallar nəşr edir, kitabxanaçılıq nəzəriyyəsi və təcrübəsində mütərəqqi iş üsullarını ümumiləşdirib tətbiq edir, kadrların ixtisasının artırılmasını təmin edir Hazırda kitabxanalarda metodik təminatın əsasən aşağıdakı formalarından istifadə edilir:

1. Metodik vəsaitlər və təlimat-metodiki məktubların hazırlanması və yerlərə göndərilməsi;
2. Metodik müşavirələr, seminarlar və elmi-metodik konfransların keçirilməsi;
3. Qabaqcil iş təcrübəsinin ümumiləşdirilməsi və yayılması;
4. Kitabxanaçıların biləvasitə yerlərdə təlimatlandırılması və s.

Qeyd edilməlidir ki, kitabxanalarda menecment fəaliyyətinin həyata keçirilməsi metodik mərkəzlərin çox vacib formalarından biridir. Bu məqsədlə metodik mərkəzlər öz fəaliyyətlərini menecmentin tələblərinə uyğun təşkil etmək məqsədilə kitabxana işinin müxtəlif məsələləri üzrə, dünya təcrübəsinə əsaslanan yeni tipli metodik sənədlər tərtib edir və onların yayılması ilə məşğul olurlar. Belə ki, qloballaşmış informasiya cəmiyyətin formalaşdığı dünya

informasiya məkanında inteqrasiya proseslərinin getdikcə gücləndiyi bir şəraitdə kitabxanaların yeni statusunu müəyyənləşdirən metodik vəsaitlər sisteminin formalaşması ölkədə kitabxana işinin metodik təminatının səmərəliliyinin mühüm amili kimi meydana çıxır. Bu isə ölkədə kitabxana işinin strateji inkişaf yollarının, kitabxanalarda yeni texnologiyaların tətbiqinin və milli kitabxana strategiyalarının yaradılmasının təminatında mühüm rol oynayır. Kitabxanaların metodik təıminatının əsas dəyəri, başlıca aparıcı qüvvəsi – metodist, onun peşə bilikləri, təcrübəsi, məharəti, menecerlik qabiliyyəti, kitabxana proseslərini dərindən dərk etməsidir. Hazırda respublikamızın kitabxnalarında kitabxana menecerinin funksiya və vəzifələrini də məhz metodislər həyata keçirirlər. Bu baxımdan metodist dünya kitabxana-informasiya məkanında baş verən mürəkkəb prosesləri, o cümlədən mütərəqqi iş üsullarını dərindən bilməli, müasir texniki vasitələrdən, elektron texnologiyalardan səmərəli istifadə etməyi bacarmalı, kitabxana menecmentinin xarakterik xüsusiyyətlərinə yaxından bələd olmalıdır. Metodistin öz peşəsinə dərin marağı, məsuliyyət hissi, demokratik əhval-ruhiyyəsi, elmi-analtik təfəkkürü və menecmentlə bağlı hər bir yeniliyə marağı olmalıdır. Bütün bu keyfiyyətlərə malik olan metodistlər bu ğün metodik mərkəzlərin menecment fəaliyyətində yaxından iştirak edir, öz bilik və bacarıqlarını kitabxana işinin inkişafı istiqamətində uğurla tətbiq edirlər.

Nəticə olaraq qeyd edilməlidir ki, kitabxanaların metodik fəaliyyətində menecmentin tətbiqi bu fəaliyyətin idarə olunmasında və xüsusilə metodist əməyinin normalaşmasında və təşkilində, planlaşdırılmasında, uçotunda, metodik tədbirlərin hazırlanmasında və keçirilməsində texnoloji baxımdan ən səmərəli iş üsullarından, etibarlı nəzəri konsepsiyaya malik və dünya kitabxana təcrübəsində sınaqdan çıxmış metodlardan geniş istifadə edilməsi ilə əlaqədardır. Buna görə də kitabxanaların metodik təminat sistemi menecment baxımından həmişə inkişafda olmalı, cəmiyyətdə baş verən mürəkkəb kitabxana-informasiya proseslərinə uyğun olaraq yeni kəmiyyət və keyfiyyət göstəriciləri ilə zənginləşərək təkmiləşdirilməlidir.

## ƏDƏBİYYAT

1. *Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik 3 hissə.-B.: BDU, 2003.- 314s.*
2. *İsmayılov X.İ. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi.-B .: BDU, 2000.- 416s.*
3. *Qurbanov A.İ və b . Kitabxana- informasiya fəaliyyətinin marketinq və menecmenti.-B.: Mütərcim, 2012.- 207s.*
4. *Quliyev T. Ə. Menecmentin əsasları: Dərslik.- B. 2001.-520s .*
5. *Məmmədov M.Ə. Müasir kitabxanalarda menecmentin təşkili // Kitabxanaşünaslıq və informasiya: Elmi və praktiki jurnal. Bakı. 2014. N-1.s.27-31.*

## МЕТОДИЧЕСКОЕ ОБЕСПЕЧЕНИЕ ПРИМЕНЕНИЕ МЕНЕДЖМЕНТА В БИБЛИОТЕКАХ

**МАМЕДОВ М. А**

***RЕЗЮМЕ***

*В научной статье изяснен панятие менеджмента и применения ряда новых методов работ связанных с етой концепцией в библиотеках. А также была дана подробная информация о возникновении новой концепции менедж-мента по управлению библиотечного дела.*

***Ключевые слова*****:** *управление, управляемость, менеджер, менеджмент, библиотека, методическое обеспечение, методист*

## METHODICAI PROVISION OF MANAGEMENT APPLICATION IN LIBRARIES

**MAMMADOV M. A.**

***SUMMARY***

*The nev concert of management of libraru work is explained and shown in the scientific article as a result of theapplication of a number of management methods in libraries it alsu lightened comprehensive information about libraru management in research*

***Keywords*****:** *management, manager, libraru management, methodical pravision, methodologist*

# INNOVATIVE TECHNOLOGIES IN DIGITAL LIBRARIES

**N.A.HASANOVA**
***BSU, Phd., Associate Professor***

**S.M.NOVRUZOVA**
***BSU, 4th year student***

*The article explores the use of innovative technologies in the activities of digital libraries. Cloud computing is very helpful digital libraries in automating and managing their services. The features of Big Data technologies are investigated. Emerging of Web base technologies for library and information services has been considered.*

***Keywords**: Cloud computing, digital libraries, Big Data, web, networks.*

Application of new Information Communication Technology (ICT) created new opportunities for the creation of new technologies. With the application of these new technologies in the libraries the working of libraries has totally been changed. Now today libraries are providing the unrestricted access to information in many ways and from many resources. Emerging technologies has affected libraries in many ways. Some of them are as follows:

• Housekeeping Operations – after the application of ICT operations in the library has changed. Now many new library software available in the market which can be easily download and can be used in the libraries. This software can also be used for the automatization of libraries. After the automatization process ordering books, dissemination information become very easy;

• Web Based Services – digital libraries have also started to use web-based service to provide more comfortable and easy services to library users. This service includes web access of e-material such as e-books, e-journals etc. in order to access to this information users need to have an id and password, both of this provided by the library. Web 2.0 has made revolutionary changes in the field of library. By using Web 2.0 users can read and even write ant information on the web. These services have affected the working of librarians because now librarians should have enough information about these technologies or otherwise, they can't provide good services to the library users;

• Intelligent Return and Sorter System – in traditional libraries functions such as check in/check out of items and shelving of items is done manually. This is very time-consuming task and also misplacement of books is quite common. With the automation, all these problems have been avoided. Now there is an Intelligent Return and Sorter System which is used in libraries for automating their processes. With this new system users can quickly return

their issued items with "real-time check-in". These systems are designed for libraries with small space. Intelligent Return and Sorter System help in reducing the time, and also increase staff productivity;

• Web OPAC – Online Public Access Catalog (OPAC) has also changed the working of libraries in many ways. Now with the Web OPAC users can check the availability of the item in the library without living their place. Web OPAC is a catalogue of library material which tells us that items we want are available or not;

• Networking of Libraries – ICT has made possible of networking of libraries within country or throughout world. Networking has increased available library services for the users. Networking allows users to use materials of other libraries with whom the present library is connected. There are many other benefits of networking, such as Library Consortia, in which libraries can make collective purchasing;

• Library Security Systems – as the library's collection is growing there is need to enhance security system. They are facing large number of security drawbacks which includes theft and mutilations of library materials. Most of the libraries around the world are facing the problems regarding security but due to technological advances there is a greatest shift from paper material to electronic databases. Current library management systems use barcode technology and security strips. Using barcodes, a library management system can keep records of lending, borrowing and shelving status of items such as books, audio or video tapes, CDs, DVDs, and etc. Security strips on library materials tag their movements. All these lead to irreparable loss to a library and its valuable inventory stock. This is where RFID technology can come to the aid of library managers and users;

• RFID (Radio Frequency Identification) – is the latest wire-less technology to be used in library theft detection systems. It is another form of automated identification system. Earlier EM (Electro-Mechanical) and RF (Radio Frequency) systems move beyond security. They provide tracking systems that combine security with more efficient tracking of materials throughout the library. Besides security they provide easier and faster charge and discharge, inventorying, and materials handling. Recent interest is in making RFID technology more ubiquitous in the global value chain. RFID has automatically check-out, anti-theft and inventory control system. It contains two parts one is integrated circuit for storing and processing information. Another is antenna for receiving and transmitting the signals. RFID tags are placed on the library items when these items come under the range of antenna without requiring a line of sight, it transfer the information to the computer system, if it is not issued then a siren is burst out. This technology is same as bar-coding system but it is very much refined and improved then bar-coding system.

Cloud computing is a new phenomenon in the history of services which are offered over the internet. It has completely changed the way of use of the power of computers irrespective of any geographic location. In cloud computing so many computers are connected with a server. The applications are installed in a remote server and all the computers connected to that server location can use all these applications. It is also helpful in libraries to maintain the record data, private and delicate data. Cloud computing helps libraries by showing their presence on the web. Libraries are adopting this technology for electronic journal access, hosting digital libraries, tracking of statistical data and also integrating library hosting too. In cloud computing shared resources, software, and information are provided to remote clients over a network. Cloud computing is a service, where in Cloud resources are dynamically allocated to multiple users as per demand. The word "cloud" was used for the Internet, like telephony schematics a cloud-like shape was used to denote a network which was later used to show the Internet in network diagrams [3].

There are some essentials characteristics of cloud computing:

• On-demand competences – an organization will secure cloud-hosting services through a cloud host provider which could be user's usual software vendor. Organizations have access to user services and users have the power to modification cloud services through an online control panel or directly with the provider;

• Broad network access – cloud capabilities can be accessed through standard devices such as mobile phones, laptops and PDAs. These devices can be used from any location. This flexibility is vital for business as employees can keep an eye on their projects, contracts and customers 24x7 even when they are on the move or in the office;

• Resource pooling – helps a user to use the resources from anywhere at any time. Multiple users can use this facility at a time. This system is most helpful in multilevel national companies, where work is divided in broad categories. And so many departments are involved to do work. Resource pooling leads to economy in carrying out work.

Cloud computing is very helpful libraries in automating and managing their services. With the help of this technology, library staff will be free from managing the servers. This technology can be of immense importance in helping libraries to undertake modern ICT activities. Libraries in the west countries have already been using the cloud computing technology for their resources. Slowly the awareness about this technology is spreading in other parts of the world and with the use of ICT and internet; library professionals are sharing their library resources with others on the platform [5]. In the modern world, a large amount of information needs to be processed to make a viable conclusion in a library. This information, referred as Big data, is

collected from various sources like social, geospatial, internet, etc. and can even be directly provided by human. Access to Big Data allows business respond to the environment and it is becoming a key to creating competitive advantages in a complex and rapidly changing markets. Big data is a broad term used to describe a massive volume of both structured and unstructured data that is so large it is difficult to process using traditional database and software techniques. They are extremely large data sets that may be analyzed computationally to reveal patterns, trends, and associations, especially relating to human behavior and interactions. Big Data is not just about the size of data but also includes data variety and data velocity. Together, these attributes form the three V's of Big Data:

1. The first V, volume – the size of data sets is huge in big data compared to the regular data. The size depends on the specific discipline, but big data is loosely defined as data that cannot be stored or analyzed by conventional hardware and software. The size of the data determines the value and potential of the data under consideration and whether it can actually be considered big data or not;

2. The second V, velocity – it covers the speed in which data is created. Velocity relates to the speed at which the data is generated and processed to meet the demands and the challenges that lie in the path of growth and development. It can be understood by imagining the striking speed in which messages, posts, tweets are created to social networking sites;

3. The third V, variety – it makes bug data sets more challenging to organize and analyze. This helps people who are associated with and analyze the data to effectively use the data to their advantage and thus uphold its importance. Big data sets can contain unstructured data such as email messages, photographs [2]. The management and analyzing of big data set initially was limited to the domain of big business, central governments and scientific and cultural communities engaged in higher education and research due to the huge hardware and software cots involved in analyzing the big data. Due course of time, the ability to analyze big data in real time has changed. Early users of big data were born-digital firms that relied on analyzing large data sets to manage their success like Facebook, LinkedIn, Google, and Twitter.

The developments and challenges of 21st century has already influenced the librarians to embrace ICT applications in daily library workings in order to provide effective and efficient services to the library users. With the onset of big data, it has now become important for the librarians to know how big datasets can be made more useful, visible and accessible by creating taxonomies, designing metadata schemes, and systematizing retrieval methods. Big data is creating a widespread presence in the world of information and is likely to impact on all kinds of libraries. Librarians need to

Abbas Səhhətin məktəbyaşlı uşaqlar və gənclər üçün yazdığı əsərlərdə ictimai məzmun daha qüvvətlidir. Vətən məhəbbəti, maarifə, elmə çağırış bu əsərlərin əsas məzmununu təşkil edir. Şair hər nədən yazır yazsın, qarşısına nə kimi tərbiyəvi bir məqsəd qoyur-qoysun, onu vətən məhəbbəti ilə, elm və maariflə əlaqələndirirdi. Dostluqda sədaqətli və fədakar olan Abbas Səhhət müasiri, böyük şair M.Ə.Sabirlə möhkəm dost və silahdaş olmuşdur. M.Ə.Sabir "Ölürsəm qəm etmərəm. Çünki bilirəm siz mənim asarımı təb etdirərsiniz" sözləri ilə öz əsərlərinin gələcək taleyini A.Səhhətə tapşırmışdı. Sabirin sağlığında nail olmadığı arzusunu Səhhət böyük çətinliklərdən, bir neçə dəfə Bakıya gəlib getdikdən sonra müəllim Mahmud bəy Mahmudbəyovunköməkliyi ilə yerinə yetirə bilir. Sabirin əsərləri "Hophopnamə" adı ilə 1912-ci ildə nəşr olunur.

M.Ə.Sabirin dostu Abbas Səhhətə olan inamı, hörməti, eyni zamanda özünün mənəvi zənginliyinin təcəssümü olan fikirlərinin şahidi oluruq. Salman Mümtazın Sabirlə söhbətinin bir yerində belə sual-cavab vardır:

"Sual- Abbas Səhhətin neçə yaşı vardır? Siz böyüksünüz, yoxsa o?

Cavab- Başda o böyükdür, yaşda mən.

Sual - Səhhət dərin savadlımıdır?

Cavab – Mən onun şagirdiyən, o mənə ustaddır" ibrətamiz cavabını verir.

Abbas Səhhət "Şərqi-rus", "Həyat", "İrşad", "Füyuzat", "Dəbistan" "Rəhbər", "Zənbur" və digər mətbuat orqanlarında publisistik yazılarını, şeirlərini çap etdirmişdir. Heç təsadüfi deyildir ki, Abbas Səhhətin ilk əsərləri olan "Neft fondu" (1912), "Sınıq saz" (1912), "Cəhalət səmərəsi yaxud bir yetimin xoşbəxtliyi" (1914) Orucov qardaşlarının elektrik mətbəəsində nəşr edilmişdir. Abbas Səhhətin zəngin yaradıcılığında uşaq şeirləri, uşaqlara həsr edilmiş əsərlər üstünlük təşkil edirdi. Vətənə məhəbbət, maarifə, elmə çağırış, təbiət gözəlliklərinin tərənnümü bu əsərlərin əsas məzmununu təşkil edir. Abbas Səhhət yaradıcılığının ideya-istiqamətindən bəhs edərkən mütəxəssislər onu "istismarçı siniflərə qarşı fəhlə və kəndliləri müdafiə edən" bir şair kimi dəyərləndirirdilər.

Abbas Səhhətin ədəbi yaradıcılığının mühüm bir sahəsini uşaqlar üçün yazdığı əsərlər təşkil edir. On beş ilə qədər müəllimlik etmiş Səhhət yalnız məktəbdə deyil, ədəbi yaradıcılığında da bir müəllim olmuşdur. Onun uşaq və gənclər üçün yazdığı bir çox lirik şeirləri, səhnə əsərləri və təmsilləri təlim-tərbiyə işinə kömək etmişdir. Bu əsərlərin müəllifi Azərbaycan uşaq ədəbiyyatı tarixinə parlaq səhifə yazmış Sabir və Mirzə Cəlil, Abdulla Şaiq və Süleyman Sani kimi qələm yoldaşları ilə birlikdə bu ədəbiyyatın çoxəsrlik inkişafında yeni, yüksək pilləyə qaldırmışdır. Abbas Səhhət kiçik həcmli uşaq şeirləri ilə yanaşı, "Yolda səyahət" (1913), "Əli və Aişə" (1914) kimi iri həcmli romanla-

rın da müəllifidir.

Biblioqrafik göstəricinin I hissəsinin "Əsərləri" başlığının maraqlı yarım bölmələrindən biri "Abbas Səhhətin sözlərinə yazılmış musiqi əsərləri" adlanır. Bu başlıq altında ədibin 1949-cu ildən 2010-cu ilə qədər sözlərinə musiqi bəstələnmiş 18 əsərinin biblioqrafik təsviri verilmişdir.

Yazıçının yaradıcılığı çoxşaxəli və rəngarəng olmuşdur. Onun tərcüməçilik fəaliyyəti yaradıcılığında mühüm istiqamət təşkil edir. Belə ki, ədibin iki hissədən ibarət "Məğrub günəşləri" 1912-ci ildə ərəb əlifbası ilə Orucov qardaşlarının elektrik mətbəəsində, İ.Krılovun "Cırcırama və qarışqa" əsəri isə 1960-cı ildə Uşaqgəncnəşrdə kitab şəklində nəşr edilmişdir. Bundan başqa müxtəlif rus yazıçı və şairlərdən etdiyi tərcümələri ayrı-ayrı dövrü mətbuat səhifələrində çap edilmişdir. Abbas Səhhətin dövrü mətbuatda, məcmuələrdə və kitablarda 1906-cı ildən 2006-cı ilə qədər 160 adda tərcümə əsərinin biblioqrafik təsviri verilmişdir.

Biblioqrafik göstəricinin "Haqqında" olan hissəsini nəzərdən keçirərkən məlum olur ki, Abbas Səhhət yaradıcılığının tədqiqatçısı olan ədəbiyyatşünas alim Kamal Talıbzadə tərəfindən 1948-ci ildən 1991-ci ilə kimi yazıçının həyat və fəaliyyətinə həsr edilmiş monoqrafiya və kitab halında çıxmış 5 nəşr edilmiş əsərin biblioqrafik təsviri verilmişdir.

Abbas Səhhətin həyat və yaradıcılığı ədəbi ictimaiyyətin diqqətini cəlb etmiş və 1946-cı ildən müxtəlif mövzularda elmlər doktoru və namizədlik alimlik dərəcəsi almaq üçün 2010-cu ilə kimi 23 adda dissertasiya işi müdafiə olunmuşdur.

Biblioqrafik göstəricinin III hissəsi olan "Abbas Səhhət əsərləri xarici dildə" adlanan bölmədən məlum olur ki, ədəbin əsərlərinin rus dilinə tərcüməsinə 1956-cı ildən başlanılmışdır. 1988-ci ilə kimi şairin 13 adda uşaq və kiçik yaşlı məktəblilərə həsr edilmiş şeiri rus dilinə tərcümə edilmişdir.

Biblioqrafiyalaşdırma metodikasında biblioqrafik vəsaitin mükəmməlliyini şərtləndirən əsas amillərdən biri də köməkçi göstəricilərin tərtibidir. Çox ciddi araşdırmaların nəticəsi olaraq göstəriciyə Azərbaycan və rus dillərində zəngin (11adda) köməkçi aparat tərtib edilmişdir ki, bunlardan 7-si Azərbaycan, 4-ü rus dilində olmuşdur.

Biblioqrafik göstəricidə "Əlavələr" bölməsinin verilməsi ilə Ədəbiyyatşünaslıq biblioqrafiyası mətn biblioqrafiyasına uyğun olaraq sistemləşdirilmişdir. Abbas Səhhətin mətbuatda istifadə etdiyi imzalar və təxəllüslər, Abbas Səhhətin əldə olmayan əsərləri, Əsas arxiv materialları və əlyazmaları, Filmoqrafiya, İnternet resursları kimi əlavələrin verilməsi biblioqrafik göstəricinin informasiya potensialını artıran cəhətlərdir. Ciddi biblioqrafik axtarışların nəticəsi olaraq Abbas Səhhətin imza və təxəllüsü qarşısında dövrü mətbuatın adı göstərilməklə illər göstərilmişdir. Abbas Səhhət "Sarsaq" təxəllüsü ilə 1910-cu ildə Şərqi rus və Zənbur mətbu orqanlarda çıxış etmişdir. Bütün bu mənbələrin

araşdırılması biblioqrafik vəsaitin tərtibçilərinin ciddi axtarışlarının və peşəkarlığının nəticəsi olaraq ərsəyə gəlmişdir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının uğurlu biblioqrafik fəaliyyətinin nəticəsi olaraq tərtib olunmuş bu biblioqrafik vəsait tələbatçıların informasiya tələbatının ödənilməsində və müasir uşaq ədəbiyyatı biblioqrafiyasını zənginləşdirən mühüm bir mənbədir.

## ƏDƏBİYYAT

1. Abbas Səhhət: biblioqrafiya/tərt.ed.:N.Tahirova,L.Qafarova, T.Əzizova.-B.,2017.-224s.

## АББАС САХХАТ: БИБЛИОГРАФИЧЕСКИЙ УКАЗАТЕЛЬ

**ИСМАИЛОВА С.П.**

***РЕЗЮМЕ***

*В статье анализирован персональный библиографический указатель посвященный известному поэт, литературоведу Аббас Саххату. Значение этого указателя, его структура, также методика составления были изучены на уровни современного библиографоведения.*

***Ключевые слова**: Азербайджан, Аббас Саххат, библиографические указатель*

## ABBAS SAHHAT: BIBLIOGRAPHIC SOURCES

**ISMAILOVA S.P.**

***SUMMARY***

*In the paper there is given analysis of a private bibliographic reference dedicated to the cutstamding scientst literaecritic Abbas Sahhat. It iz importance, structure and methods of its marking are studied on the level of modern bibliography science.*

***Key words:** Azerbaijan, Abbas Sahhat, biblioqraphic sources*

# ОПТИМИЗАЦИЯ СРЕДНЕГО КАЧЕСТВА ПРОДУКЦИИ В ЗАДАННЫЙ ПЕРИОД ПРОИЗВОДСТВА С УЧЕТОМ ФУНКЦИИ РАСПРЕДЕЛЕНИЯ ФАКТОРА ВОЗМУЩЕНИЯ

**НАГИЕВ Г.А.**
***Институт систем управления АН,***
***д-р филос. по техн. наукам***
hasan.nagiev@gmail.com

**АЛИЕВА Ф.А.**
**Бакинский Государственный Университет**
f.aliyevainf@mail.ru

*Рассматривается задача максимизации среднего качества продукции в непрерывном производстве с учетом изменений качества сырья. Отличительным является то, что функцию управления текущей производительностью приходится связывать с параметрами качества сырья при жестко фиксированном объеме продукции в заданный плановый период. Предлагается имитационный алгоритм расчета функции обратной связи, вводимой для обеспечения планового задания используя статистику в виде функции распределения фактора возмущения. Решение компромисса между критериями качества выпускающейся продукции и достижимостью планового задания обеспечивается благодаря предлагающейся конструкции, которая включает весовые коэффициенты максимизации качества и достижимости планового задания.*

***Ключевые слова:*** *Стохастическая задача управления качеством, задача с обратной связью, имитационное моделирование*

## Введение

Целый ряд задач из практики управления непрерывными производственными процессами со статической моделью качества, включающей фактор возмущения, отличается наличием планового задания на объем выпускающейся продукции к концу периода планирования. Не редки случаи, когда управлением оказывается текущая производительность, связываемая с возмущением (например, с качеством сырья, вводимого в производство) с точки зрения оптимальности качества продукции. Необходимость в достижении планового задания на выпуск продукции и существенность внешнего возмущающего фактора, превращают простейшую задачу позиционного управления качеством по статической модели в задачу стохастического управления [1-3].

Подобного рода задач можно встречать в сфере управления запасами, в сфере задач массового обслуживания при заданных объемах ресурсов и в ряде других задач непрерывного производства.

**1. Постановка задачи**

Пусть имеем некоторую функцию качества производимой продукции:

$$F = F(x,u)\,, (1)$$

где $x$ - возмущающий фактор с известной функцией распределения $y=\varphi(x)$ ; $u$ −управление, $u \in U$ ; $U=\{u : u_1 \le u \le u_2; u_1 > 0\}$. Управлением является величина интенсивности производства, например, часовая производительность, на которую ставится интегральное ограничение по планируемому объему выпуска продукции $G$ за период планирования $t \in (0,T]$:

$$\int_0^T u(t)dt = G\,. (2)$$

Задано также следующее правило управления качеством (1), которого предусматривается применить в текущие моменты времени $t \in (0,T]$:

$$u[x(t),L(t)] \equiv \arg\max_{\tilde{u}\in U}\left\{F(x(t),\tilde{u}) - L(t)\left(\tilde{u} - \frac{G - \int_0^t u(\tau)d\tau}{T-t}\right)^2\right\}, (3)$$

где $u[x(t),L(t)]$ − функция управления в соответствии с заданной реализацией возмущения и некоторой функцией $L(t)$; $\tilde{u}$ − варьируемая внутренняя переменная.

Заданное правило (3) – суть выражение метода штрафов [1,2], примененного для совмещения критерий оптимальности качества и достижимости заданного значения интеграла (2) при соответствующих весовых коэффициентах $\alpha_0^*, a_1^*$, которые также являются заданными и должны быть выдержаны в левом конце интервала $t \in (0,T]$:

$$L(0) = L^* = \frac{\alpha_1^*}{\alpha_0^*} \; (4)$$

Функция штрафа $L(t) \ge 0$ призвана осуществить управление коэффициентом обратной связи [3,5]. Выбор оптимального варианта этой функции должен обеспечить стабилизацию соотношений двух критериев, связанных: с функцией оптимальности качества (1) и интегралом достижимости объема производства (2) в течение времени $t \in (0,T]$.

**2. Принцип оптимальности в выборе функции обратной связи $L(t)$.**

Проанализируем происхождение ошибки, вносимой вследствие применяемой обратной связи, в связи с дрейфом математического ожидания максимизирующих (3) управлений $u^{\max}(x,t)$, которого обозначим в виде:

$$E\left[u^{\max}(x,t),(t)\right] \equiv m_u(L,t). \quad (5)$$

Рассмотрим случай с неуправляемой обратной связью, когда $L(t) \equiv const = L$.

Пусть существует и однозначна обратная функция

$$x = \varphi^{-1}(y);\, y \in (0, y_{\max}), \quad (6)$$

где $y_{\max}$ – максимум функции $y = \varphi(x);\, x \in (0, \infty)$.

Обратим внимание на то, что в ходе процесса оптимизации в текущие моменты $t$ из-за произвольности $L$, возникнет несовпадение математических ожиданий $m_{\hat{u}}(L,t)$ со средней интенсивностью производства $G/T$ в течение времени $t \to T$ и создастся накопление отклонений $\Delta(t) = \int_0^t \left( m_{\hat{u}}(L,\xi) - \frac{G}{T} \right) d\xi$ . Следовательно, математическое ожидание окажется функцией времени. Тем самым нарушится условие неизменности стратегии управления при стационарном, возмущении $x(t)$, т.е. при возмущении с неизменными во времени вероятностными параметрами. Для предотвращения этой тенденции, очевидно, следует решать обратную задачу, т.е. стабилизировать $m_{\hat{u}}(L,t)$ во времени, регулируя коэффициентом обратной связи $L(t)$. В связи с этим синтез функции настройки $L(t)$, обеспечивающей стабилизацию математического ожидания в окрестности $G/T$, составляет принципиальную основу решения проблемы по формуле обратной связи (3). Таким образом, принцип оптимальности в настройке функции обратной связи можно выразить в виде:

$$\frac{d}{dt} m_{\hat{u}}(L^{opt}(t),t) \equiv 0; \quad (7)$$

$$m_{\hat{u}}(L^{opt}(t),T) = \frac{G}{T}. \quad (8)$$

**3. Алгоритм решения задачи**

Зафиксируем математические ожидания, вычисляемые по функции (3) при двух крайних случаях, а именно: $\ell(t) \equiv 0;$ и $\ell(t) \equiv \infty$ . При $\ell(t) \equiv 0$ имеем задачу без ограничений на ресурсы управления. При

$\ell(t)\equiv\infty$ имеем формулу максимизации без учета оптимальности качества. В связи с этим введем следующие обозначения:

$$u_{\ell=0}^{\max} = \int_0^{y_{\max}} y\cdot\left\{\arg\max_{u\in U} F(\varphi^{-1}(y),u)\right\}dy;$$

$$u_{\ell=\infty}^{\max} = \arg\min_{u\in U}\left(u-\frac{G-\int_0^t u(\tau)d\tau}{T-t}\right)^2 = G/T. \qquad (9)$$

Введем разность

$\delta = u_{\lambda=0}^{\max} - u_{\lambda=\infty}^{\max}$, (10)

которую назовем параметром несогласованности по средней интенсивности производства.

Осциллограммы функций динамики переходных состояний некоторой системы при неуправляемой обратной связи, т.е. при $L(t)\equiv 1$, показаны на рис.1.

Имитация внешнего воздействия $x(t)$ в демонстрационной задаче проводилась сигналом с выхода генератора псевдослучайных чисел, реализующего функцию распределения $\varphi(x)=\frac{1}{b}e^{-\frac{x}{b}}$. Функцией качества послужила $F=\frac{1}{1+ax^u}$; $0.5<u<2$; $0<x<\infty$, при $a=1$; $G=3; T=1$; $\alpha_0=\alpha_1=0.5$.




Рис. 1. Процесс с неизменной $L(t)\equiv 1$ : а) при $\delta<0$, б) при $\delta>0$.

В работе получено, что независимо от знака $\delta$ необходимым условием достижения равенства (?) является монотонное убывание функции , т.е. условие:

$$\frac{d}{dt}\lambda^{opt}(t) < 0, \forall t \in (0,T]. \quad (11)$$

Основываясь на (11) осуществлен синтез приближения $\lambda^{opt}(t)$. В качестве одного из вариантов $\lambda^{opt}(t)$ выбрана монотонно убывающая функция из класса экспоненциальных приближений:

$$\lambda^{opt}(t) = le^{-\beta t}, \quad (12)$$

где $l > 0, \beta > 0$ – параметры, подлежащие аппроксимированию. Их связь со значениями $\lambda^{opt}(t)$ на краях интервала выразится в виде

$$l = \lambda^{opt}(0); \;\; \beta = \frac{1}{T}\ln\frac{\lambda^{opt}(0)}{\lambda^{opt}(T)} \quad (13)$$

где на основании (4) значение $\lambda^{opt}(0) = L_0 L^*$ представляет заданную величину, а $\lambda^{opt}(T)$ необходимо оценить поиском наилучшего приближения.

**ЛИТЕРАТУРА**

1. Острем К.Ю. Введение в стохастическую теорию управления. М.: Мир, 1973.
2. Юдин Д.Б. Задачи и методы стохастического программирования. М.: Советское радио, 1979.
3. Гилл Ф., Мюррей. У. Численные методы условной оптимизации. М.: Мир, 1977.
4. Ротач В. Я. Расчет динамики промышленных автоматических систем регулирования. М.: Энергия. 1973. - 440с.
5. Shen Zeng, Frank Allgöwer. Structured optimal feedback in multi-agent systems: A static output feedback perspective//Automatica, 2017. V. 76. No.1. P. 214-221.

## OPTIMIZATION OF AVERAGE PRODUCT QUALITY DURING THE PERIOD OF PRODUCTION TAKING INTO ACCOUNT THE PERTURBATION FACTOR DISTRIBUTION FUNCTION

**NAGIYEV G.A., ALIEVA F., A.**

***SUMMARY***

*The problem of maximizing the average quality of products in continuous production is considered taking into account changes in the quality of raw materials. Distinctive is that the function of managing current productivity has to be associated*

*with the quality parameters of raw materials with a rigidly fixed volume of production in a given planning period. A simulation algorithm is proposed for calculating the feedback function introduced to ensure the planned task using statistics in the form of a distribution function of the perturbation factor. A compromise between the quality criteria of manufactured products and the achievability of the plan is ensured by the proposed design, which includes weighting factors to maximize the quality and reach of the plan.*

***Keywords:*** *Stochastic quality management problem, feedback problem, simulation*

## HƏYƏCANLANDİRİCİ TƏSİR FAKTORUNUN PAYLANMA FUNKSİYASİNİN NƏZƏRƏ ALİNMASİ İLƏ MƏHSULUN ORTA KEYFİYYƏTİNİN VERİLMİŞ PLANLAŞDİRMA PERİODU ÜZRƏ OPTİMALLAŞDİRİLMASİ

**NAĞIYEV H.Ə., .ƏLİYEVA F.A**

***XÜLASƏ***

*Məqalədə fasiləsiz istehsalda xammalın keyfiyyətinin dəyişdiyi şəraitdə məhsulun ortalaşdırılmış keyfiyyət göstəricisinin maksimalaşdırıma məsələsinə baxılır. Məsələnin xüsusiyyəti kimi diqqət ona yönəldilir ki, idarəetmə funksiyası olaraq istifadə olunan cari emal sürəti xammalın keyfiyyət göstəricisi ilə əlaqələndirilmiş olduğu səbəbindən planlaşdırma periodu üzrə istehsal həcminin təmin olunması əlavə şərt kimi irəli sürmüş olur. Plan tapşırığının nəzərə alınmasına yönəldilən əks rabitə funksiyasının həyəcanlandırıcı təsir faktorunun statistikası əsasında təyin eilməsinə imkan verən imitasiya alqoritmi təklif olunur. Məhsulun keyfiyyəti ilə plan öhdəçiliyinin təmin olunma göstəricisi arasında kompromiss münasibətin tənzimlənməsi müvafiq çəki əmsalları vasitəsi ilə öz həllini tapır.*

***Açar sözlər.*** *Keyfiyyətin iarə olunması stoxastik məsələ, əks rabitəli idarəetmə məsələsi, imitasiya məsələsi.*

# ŞƏXSİ TƏHSİL FASİLƏSİZ TƏHSİLİN ƏSAS TƏRKİB HİSSƏSİ KİMİ

**ƏLİYEVA AYGÜN**

***BDU, Kitabxanaşünaslıq kafedrasının müəllimi***

*Məqalədə fasiləsiz təhsil prosesinin müasir qloballaşan cəmiyyətdə artmaqda olan əhəmiyyətindən və onun tərkibi kimi şəxsi təhsil prosesinin təşkilindən söhbət açılır. Eyni zamanda informal təhsil forması kimi şəxsi təhsil prosesində mütaliənin yeri və rolu qiymətləndirilir.*

***Açar sözlər:*** *fasiləsiz təhsil, şəxsi təhsil, təhsilin formaları, informal təhsil, mütaliə mədəniyyəti.*

Fasiləsiz təhsil konsepsiyasında formal və qeyri-formal təhsillə yanaşı informal (spontan) təhsilə xüsusi əhəmiyyət verilir. Klassik nöqteyi-nəzərdən informal təhsil innovativ forma hesab edilir. İnformal təhsil empirik və statistik analizə çətin təslim olur və bir qayda olaraq standart təhsil mühitindən kənarda baş verməsi ilə fərqlənir və gündəlik həyatda müşahidə edilir. Məhz informal təhsil gündəlik həyatda insanların davranış modellərini, fəaliyyətini daha effektiv dəyişdirir. Onun məqsədyönlü xarakter daşıması mütləq deyildir, onun reallaşması həm fərdi (məs.: şəxsi təhsil), həm də qrup şəklində (ev şəraitində, iş yerində və ya asudə vaxtlarda) həyata keçirilə bilər: ünsiyyət, qiraət, mədəniyyət müəssisələrinə gedişlər, səyahətlər, kütləvi informasiya vasitələri və s.

Qeyd etmək lazımdır ki, şəxsiyyətin məqsədyönlü inkişafı üçün lazımi biliklər sisteminə yiyələnməsi mühüm əhəmiyyət daşıyır. Bu məqsədlə ilkin ümumi biliklər əldə etmək üçün bütün inkişaf etmiş ölkələrdə olduğu kimi respublikamızda da ümumtəhsil məktəblərinin geniş şəbəkəsi fəaliyyət göstərir. Eyni zamanda respublikamızda vətəndaşların müəyyən ixtisas və peşələrə yiyələnməsi üçün ali və orta ixtisas məktəblərinin bütöv şəbəkəsi yaradılmışdır. İstər ümumtəhsil, istərsə də ali və orta ixtisas məktəblərinin tədris proqramlarında nəzərdə tutulan biliklər insanın həyata fəal müdaxiləsi üçün kifayət deyildir. Təcrübə göstərir ki, heç bir ali məktəb öz məzunu olan mütəxəssisə hər hansı bir ixtisas üzrə müasir həyatın tələbi həcmində məlumat və biliklər məcmuunu verə bilmir. Bu isə təbii haldır. Belə ki, ali və orta ixtisas məktəblərinin proqramları müəyyən vaxtla məhdudlaşdığından lazımi bilikləri tam şəkildə əhatə etmək imkanına malik deyildir. Məhz bu səbəbdən rəsmi təhsillə şəxsi təhsil mütaliəsi paralel getməlidir. Mövcud həyat hadisələrində şüurlu və fəal şəkildə iştirak etmək üçün əsas şərtlərdən biri və ən əsası şəxsi təhsildir.

Qeyd etmək lazımdır ki, “Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda da təhsil fəaliyyətinin yuxarıda qeyd olunan üç forması təsbit olunmuşdur :

- ümumi qəbul olunmuş diplomun və ya attestatın verilməsi ilə başa çatan formal təhsil;
- adətən sənədin verilməsi ilə müşayiət olunmayan, təhsil müəssisələrində və ya ictimai təşkilatlarda, klub və dərnəklərdə, eləcə də repetitor, yaxud məşqçilərin apardığı fərdi dərslər nəticəsində əldə olunan qeyri-formal təhsil;
- informal təhsil, gündəlik həyatımızı müşayiət edən və mütləq məqsədyönlü xarakter daşımayan bizim fərdi dərketmə fəaliyyətimiz.

Şəxsi təhsil informal təhsil olub, fasiləsiz təhsilin digər tərkib hissələri ilə müqayisədə heç də az əhəmiyyətə malik deyil. Danimarka, Almaniya, Avstriya, Fransa, İsveçrə kimi bir sıra inkişaf etmiş dövlətlərdə fasiləsiz təhsilin və onun tərkib hissəsi olan şəxsi təhsilin təşkilinin vacibliyini anlayaraq bu istiqamətdə yeni modellər işlənilib hazırlanmışdır. Fasiləsiz təhsil sisteminin ümumi qəbul edilmiş modelləri içərisində əsas etibarilə 4 tərkib hissəsi fərqləndirilir: ümumi təhsil, ilkin və orta peşə təhsili, ali təhsil, əlavə təhsil və yaşlıların təhsili. İnformal təhsil forması olduğu halda şəxsi təhsili fasiləsiz təhsilin digər formalarında bu və ya digər formada müşahidə etmək olar. Bu baxımdan, fikrimcə, respublikamızda fasiləsiz təhsil sisteminin modelinə beşinci komponent kimi şəxsi təhsilin də əlavə edilməsi zəruridir və məqsədəuyğun olar.

-Ümumi təhsil;
-Ali təhsil;
-İlkin və orta peşə təhsili;
-Əlavə təhsil və yaşlıların təhsili;
-Şəxsi təhsil (özünü təhsil).

Fasiləsiz təhsil prosesinin mövcud tərkib hissələrinin reallaşdırılması hər bir komponentə müvafiq olaraq həyata keçirilir. Belə ki, ümumi təhsil -məktəblərdə, ilkin və orta peşə təhsili - kollec, texnikumlarda, ali təhsil müəssisələrində – ali təhsil, əlavə təhsil və yaşlıların təhsili – ali məktəblərdə, ixtisasartırma kursları, yenidən hazırlama kursları, distant təhsil vasitəsilə, şəxsi təhsil isə – ailədə, kollektivdə, internet vasitəsilə, distant özünütəhsil və mütaliə prosesilə həyata keçirilir.

Şəxsi təhsilin təhsil müəssisələrindən kənarda, müstəqil iş prosesində əldə edilən ən çox yayılmış üsulu mütaliədir. Rəngarəng, hərtərəfli mütaliə isə vaxtaşırı deyil, müntəzəm, yəni fasiləsiz olmalıdır. Görkəmli kitabxanaşünas alim, professor A.A.Xələfov mütaliənin çoxcəhətli və fasiləsiz xarakterindən bəhs edərək yazırdı: “Yüksək inkişaf etmiş, yüksək mədəniyyətə, intellektual səviyyəyə, yüksək sənətə malik olan insan bütün ömrü boyu mütaliə edir. Belə insanların mütaliə dairəsi olduqca çoxcəhətli və əhatəli olur. Bu cür insanlara

xidmət kitabxanaların qarşısında mühüm spesifik vəzifələr qoyur və kitabxanaçılardan xüsusi peşəkarlıq tələb edir.

Kitabxanalarda bu qrupdan olan oxuculara xidmət etmək üçün yüksək professional səviyyəyə malik kitabxanaçılar ayırmaq, onları ixtisaslaşdırmaq zərurəti qarşıya çıxır. Şəxsi təhsil və fasiləsiz təhsillə məşğul olan oxucular üçün xüsusi informasiya xidmətinin yaradılması da meydana çıxır".

Professor A.A.Xələfov eyni zamanda mütaliənin sosial əhəmiyyətini yüksək qiymətləndirərək qeyd edirdi: "Müasir dövrdə kitabxanalarımızın qarşısında duran ən mühüm problem mütaliə problemidir. Mütaliə təkcə kitabxanaların yox, bütün cəmiyyətin problemidir. Mütaliə edən xalqın intellektual və şüur səviyyəsi daim yüksəlir. Hazırda kitabxanaların qarşısında əhalinin maarifləndirilməsinə, şüur və səviyyəsinin daha da yüksəldilməsinə yönəldilmiş çox mühüm vəzifələr: şəxsiyyətin tərbiyəsində iştirak etmək, oxucuya xidmət işini, əhalini kitabxana oxucuları sırasına cəlb etmək işini günün tələbləri səviyyəsinə yüksəltmək, mütaliə prosesini istiqamətləndirmək və idarə etmək vəzifələri qoyulmuşdur".

Bildiyimiz kimi mütaliə nəticəsində əldə edilmiş hər bir nailiyyət özünü real həyatda, təcrübədə büruzə verir və gələcək həyatda qazanılacaq istənilən uğur bu günün mütaliə səviyyəsi ilə xarakterizə olunur. Qeyd edək ki, oxucunun mütaliə səviyyəsi onun mütaliə mədəniyyəti səviyyəsindən birbaşa asılıdır. Ona görə də kitabxanalarda, xüsusilə kütləvi kitabxanalarda oxucuların mütaliə mədəniyyəti səviyyəsinin yüksəldilməsi kitabxanaçıların daim diqqət mərkəzində olmalıdır. Mütaliə mədəniyyəti dedikdə, mütaliənin həyati əhəmiyyətini dərk etməklə mütaliə marağına malik olmaq, bu marağa müvafiq sorğular müəyyənləşdirmək və bu sorğular üzrə ədəbiyyatı kitabxana şəraitində əldə edə bilmək, biblioqrafik vasitələrdən istifadə edə bilmək, əldə edilən ədəbiyyatı şüurlu və yaradıcı şəkildə mütaliə etmək bacarığı nəzərdə tutulur.

Bütün bunları nəzərə alaraq ölkədə şəxsi təhsil mütaliəsinin daha geniş kütləvi xarakter almasına nail olmaq vacibdir ki, bunun da əsas təşkilatçısı və təminatçısı kitabxanalardır. Kitabxanalar yalnız şəxsi təhsillə bilavasitə məşğul olan oxucuları deyil, bütün oxucuları şəxsi təhsilə cəlb etməlidirlər. Belə ki, kitabxana işinin düzgün və planlı təşkili olmadan şəxsi təhsil işi inkişaf edə bilməz. Şəxsi təhsil elmi nailiyyətlərin geniş xalq kütlələrinin sərvətinə çevrilməsinə kömək edir. Bu anlayışın özündə müntəzəmlik və ardıcıllıq əks olunmuşdur ki, məqsədi insanın əmək fəaliyyətindən asılı olaraq tələbatı olan biliklər ehtiyatını toplamaq və onu yeniləşdirmək, zənginləşdirməkdən ibarətdir. Mütaliənin fasiləsiz təhsilə kömək edən mürəkkəb forması olan şəxsi təhsilə əməli kömək göstərmək üçün bütün kitabxanaçılar hazır olmalıdırlar. Oxucuların şəxsi təhsilini təşkil edərkən, onların təhsil səviyyəsini və şəxsi təhsil mütaliəsinə hazırlıq dərəcəsini nəzərə alarkən kitabxanalar səmərəli mütaliə

sistemini, oxunmuş materialı dərk etmək qabiliyyətini inkişaf etdirir, məlumat daşıyıcısından öyrəndiklərini təcrübədə tətbiq etməyə köməklik göstərir.

Qeyd etmək lazımdır ki, oxucuların mütaliə tələbatının gündəlik ödənilməsi, onlara kitabxana xidmətinin elmi əsaslar üzərində qurulması istiqamətində respublika kütləvi kitabxanalarının geniş imkanları vardır. Bu kitabxanalar zəngin universal fonda, geniş şəbəkəyə malikdirlər. Professor A.Xələfov kütləvi kitabxanaların geniş şəbəkəyə malik olduğunu qeyd edərək bildirirdi ki: "Müasir dövrdə ölkəmizdə on mindən artıq kitabxana vardır ki, bunlardan dörd mindən artığı universal kütləvi kitabxanalardır. Bu kitabxanaların fondunda 50 milyona qədər kitab toplanmışdır və onlar 2 milyondan artıq oxucuya xidmət edirlər". Bu rəqəmlər respublikamızda kütləvi kitabxanaların nə qədər böyük rola malik olduğunu və minlərlə oxucuya xidmət etdiyini sübut edir. Müasir dövrdə kütləvi kitabxanalar informasiya, təhsil, tərbiyə, mədəniyyət müəssisələri kimi kompleks, informasiya-tərbiyə işi aparırlar.

Ümumtəhsil mütaliəsinin təşkilatçısı kimi kütləvi kitabxanalar fasiləsiz təhsil prosesinin təşkilində də əhəmiyyətli rola malikdirlər. Kütləvi kitabxanaların fəaliyyətinin bu mühüm sahəsi onların qarşısında aşağıdakı mühüm vəzifələri qoyur:

1. Azərbaycan Respublikasının suverenliyinin, dövlət müstəqilliyinin möhkəmləndirilməsinə xidmət etməyi ön plana çəkməli, milli ideologiyanın formalaşmasında və təbliğində fəal iştirak etməlidir;
2. Şəxiyyətin hərtərəfli inkişafına kömək etmək üçün iqtisadiyyata, mədəniyyətə, elmi-texniki tərəqqinin son nailiyyətlərinə dair ədəbiyyat təbliğini genişləndirməli, geniş kütləvi tədbirlər həyata keçirməlidir;
3. Şəxsi təhsilin və fasiləsiz təhsilin əsas bazası kimi bütün oxucu qruplarının və regionda yaşayan bütün vətəndaşların, sorğu və tələbatlarını nəzərə almalıdır;
4. Xalq kütlələrinin ümummədəni səviyyəsinin yüksəldilməsi üçün fasiləsiz təhsilə kömək göstərməli, şəxsi təhsilə rəhbərliyi həyata keçirməli, oxucuların boş vaxtlarının təşkilində iştirak etməlidir;
5. Elmi-texniki və qabaqcıl təcrübəni geniş təbliğ etmək yolu ilə isthesalatın inkişafına, təcrübi təsərrüfat fəaliyyətinin və dövlət idarəetmə sisteminin təkmilləşməsinə kömək göstərməlidir.

Bütün vəzifələr kompleks şəkildə, bir-biri ilə əlaqədar həyata keçirilməlidir ki, insanların hərtərəfli ahəngdar inkişafına kömək etsin. Kütləvi kitabxanalar şəxsiyyətin formalaşmasına, hərtərəfli inkişafına kömək etmək məqsədilə mənəvi tərbiyənin bütün sahələrinə dair ədəbiyyatın təbliğini ön plana çəkməli, yaşlı əhalinin intellektual səviyyəsinin yüksəldilməsinə, peşələrinin təkmilləşdirilməsinə cəmiyyətin inkişaf prosesi ilə əlaqədar insanların sosiallaşdırılmasına çalışmalıdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının “Kitabxana işi haqqında” Qanunu // Kitabxanaşünaslıq və biblioqrafiya” elmi-nəzəri və təcrübi jurnal, 1999, № 1, s. 3-16
2. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2010, s. 80
3. Əliyeva A.S. Fasiləsiz təhsil problemləri dünya təcrübəsində // Kitabxanaşünaslıq və informasiya: Elmi nəzəri və təcrübi jurnal, 2015, № 2, s. 118-125
4. Xələfov AA. Kitabxanaşünaslığa giriş: Dərslik (3 hissədə. Hissə 1: Kitabxanaşünaslığın nəzəri əsasları; Hissə 2: Kitabxana haqqında təlim). Bakı: BUN, 2001, 400 s.
5. Нгуен Т.Д. Создание системы непрерывного профессионального образования // Научные и технические библиотеки, 2007, № 10, с. 15-22
6. Савина А.К. Непрерывное образование за рубежом: От идеи к концепции // Отечественная и зарубежная педагогика, 2015, № 3 (240), с. 49-64

## САМООБРАЗОВАНИЕ - КАК СОСТАВНАЯ ЧАСТЬ НЕПРЕРЫВНОГО ОБРАЗОВАНИЯ

**АЛИЕВА А.С.**

***РЕЗЮМЕ***

*В статье раскрывается о возрастающем значении непрерывного образования в современном глобализированном обществе. В то же время оценивается роль и место информальной формы обучения в процессе самообразования.*

***Ключевые слова:*** *непрерывное образование, самообразование, формы обучение, информальное форма обучение, культура чтение и т.д.*

## SELF-EDUCATION AS AN INTEGRAL PART OF CONTINUING EDUCATION

**ALIYEVA A.S.**

***SUMMARY***

*The article reveals the growing importance of continuing education in a modern globalized society. At the same time, the role and place of the informal form of learning in the process of self-education is evaluated.*

***Key words:*** *continuing education, self-education, forms of learning, informal learning, culture reading.*

# İXTİSASLAŞDIRILMIŞ TİBB KİTABXANALARINDA TİBBİ STATİSTİKANIN ÖYRƏNİLMƏSİ MƏSƏLƏLƏRİ

**HİCRAN ZEYNALOVA**
***BDU, Kitabxanaşünaslıq kafedrasının müəllimi***
**hicran.zeynalova77@mail.ru**

*Tibb sahəsində informasiya xidmətinin təşkili zamanı tibbi statistikanın düzgün öyrənilməsi, toplanması və xidmətə verilməsi müasir dövrün mühüm tələblərindəndir. Məlumdur ki, statistika müstəqil ictimai elm sahəsidir. Onun Tibb sahəsini öyrənən istiqamətinə tibbi statistika deyilir və səhiyyə sahəsində öyrənilməsi və təhlili çox əhəmiyyətli məlumat kütləsini özündə əks etdirir. Tibbi statistika iki qrupa bölünür: 1) əhalinin saglamlıgı statistikası: 2) səhiyyənin statistikası:*

***Açar sözlər***: *tibbi statistika, statistik təhlil, tibb kitabxanaları*

Tibb sahəsində informasiya xidmətinin təşkili zamanı tibbi statistikanın düzgün öyrənilməsi, toplanması və xidmətə verilməsi müasir dövrün mühüm tələblərindəndir. Məlumdur ki, statistika müstəqil ictimai elm sahəsidir. Onun Tibb sahəsini öyrənən istiqamətinə tibbi statistika deyilir və səhiyyə sahəsində öyrənilməsi və təhlili çox əhəmiyyətli məlumat kütləsini özündə əks etdirir. Tibbi statistika iki qrupa bölünür:

1) əhalinin sağlamlığı statistikası :

2) səhiyyənin statistikası:

Tibb müəssisələrində məlumat və statistika fəaliyyətində vahid metodoloji yanaşmaların təmin edilməsi üçün aşağıdakı konsepsiyalar və uçot-statistika vahidləri yaradılmışdır. Bir çox normalar beynəlxalq sənədlərlə tənzimlənir və statistik məlumatların təhlilində ümumi qaydalar tətbiq olunur.

Sağlamlıq vəziyyəti - xüsusi nəzərə alınan əlamətlərin məcmusu ilə müəyyənləşir. (xəstəliklərin mövcudluğu və ya olmaması, tibbi müalicə, dispanser təqib ehtiyacı və s.) Əhalinin sağlamlığına tibbi qiymət verən son tibbi və statistik göstəricilərdir. Sağlamlıq vəziyyətini xarakterizə edən əlamətlər tibbi müayinələrin, tibbi müayinələrin nəticələrinə və tibbi yardım üçün müraciətlərə əsasən nəzərə alınır.

Profilaktik müayinələrə görə insan sağlamlıq vəziyyətindən asılı olaraq onlar üç qrupa bölünür.

I qrup - heç bir şikayət görməyən, xroniki xəstəliklər və ya fərdi orqan və sistemlərin disfunksiyası olmayan, müayinə zamanı normanın müəyyən olunmuş hədlərindən heç bir sapma aşkar edilməyən sağlam şəxslər;

II qrup - həyati orqanların funksiyalarına təsir etməyən və iş qabiliyyətinə təsir etməyən kəskin və xroniki bir xəstəlik tarixi olan praktik olaraq sağlam şəxslər;

III qrup - sistematik tibbi müşahidə tələb edən xroniki xəstəlikləri olan xəstələr:

1) xəstəliyin kompensasiya edilmiş bir gedişi, nadir və qısamüddətli əmək qabiliyyətini itirmək;

2) xəstəliyin kompensasiya olunmuş bir gedişi, tez-tez gərginləşmə və uzun müddət davam edən əmək qabiliyyətini itirmək;

3) dekompensasiya edilmiş bir kurs ilə, daimi əmək qabiliyyətini itirməyə səbəb olan davamlı patoloji dəyişikliklər.

Əhalinin fərqli ərazilərdə əldə edilən səhiyyə vəziyyətinin statistikasını öyrənərkən, materialın düzgün şifrələməsi çox vacibdir, çünki şifrələmə səhvləri xəstəlik və ölüm hallarının həqiqi mənzərəsini təhrif edə bilər. Bunun üçün müxtəlif ixtisas həkimlərinin təcrübəsində geniş istifadə olunan xəstəliklərin nomenklaturası və təsnifatı haqqında mükəmməl bilik tələb olunur.

Fiziki inkişaf əsas antropometrik məlumatların, fiziki xüsusiyyətlərin göstəricilərinə əsaslanaraq müəyyən bir komandanın və ya şəxsin sağlamlıq vəziyyətinə tibbi qiymət verən kompleks tibbi və statistik göstəricidir.

Əhalinin xəstəliyi - müəyyən bir müddət ərzində xəstəliklərin yayılmasını xarakterizə edir. Xəstəliyin qeydiyyatı və təhlilinin birləşdirilməsi xəstəliklərin, xəsarətlərin və ölüm səbəblərinin beynəlxalq təsnifatına (ICD) əsaslanan xəstəliklərin, xəsarətlərin və ölüm səbəblərinin təsnifatından istifadə etməklə əldə edilir.

Eyni şəxsin kəskin xəstəlik və ya yaralanma (zəhərlənmə) üçün ilk müalicəsinin bütün halları ilkin müalicədir. İlkin müraciətlərin qeydiyyatı eyni zamanda əhali arasında yeni, yeni diaqnoz qoyulmuş xəstəliklərin qeydə alınmasıdır və ilkin (ilk aşkarlanmış) halların hesablanması üçün əsasdır.

Təkrar bir müraciət, kəskin bir xəstəlik (müalicənin uzadılması zamanı) və ya profilaktik məqsədlər üçün də qeydiyyata alınmış eyni xroniki xəstəlik barədə bir həkimə baş çəkmək hesab olunur.

Xəstənin bir neçə xəstəliyi varsa, onlardan biri əsas (aparıcı) kimi qeyd olunur, qalanları bir-biri ilə əlaqəli və ya səbəb olan kimi nəzərə alınır.

Yoluxucu xəstəliklərin və xəsarətlərin əhalinin sağlamlığı üçün xüsusi əhəmiyyət kəsb etdiyinə görə kəskin yoluxucu xəstəliklərin (yoluxucu xəstəlik üçün epidemioloji müayinə kartı) və xəsarətlərin (zədələrin qeydiyyat kartı) qeydiyyatı üçün xüsusi sənədlər verilir.

Yoluxucu xəstəliklərin öyrənilməsi üçün hesab vahidi hər bir yoluxucu xəstəliyin hadisəsidir, yaralanmaların öyrənilməsi üçün isə əmək itkisi və ya xəstənin ölümü ilə nəticələnən zədə hadisəsidir. Bu xəstəlik qruplarını təhlil edərkən yoluxucu xəstəliklərin və xəsarətlərin meydana gəlməsinin səbəbləri və şərtləri müəyyən edilir; xəstələrin təcrid edilməsi və xəstəxanaya yerləşdirilməsi şərtləri; profilaktik və epidemiyaya qarşı tədbirlərin təşkili və aparılması.

Tibbi məlumatların hesabatında, xəstəliyin hər birinin günlərlə müddəti

və əsas xəstəliyin diaqnozu göstərilməklə, yalnız əmək qabiliyyətinin itkisi halları əks olunur.

Əlillik, xəstəliyin, zədənin və ya patoloji vəziyyətin səbəb olduğu bədənin funksiyalarının əhəmiyyətli dərəcədə pozulması səbəbindən uzanan və ya daimi ( mütəmadi), tam və ya qismən əlillikdir. "Əlillik" anlayışının tibbi, sosial və iqtisadi cəhətləri var. Əlilliyin qurulmasının nəticəsi işin qeyri-mümkünlüyü və ya iş şəraitində və xarakterində bir dəyişiklikdir. Bundan əlavə, əlilliyi olan insanlar Rusiya Federasiyasının qanunvericiliyi ilə nəzərdə tutulmuş dövlət sosial müdafiəsini alırlar (pensiya, peşə təhsili, məşğulluq, protez, spa müalicəsi və s.).

Ölüm halları - hesabat dövründə ölənlərin sayı ilə təyin olunan tibbi və statistik bir göstəricidir. Ölənlər haqqında məlumatlar hər bir ölümün ölüm səbəbi olan xəstəliyin əlaməti ilə qeyd etməklə nəzərə alınır.

Tibbi uçot vahidi bölmələrinə eləcədə aşağıdakılar daxildir: cərrahiyyə, əməliyyat sonrası ağırlaşma, diaqnostik (radioloji, endoskopik və s.) tədqiqat, tibbi prosedur (immobilizasiya, sarğı, fizioterapevtik prosedurlar və s.).

Cərrahi əməliyyatların qeydiyyatı ilə eyni vaxtda istifadə olunan anesteziya növü, əməliyyatın fəsadları və nəticəsi də nəzərə alınır.

Kliniki şöbələrin (otaqların) iş keyfiyyətini qiymətləndirmək üçün istifadə olunan statistik vahidlərə aşağıdakılar da daxildir: klinikanın diaqnozu ilə xəstəxananın son diaqnozu arasındakı uyğunsuzluq, habelə təbiəti və səbəbini göstərən tibbi yardım göstərilməsində hər hansı bir nöqsan.

## ƏDƏBİYYAT

1. *Xələfov A.A. Kitabxana və cəmiyyət. Dakı, Azərnəşr, 2013. 360 s.*
2. *Qurbanov A.İ. İnformatika. Bakı, 2018. 305 s.*
3. *https://kartaslov.ru/%D0%BA%D0%BD%D0%B8%D0%B3%D0%B8/%D0%96%D0%B8%D0%B4%D0%BA%D0%BE%D0%B2%BB%D0%B5%D0%BA%D1%86%D0%B8%D0%B9/1*
4. *https://www.twirpx.com/file/1115356/*
5. *https://medstatistic.ru/presents.html*
6. *Kazımi P.F. İnformasiya mühəndisliyi Bakı, Mütərcim, 2018, 260 s.*

## ВОПРОСЫ ИЗУЧЕНИЯ МЕДИЦИНСКОЙ СТАТИСТИКИ В СПЕЦИАЛИЗИРОВАННЫХ МЕДИЦИНСКИХ БИБЛИОТЕКАХ

**ЗЕЙНАЛОВА Х. О.**

***РЕЗЮМЕ***

*Надлежащее изучение, сбор и предоставление медицинской статистики при организации информационных услуг в области медицины является одним из*

*важных требований современности. Известно, что статистика является самостоятельной областью из социальных наук. Его область исследований в области медицины называется медицинской статистикой, а его исследования и анализ в области здравоохранения отражают очень важную информацию. Медицинская статистика делится на две группы: 1) статистика здоровья населения: 2) статистика здоровья:*

***Ключевые* слова:** *медицинская статистика, статистический анализ, специализированные медицинские библиотеки.*

## ISSUES OF STUDYING MEDICAL STATISTICS IN SPECIALIZED MEDICAL LIBRARIES

**ZEYNALOVA H.O.**

***SUMMARY***

*Proper study, collection and provision of medical statistics in the organization of information services in the field of medicine is one of the important requirements of modern times. It is known that statistics is an independent field of social science. His field of study in medicine is called medical statistics, and his study and analysis in the field of health reflects a very important body of information. Medical statistics are divided into two groups: 1) population health statistics 2) health statistics*

***Key words:*** *medical statistics, statistical analysis, specialized medical libraries**.***

# KİTAB RESENZİYASI KİTABIN TƏQDİMATI VASİTƏSİ KİMİ

**HƏSƏNOVA A.V.**

**ADMİU, Kulturologiya fakültəsinin müəllimi**
sahra.hsnv@mail.ru

*Məqalədə resenziya kitabın təqdimatı vasitəsi kimi öyrənilir. İlk öncə resenziya anlayışına aydınlıq gətirilir. Sonra bu yazı mətninin yaradılması tarixi araşdırılır. Məqalədə həmçinin resenziyanın kateqoriyaları, əlamətləri, funksiyaları, quruluşu, məzmunu müəyyənləşdirilir. Resenziyanın obyekti, predmeti, məqsədi meydana çıxarılır.*

***Açar sözlər:*** *Resenziya, kateqoriya, əlamət, tip, funksiya, komponent**,** modallıq, tonallıq, obyektivlik, subyektivlik, intertekstuallıq, dialogizm, publisistik janr, analitik janr, arqument, retro və arxeoresenziya, grand və mini resenziya, aspekt, sinopsis, annotasiya, hesabat, kitab*

Kitabın təqdimatı vasitəsi kimi qəbul edilən kitab resenziyası kitabın fiziki xüsusiyyəti, dil və üslubu, məzmunu, öz sahəsindəki yeri, əksikliklərinin aradan qaldırılması ilə fikirləri özündə ehtiva edən yazı növüdür. İngiliscədə “book review”, “book presentation”, “book criticism”, ərəbcədə “arzu‘‘l-kitab” kimi adlandırılan kitab resenziyaları avropada daha önəmli yer tutur. Kitab resenziyası haqqında ilk tədqiqat işi 1923-cü ildə Herbert Samuel Mallorinin müəllifi olduğu “Backgrounds Of Book Reviewing” əsəri hesab olunur (19, s.99).

Resenziya qiymətləndirmə funksiyasını yerinə yetirən, istənilən mətnin, hadisənin tənqidi təhlilini əks etdirən müasir elmi, publisistik və bədii kommunikasiyada populyar bir janrdır. Başqa sözlə desək, resenziya "***müəllifin oxucuya ilkin mətni bədii, elmi, publisistik təfsir yolu ilə təqdim etməsi nəticəsində ortaya çıxan ikinci mətndir"*** (2, s.107).

***"Resenziya"*** latın sözü olub "nə haqqındasa baxış, məlumat, qiymət, rəy" mənasında işlədilir (8, s.22). Bizim diqqətimizi daha çox resenziyanın elmi xarakteri çəkir. Çünki bu xüsusiyyət əsərin iki vacib tərəfini – ***qiymətləndirmə və tonallıq*** kateqoriyasını göstərməyə imkan verir. Xüsusi elmi ədəbiyyatda bu anlayışlar hər zaman qarışdırılır. ***E.A. Bajenova görə resenziyanın qiymətləndirmə kateqoriyası*** müəllifin əsərin məzmununa müsbət və ya mənfi münasibətini ifadə edən çox səviyyəli vahidlər toplusudur. Ümumi qiymətləndirmə əsərdəki müsbət və mənfi faktların bir növ tarazlığıdır (1, s.159). T.V.Matveyevə görə, ***tonallıq*** müəllifin konkret kommunikativ məqsədə çatması üçün əsərə emosional münasibətini və psixoloji mövqeyini ifadə edən mətndir (5, s.17). ***Tonallıq kateqoriyası özlüyündə isə üç tipə: major, minor və neytral tipə bölünür.*** İ.R. Qalperinə görə istər qiymətləndirmə olsun, istər tonallıq olsun hər iki halda ***modallıq*** özünü göstərir (3, s.65).

Modallıq isə resenzentin reallıqla əlaqəsini əks etdirir. V.V. Vinoqradova görə modallıq əsas dilin kateqoriyalarına aiddir (9, s.21). Qiymətləndirmə və tonallıq isə modallığın ayrı-ayrı aspektlərinə əsaslanır.

Bir çox alimlər modallığı ***obyektiv və subyektiv*** olmaqla iki qrupa ayırır. T.V.Matveyevə görə subyektiv modallıq özündə məntiqi və emosial qiymətləndirməni saxlayır (6, s.103). Buradan belə nəticə çıxarmaq olar ki, bütün hallarda qiymətləndirmə elmi resenziyanın əsasını təşkil edir. Belə ki, ciddi məntiqi qiymətləndirmə zamanı resenzent müəlliflə polemikaya girmir, həmçinin müəlliflə barışmaz mövqe nümayiş etdirərək apponent rolunu oynayır. Elmi resenziyada müəllif müsbət fikirlərlə yanaşı, mənfi rəyləri qeyd etsə də, həmişə tarazlığı qorumaqla tonallığı saxlayır.

Elmi resenziyada ***bir qrup açar sözlərdən*** istifadə edilir Bu açar sözlərdən istifadə etməkdə resenzentin məqsədi əsər müəllifi tərəfindən hiddətlə qarşılanmamaq və cəmiyyət tərəfindən qəbul edilməkdir.

Birinci qrupa mühakimələr daxildir. Bu sözlərdən resenzent öz mövqeyini ifadə etmək üçün istifadə edir. İkinci qrupa iddialar daxildir. Burada müəllif öz mövqeyini sübutlarla ifadə edir. Üçüncü dəqiqləşdirici ifadələr daxildir. Dördüncü qrupa emotivlər daxildir. Növbəti qrupa məntiqi operatorlar daxildir (11, s.83). Bütün bu açar söz qrupları resenzentin əsərə müxtəlif aspektlərdən müasibətini bildirir. Resenzent elmi resenziyanın tələblərinə uyğun olaraq parlaq ifadələrdən istifadə etmir. Müəllifin obyektiv qiymətləndirmə istəyi neytral tonallığın yaranmasına səbəb olur.

Elmi resenziya qiymətləndirici və kritik mətn tipi kimi xarakterizə edilir. Bu yanaşma resenziyaya dörd aspektdən yanaşmağa imkan verir: ***koqnitiv, dil, mədəni və sosial*** (11, s.84).

Elmi resenziya ikinci növ informasiya kimi xarakterizə edilir. ***Elmi resenziyanın obyektini*** ilkin informasiya resursundan əldə edilən fatklar və hadisələr təşkil edir (1, s.160). Ona görə də elmi resenziyanın məzmunu elmi faktlardan ibarət olur.

Elmi resenziyanın əlamətlərindən birini ***intertekstuallıq*** təşkil edir (10, s.192). Bu tip resenziyalar spesifik formaya və məzmuna malikdir.

Elmi resenziyanın digər əlaməti ***dialogizmdir*** (10, s.192). Belə ki, resenziya müəllifə resenzent tərəfindən verilmiş cavab hesab olunur. Ona görə də elmi resenziyada kommunikativ-praqmatik münasibətlər müşahidə edilir.

Kitab resenziyaları elmi ekspertizanın vacib elementlərindən biri hesab olunur. Beləki, resenziyanın statusu və funksiyaları son on ildə nəinki nizamlı cəmiyyətin, hətta elm adamlarının arasında aparılan diskussiyaların predmetinə çevrilir. Elmi institutların funksiyalaşdırılmasında prinsipial rol oynayan kitab resenziyaları yalnız elmi kommunikasiyalara aid edilmir, amma müxtəlif mədəni institutların öyrənilməsində rol oynayan vacib elementdir.

XX əsrin II yarısında bu janr elmi kommunikasiya zamanı kəskin fikir ayrılıqlarının predmetinə çevrilir (11, s.84). Həmin dövrdə ancaq mütəxəssislər hesab edirdi ki, resenziya elmi rəyin vasitəsi kimi müasir elmin adekvat tələbinə çevrilir, digər mütəxəssislər üçün resenziya elmi kritikanın vacib forması hesab edilirdi. Bu fərqli yanaşmalar resenziyaya nəinki elmi baxımdan, eyni zamanda mədəniyyət tarixi və sosiologiyası prizmasından yanaşmağı tələb edir. Zənnimizcə sosial-mədəni yanaşma bu janrın taleyi barədə disskusiyaları mədəniyyətin subyektivlik, standartlaşma, sosial zamanın sürətlənməsi kimi müasir problemlərlə əlaqəli şəkildə aparmağı ehtimalını yaradır.

Kitab resenziyaları digər rəylərdən məxsusi əlaməti ilə seçilir. Elmi işlərə verilən rəylərdən fərqli olaraq kitab resenziyaları elmi dərəcələrin alınması ilə əlaqəli deyil. Əlyazma (peer review) rəylərin toplanması sistemi ilə müqayisədə kitab resenziyaları publisistik xarakter daşıyır və publisistik janr kimi ifadə olunur (4). Kitab resenziyaları elmi müzakirələr qrupundan ayrılır. Qeyd edək ki, məqalələr haqqında aparılan müzakirələr sonda resenziya ilə deyil, məqalə ilə nəticələnir. Kitab resenziyalarının özünəməxsus xüsusiyyətindən göründüyü kimi resenziyalar kitabın ədəbiyyatda və elmdə nəşr kimi meydana gəlməklə elmdə statusunu müəyyənləşdirir.

Kitab resenziyasını elmi mətnin tipi kimi təbiətini anlamaq üçün onu mədəni konteksdə öyrənmək lazımdır. Bu da müasir mədəni cəmiyyətdə jurnalın rolu ilə müəyyənləşir. Məlumdur ki, birinci elmi jurnal 1665-ci ildə “Journal des Scavans” hesab olunur. Bu jurnal Avropanın hər tərəfində nəşr olunan elmi kitablar haqqında resenziyaları əks etdirirdi. Beləliklə, bu janrın daha geniş yayılması klassik mədəni cəmiyyətdə mətbuatın inkişafı ilə üst-üstə düşür (11, s.85). Burada söhbət ədəbi jurnallardan gedir. Jurnala mədəniyyətin forması kimi tələbat mədəniyyətin demokratikləşməsi ilə əlaqədar idi. Bu halda qaçılmaz olan sosial-mədəni dinamik inkişafın sistemli monitorinqinin aparılması idi. Bu işi öz üzərinə təbii ki, jurnallar götürürdü. Abram Reyblata görə jurnallar konkret oxucu auditoriyasının maraqlarına təsir edən vacib elementdir.

Məlumdur ki, nəinki iri həcmli ədəbi və ictimai-siyasi jurnallar, hətta illustrasiyalı həftəliklər və qəzetlər XIX əsrin sonu və XX əsrin əvvəllərində özündə xeyli sayda resenziyanı əks etdirirdi. Moxnaçevə görə müasir mədəniyyətin konkret xarakterini tamlıqla əks etdirən jurnalların mübahisəvi təbiəti kritik təhlilin formalarının yaranmasına və yayılmasına təsir göstərir (7, s.72).

Resenziyaların XVIII əsr və XIX əsrin əvvəllərində ingilis jurnal mədəniyyətində rolunu təhlil edən Edvard Blum göstərir ki, bu janrın inkişafı müasir ədəbiyyata artan maraqla əlaqədar idi (13, s.537). Bu da ədəbi məhsulun qiymətləndirilməsi üçün emal olunmuş ədəbi zövqün tələblərinə cavab verirdi. Bununla da referatlaşmanın vəzifələri dəyişdi və öz yerini kritik qiymətləndirməyə verdi.

XIX əsrin II yarısında ixtisaslaşmış elmi mətbuat meydana gəldi. Məlumdur ki, humanitar elmlərin ən qədim qolu olan tarix sahəsində ilk peşəkar elmi jurnal 1859-cu ildə meydana gəlmişdir. Fransada belə bir jurnal 1876-cı ildə, İngiltərədə 1886-cı ildə, Amerikada 1895-ci ildə çap olunmuşdur. O dövrdə ədəbi mətbuat kimi ixtisaslaşdırılmış jurnallar da paytaxtla vilayətlər arasında körpü rolunu oynayırdı (11, s.99).

Körtis Ronnell 1994-cü ildə qeyd edir ki, son 5 ildə resenziya bölməsi yaradılmış, mövcud bölmələr genişləndirilmişdir (18, s.359). İlv Lindxom Ramançuk resenziyalar haqqında apardığı araşdırmalarında qeyd edir ki, resenziya bölməsinin həcmi jurnalın əhatə etdiyi sahə ilə əlaqəlidir (17).

Resenziya bölmələrinin təşkili təcrübəsi jurnal menecmentinin müxtəlif strategiyalarının mövcudluğu və bu tip mətnlər haqqında fikir deməyə imkan verir.

Resenziyalaşdırmanın obyektini son iki ildə nəşr olunmuş kitablar təşkil edir. Buna baxmayaraq bir jurnallarda retro və arxeoresenziyalar nəşr olunur ki, bu resenziyalar cari müzakirələrə əvvəlki illərdə nəşr olunmuş kitabları qaytarmaq funksiyasını daşıyır (4). Bəzi hallarda bir kitab haqqında fərqli yanaşmanı əks etdirən iki, hətta üç resenziya, eləcə də resenziyaçılara müəlliflərin münasibətləri də öz əksini tapır.

Elmi ədəbiyyatın tiplərinin dəyişməsi və yeni tiplərin meydana gəlməsi, eləcə də elmin sərhədlərinin genişlənməsi resenziyalaşdırmanın obyektinin differensasiyasına gətirib çıxarmışdır. Burada əsas göstərici bir tərəfdən filmlərin və ya kütləvi informasiya vasitələrinin resenziyalaşdırılması götürülürsə, digər tərəfdən dissertasiyaların resenziyalaşdırılması götürülür. Resenziyalaşdırma təcrübəsinin institutlaşdırılması jurnallar ətrafında resenziyaların monitorinqini və ekspertizasının aparılmasını tələb edən peşəkar auditoriyanın toplanması ilə müşahidə edilir.

1986-cı ildə Qerbert Morton və Enn Rays tərəfindən aparılmış tədqiqata resenziyalar humanitar elmlər haqqında yazılmış məqalələrdən sonra ikinci yerdə durur (10, s.92). Glenə görə resenziya elmin reputasiyasını formalaşdırmaq üçün vacib mexanizm rolunu oynayır (16, s.254). Resenziyanın aktivlik dərəcəsi kitabın elmi həyatda hadisə rolunu oynayıb-oynamamasını müəyyənləşdirməyə imkan verir.

Resenziya elmin informasiya infrastrukturunun vacib elementidir. Dalton və Çarniqoya görə kitabların monitorinqi vasitəsi kimi yerini elektron bazalara və axtarış sistemlərinə versə də, informasiya mənbəyi rolunu saxlayır (14; 15, s.402). Bu da xüsusi tipli informasiya axtarış sisteminin yaradılmasını labüdləşdirir. Bundan başqa nəzərə almaq lazımdır ki, resenziyalar özlüyündə nəşriyyatlarla kitabxanalar arasında vasitəçi rolunu oynayır.

Hal-hazırda resenziyaların müxtəlif formaları onun komponentlərinin müəyyənləşdirilməsini labüdləşdirir. Beləliklə resenziyaları aşağıdakı kom-

ponentləri vardır:

- İnformasiya bloku;
- Qiymətləndirmə bloku;
- Analitik (arqument-analitik) blok.

Bu bloklar aşağıdakı əsas funksiyalarla xarakterizə edilir:

- İnformasiya funksiyası;
- Qiymətləndirmə funksiyası;
- Arqument- anatilik funksiya (11, s.103).

Hər bir funskiya öyrənilərkən onların auditoriyaya təsir mexanizmləri də öyrənilməlidir.

Həcminə görə resenziyalar iki tipə ayrılır: böyük (grand) və balaca (mini) (4). Böyük həcmli resenziyalar kitaba hərtərəfli yanaşmağa imkan verir. Mini resenziyalar hal-hazırda daha geniş yayılmışdır. Mini resenziyaların həcmi 1,5-2 səhifədən ibarət olur. Bu tip resenziyalar özündə qısa olsa da konkret informasiyanı əks etdirdiyinə görə analitik janr hesab olunur. Mini resenziyalarda ifadə olunan fikirlər maksimum dəqiq olmalıdır. Ona görə resenzentlərin fikrini tam ifadə etmək imkanı olmur. Bu baxımdan mini resenziyalara nisbətdə grand-resenziyalar resenzentlər üçün daha əlverişlidir.

Tədqiqatçılar ənənəvi olaraq resenziyalara analitik janr kimi yanaşırlar. Bu janr üçün vacib struktur elementi kimi incəsənət məhsulunun təhlili qəbul edilir. Eyni zamanda resenziyalar oxucu üçün həmişə informasiya mənbəyi rolunu oynamışdır. Beləki, burada oxucu təkcə əsərin məzmunu haqqında deyil, eyni zamanda əsərin müəllifi və nəşriyyatı haqqında məlumat əldə edə bilir.

İnformasiya cəmiyyəti şəraitində tələbatçı hadisələrin təhlilindən öncə informasiyanı operativ şəkildə almaq istəyir. Ona görə də resenziyalar təkcə analitik deyil, eyni zamanda publisistik janr hesab edilir.

Keçən əsrin başlanğıcı tədqiqatçılara görə resenziya janrının meydana gəlməsi mərhələsi hesab edilir. Həmin dövrdə qəzet səhifələri janrların laboratoriyası funksiyasını yerinə yetirirdi (11, s.102). Bu dövrdə resenziyaların yaradılması istiqamətində iki təcrübə özünü göstərirdi. Bu bir tərəfdən mövcud janrların istifadəsini nəzərdə tuturdusa, digər tərəfdən yeni janrların yaradılmasını nəzərdə tuturdu.

Akademik kitab resenziyası müəyyən bir kitabın təhlil edilərək dəyərləndirilməsini təmin edən formal yazıdır (21, s.100). Burada resenzent təhlil etdiyi kitabın oxşar mövzuda digər kitablarla müqayisə etməyi də nəzərdə tutur.

Nəzərə almaq lazımdır ki, bəzən resenziya ilə annotasiya qarışdırılır. Amma burada bir məsələyə diqqət etmək lazımdır ki, resenziya əgər kitabın təhlili nəticəsində müəllifin yanaşmasına əsaslanırsa, annotasiya isə kitab haqqında qısa informasiyanı əks etdirirdi (20, s.1416).

Resenziyada kitabın mövzusu müəyyənləşir və ardınca dəyərləndirmə aparılır, daxildə isə bəzi tərəflər dəstəklənir və ya tənqid edilir. Amma annotasiya isə belə deyil. Beləki, burada kitabın mövzusu 7-10 səhifə daxilində məhdudlaşdırılır. Annotasiya yeni və vacib nəşrlər haqqında bazarı izləmək və məlumatlı olmağı təmin edir.

Resenziya hesabat deyil və ondan kəskin şəkildə fərqlənir. Kitab haqqında hesabat hazırlanması tələb olunursa tədqiqatçı əsərdə ana detallara fikir verməlidir. Resenziyada isə müəllifin məqsədi, mövzu ünsürləri, simvollar, mətnin tarixi aspekti və müzakirə olunan problemə müəllifin münasibəti resenziyanın mövzusu ilə paralel şərh edilməlidir. Resenziyada cavab verilməsi vacib olan əsas sual "müəllif problemə necə yanaşır?"

Kitab hesabatı ilə resenziyanın fərqi 4 meyarla müəyyənləşir:

1. Həcm: Hesabat 200-250 sözdən ibarət olduğu halda resenziya 200-1000 sözdən ibarətdir;

2. Akademik səviyyə: Hesabat orta məktəb səviyyəsində tələb olunan mətndirsə, resenziya ali təhsil müəssisələrində tələb olunan mətndir;

3. Quruluş: Hesabat və resenziyanın quruluşu bir-birinə bənzəyir. Amma hesabat sadə şəkildə kitabı təqdim etməli, ana fikri müəyyənləşdirməlidir. Resenziya isə kitabı bəyənib-bəyənmədiyinizi, oxucuya məsləhət bilib-bilmədiyinizi müəyyənləşdirir; (20, s.1417)

Resenziya sinopsis deyil. Sinopsis yazıdakı hadisələri sıralayarkən, resenziya mövzuya diqqət yetirir. Hər ikisi kitabda olan məlumata yer ayırır, amma resenziya daha çox "niyə?" sualına əsaslanır və gizli mənanı axtarır (20, s.1417). Ən yaxşı resenziya kitabı tamlıqla təhlil etmək deyil. Kitabı yenidən qısa formada yazmaq sinopsisin vəzifəsidir. Sinopsis kitabın məzmununu söyləyərək, kitabın oxucusunun ehtiyacına uyğun olub-olmadığını müəyyənləşdirir.

Kitab resenziyalarının gələcəyi naməlumdur. Yaxın vaxtlarda resenziyaların bəlli bir şəkildə faydasız olacağı düşünülür. Onun ədəbi nümunə kimi məhşurluğunun itirdiyi iddia edilir. Keçmişdə resenziyalar kitabxanaçıları və yeni kitab gözləyən oxucuları məlumatlandırma baxımından bir çox məqsədə xidmət edirdi. Hal-hazırda isə internet əsrində kitabxanaçılar və oxucular naşirlərin vasitəsiz hədəfinə çevrildi. Eyni zamanda resenziya professional mətnin ierarxik sıralanmasında çox da yüksək yerlərdə deyil. Kitab resenzentlərinin gələcəyinə təsir göstərən digər bir vasitə informasiya texnologiyalarıdır.

Resenziya yazmaq nəşrə gedən ən qısa və münasib yol kimi qiymətləndirilməlidir. Resenziya eyni zamanda yazmaq qabiliyyətini yaxşılaşdırmaq, analitik düşünmə qabiliyyətini inkişaf etdirmək, jurnalların nəşr vaxtının necə aparıldığını öyrənmək üçün və naşirlərlə tanış olmaq üçün yaxşı vasitədir. Çox kitabxana tədqiq olunmamış kitabı satın almadığına, eləcə də

oxucu resenziyanı oxumadan kitabı almadığına görə resenziya fəaliyyətini genişləndirmək tələbi yaranır. Bunun üçün də kitab resenziyasının yazılma vaxtına diqqət yetirilməlidir. Beləliklə:

✓ Resenziya göndərmək üçün mətbuat və ya online hədəf seçməli- Bu zaman resenziyanı yazmadan öncə kitab resenziyaları yazan redaktorlarla əlaqəyə girmək lazımdır. Bunun üçün seçdiyiniz redaktora imail göndərin. Bu imail 2 cümləni keçməməlidir: "X şəxs tərəfindən Y tarixində nəşr olunmuş Z sərlövhəli kitabla əlaqəli resenziya yazarsam qəbul edilib-edilməyəcəyi ilə bağlı məlumat almaq istəyirəm. Hal-hazırda A universitetində B mövzusu üzərində tədqiqat aparıram" (20, s. 1419).

Redaktorlarla ünsiyyətdə olmağın üstün cəhətlərindən biri də resenziya yazmalı olduğunuz kitabın sizə pulsuz göndərilməsidir.

Redaktor göndərilən elektron məktubu müsbət qarşılarsa müəyyən bir vaxt ərzində resenziyanı istəyəcək. Ona görədə redaktordan yazının təqdimatı üçün təlimatın olub-olmadığınnı soruşmaq lazımdır. Eləcə də yazının həcmi barədə məlumat almaq mütləqdir.

✓ Kitabın oxunma müddətini müəyyən etməli: Bu zaman aşağıdakı sualları müəyyənləşdirmək lazımdır:

➢ Kitabın məqsədi nədir?
➢ Kitab təqdim etdiyi şeyi təqdim edirmi?
➢ Kitab öz sahəsinə nəsə gətirirmi?
➢ Kitab aktual mövzularla uyğunlaşırmı, uyğunlaşırsa nə dərəcədə?
➢ Kitabın əsas məntiqi nədir?
➢ Kitab yaxşı yazılıbmı?
➢ Kitabda hansı terminlərdən istifadə edilib və bu termin açıqlanıbmı?
➢ Məlumatlar nə dərəcədə dəqiqdir?
➢ Kitabın hədəfi kimlərdir və bu kitab onlara necə təsir edəcək?
➢ Kitab öz sahəsində digər kitablarla müqayisə edildikdə meydana nə çıxır?
➢ Əgər bu dərslikdirsə hansı dərslər üçün uyğundur?
➢ Eyni zamanda kitabın müəllifinin elmi-ədəbi fəaliyyəti haqqında məlumat toplamaq lazımdır.

✓ Resenziyanın planı hazırlanmalı: Kitab resenziyaları adətən 600-2000 söz arasında yazılır. Ən yaxşısı 1000 sözdən istifadə etməkdir. 20 səhifəlik resenziya yazmaq lazım deyil (20, s.1419).

Resenziya yazmaq üçün vaxt bir çox hallarda bir ay götürülür. Beləki 2 həftə kitabı oxumaq, 1 həftə resenziya planını hazırlamaq, 1 həftə də resenziyanı yazmaq üçün ayrılır. Belşer resenziya yazarkən planın hazırlanmasının mütləq olduğunu vurğulayır.

Resenziya yazarkən kitab oxunduqdan sonra 1-2 həftə gözləmək mənasızdır. Onsuz da resenziyanın əsas məqsədi məhsulu qısa zamanda ortaya

qoymaqdan ibarətdir.

Resenziya yazarkən kitabın mətnini dəyərləndirmək lazımdır, təsvirini vermək lazım deyil. Mətnə dair təsviri ifadələr seçmək önəmlidir, amma resenziyanın əsas məqsədi kitabı təndiq etməkdir. Bu zaman kitabdakı hər şeyi resenziyaya daxil etmək lazım deyil. Kitabı resenzent öz niyyətinə uyğun yox, kitabın niyyətinə uyğun təhlil etməlidir.

*Resenziyanın məqsədi:* Kitabın məqsədi əsasən önsözdə və giriş hissəsində verilir. Məqsəd soruşulacaq bu suallarla dəqiqləşdirilə bilər:

- ✓ Müəllif bu kitabı niyə yazmışdır?
- ✓ Kitabın hədəf kütləsi kimdir?
- ✓ Müəllif məqsədinə hansı ölçüdə çatmışdır?

***Resenziyanın məzmunu:*** Kitabın mündəricat hissəsi təhlil edilərək kitab haqqında məlumat almaq mümkündür. Məzmunun təqdimatı kitabın özəti deyil məzmunun tanıdılmasıdır. Bu hissədə üzərində dayanılmalı olan suallar bunlar ola bilər:

- ✓ Kitab hansı sahəyə aiddir və bu sahədə yeri nədən ibarətdir?
- ✓ Kitab hansı mövqedən yazılmışdır?
- ✓ Müəllifə təsir edən sosial, siyasi, iqtisadi dəyişikliklər hansılardır?
- ✓ Kitabın məzmunu faktoqrafikdir və ya məntiqidir?
- ✓ Müəllifin mövzuya münasibəti təsviridir və ya analitikdir?
- ✓ Kitab hansı hissələrdən ibarətdir?
- ✓ Müəllifin müdafiə etdiyi əsas fikir və ya fikirlər hansılardır?
- ✓ Müəllif fikirlərini hansı ölçüdə bir-birilə uyğun olaraq ortaya qoymuşdur?
- ✓ Kitabın güclü və zəif tərəflərinin sərhədləri hansılardır?
- ✓ Müəllifin mövqeyi, hədəf kütlənin gözləntilərini qarşılaya biləcəkmi?
- ✓ Kitabın indeksi varmı?
- ✓ Müəllifin istifadə etdiyi mənbələrin dəqiqliyi və məzmunu ilə əlaqəsi nədir?

***Resenziyada dil və üslub:*** Kitabı dili və üslubu aşağıdakı suallarla müəyyənləşir:

- ✓ Kitabın dili necədir?
- ✓ Müəllif açar sözləri, əsas anlayışları və terminləri hansı ölçüdə vermişdir?
- ✓ Müəllifin üslubu hədəf kütləyə uyğundurmu?
- ✓ Müəllif mətn daxilində cədvəl, qrafik və b. İstifadə etmişdirmi?
- ✓ Bunlar hansı ölçüdə anlaşıqlıdır?
- ✓ Müəllif dili necə təsirli istifadə etmişdir?

***Resenziyada dəyərləndirmə:*** Burada resenzent kitab haqqındakı təəssürat və mühakimələri ortaya qoymalıdır. Mümkündürsə müəllifin bioqrafiyası,

digər tədqiqatları təhlil edilməlidir. Mövzuyla bağlı digər məqalələrə baxa bilər. Bu məqsədlə bu suallar üzərində dayanmalıdır:

- ✓ Kitabın öz sahəsinə ən əsas təsiri nədir?
- ✓ Kitabın, müəllifin digər kitabları və yazıları arasında yeri nədir?
- ✓ Kitabın, müəllifin yada başqa yazıçıların eyni mövzuda yazdığı kitablar arasında yeri nədir?
- ✓ Gələcəkdə bu mövzuda hansı tədqiqatlar aparıla bilər?

Qısası resenziyanın məqsədi deyilməli olanı, məzmunu, kitabda deyiləni, dil və üslub, necə deyildiyi, dəyələndirmədə deyilənlər ətrafında tənqidçilərin fikirləri ifadə edilir.

***Resenziya yazısının hazırlanması:*** Resenziyada kitabla əlaqəli biblioqrafik məlumatlardan sonra əsas hissədə üç bölmə mövcuddur. Bunlar giriş, təhlil və dəyərləndirmə, müzakirə və nəticə bölmələridir.

***Giriş:*** Bu bölmədə kitabın əsas fikri, tezisi və müəllifin məqsədi açıqlanmalıdır. Burada oxucunun diqqətini kitaba çəkəcək giriş hazırlanmalıdır. Bununla əlaqədar kitab və müəlliflə bağlı diqqət çəkəcək qısa bir fikirlə giriş hazırlanmalıdır. Kitabın əlaqəli sahəyə təsiri və önəmi müəyyənləşdirilməlidir. Diqqət çəkən bir neçə sual formalaşdırılaraq giriş hazırlana bilər.

***Təhlil və dəyərləndirmə:*** Bu bölmədə müəllif tədqiqatları haqqında tanıdıcı qısa məlumatlar verərək, yuxarıdakı təqdimatının ətrafında müəyyənləşdirilən nöqtələri diqqətə almaqla kitabın məqsədini, məzmunun qısa təsvirini, önəmini, sahədəki yerini müəyyənləşdirərək öz tərzini ortaya qoymalıdır. Kitabla əlaqəli reklam məlumatları verildikdən sonra dəyərləndirməyə keçilməlidir.

***Müzakirə və nəticə:*** Bu bölmədə yuxarıda müəyyənləşdirilən əlamətlərin və reklam mətnini təsvir etmək lazımdır (20, s.1420).

Resenziya yazan əsas mətn anlayışı, mətnin xüsusiyyətləri (məsələn onun forması), işin aktuallığı barədə özünəməxsus anlayışa malikdir. Bu mülahizələr resenzentin araşdırma mövzusuna dair qərarının obyektini təşkil edir.

## ƏDƏBİYYAT

1. Баженова Е.А. Специфика смысловой структуры научного текста и его композиции // Очерки истории научного стиля русского литературного языка XVIII–XX вв. / под ред. М.Н. Кожиной : в 3 т. Т. 2 : Стилистика научного текста (общие параметры). Пермь : Изд-во Перм. ун-та, 1996. Ч. 1. С. 158–235.
2. Быстрых А.В., Кашко Т.В. рецензия на обложке: критическая рецензия или реклама?// Мир лингвистики и коммуникации: электронный научный журнал. 2017. № 4. С. 104–119
3. Гальперин И.Р. Текст как объект лингвистического исследования / И.Р. Гальперин. - М. :[Б. и.], 1981.

4. Мальчевская Е.А. Трансформация жанра рецензии// Веснiк БДУ. Сер. 4. 2011. № 1
5. Матвеева Т.В. Учебный словарь: русский язык, культура речи, стилистика, риторика /Т.В. Матвеева. - Екатеринбург: Издательство Уральского Университета, 2003.
6. Матвеева Т.В. Функциональный стили в аспекте текстовых категорий / Т.В. Матвеева. - Свердловск: Изд-во Урал, ун-та, 1990.
7. Мохначёва М. Журналистика и историческая наука. Кн. 2.: Журналистика и историографическая традиция в России 30–70-х гг. XIX в. М.: РГГУ. 1998
8. Набиева Е. А. Оценочность в жанре рецензии: лингвистический и прагматический аспекты: На материале «Литературной газеты» и региональной парламент- ской газеты «Тюменские известия» постсоветского периода 1993–1995 и 2003– 2005 гг.: Дис. канд. филол. наук. Тюмень, 2010.
9. Новиков В. И. Поэтика рецензии // Литературное обозрение. 1978. № 7. С. 18–24.
10. Лассан Э. Р. Рецензия как жанр и как речевой акт // Лингвистика речи. Медиастилистика: Коллективная моногр. М.: Флинта: Наука, 2012. С. 190–205.
11. Степанов Б. «Кризис жанра»: книжные рецензии в перспективе исследований научной коммуникации// Laboratorium. 2016. 8(1):82–106
12. Саенкова Л.П. Вариативность подходов к классификации жанров в журналисти¬ке и кинокритике // Слова ў кантэксце часу: да 85-годдзя прафесара А.I.Наркевiча: зб. навук. прац / пад агул. рэд. В.I. Iўчанкава. – У 2-х т. Т.1. Мiнск: Выд. цэнтр БДУ, 2014. С. 286-293.
13. Bloom E. A. "'Labors of the Learned': Neoclassic Book Reviewing Aims and Techniques." Studies in Philology. 1957. 54(4):537–563.
14. Dalton M. S. The Origin and Development of Scholarly Historical Periodicals. Tuscaloosa//University of Alabama Press. 1986.
15. Dalton M. St, and Laurie Ch. "Historians and Their Information Sources." College & Research Libraries. 2004. 65(5):400–425.
16. Glenn N. "On the Misuse of Book Reviews."// Contemporary Sociology. 1978. 7(3):254–255.
17. Lindholm-Romantschuk Y. Scholarly Book Reviewing in the Social Sciences and Humanities:The Flow of Ideas within and among Disciplines. Westport, CT: Greenwood Press. 1998
18. Runnell C. "The Place of Book Reviews in the Professional Literature." Journal of Field Archaeology. 1994. 21(3):357–390.
19. Akpınar Ö.A. Kitap tanıtımı yazısının amaçları, çeşitleri, metodu ve faydaları// Türk & İslam Dünyası Sosyal Araştırmalar Dergisi. 4, Sayı: 12, Eylül 2017, s. 426-441
20. Gömbeyaz K. Kitap Değerlendirmesi Yazım Kılavuzu// Cumhuriyet İlahiyat Dergisi - Cumhuriyet Theology Journal. Aralık 2017, Cilt 21, Sayı 2. S. 1415-1420
21. Mahfuz Z. "Yeni Eleştiri Kuramından Akademik Eleştiri Yöntemine"// International Journal of Languages' Education and Teaching. 2014. s. 3, s. 99- 121

# РЕЦЕНЗИЯ КНИГИ КАК ИНСТРУМЕНТ ПРЕЗЕНТАЦИИ КНИГИ

**ХАСАНОВА А.В.**

***РЕЗЮМЕ***

*В статье рецензия рассматривается как средство презентации книги. Прежде всего, уточняется концепция рецензии. Затем исследуется история создания этого текста. В статье также определены категории, особенности, функции, структура, содержание рецензии. Раскрываются объект, предмет, цель рецензии.*

***Ключевые слова:*** *рецензия, категория, знак, тип, функция, компонент, модальность, тональность, объективность, субъективность, интертекстуальность, диалогизм, публицистический жанр, аналитический жанр, аргумент, ретро и археологический обзор, большой и мини обзор, аспект, синопсис, аннотация, отчет, книга*

# BOOK REVIEW AS A PRESENTATION OF THE BOOK

**HASANOVA A.V.**

***RESUME***

*The article reviews the book review as a presention of the book. First of all, specified the concept of book review. Then is examined the history of the creation of this text. The article also defines categories, features, functions, structure, content of the review. There are disclosed object, subject, purpose of the review.*

***Key words:*** *Review, category, sign, type, function, component, modality, tonality, objectivity, subjectivity, intertextuality, dialogism, publicistic genre, analytical genre, argument, retro and archaeological review, grand and mini review, aspect, synopsis, annotation, report, book*

# FİZİKİ MƏHDUDİYYƏTLİ ŞƏXSLƏRƏ KİTABXANA-İNFORMASİYA XİDMƏTİNİN YERİNƏ YETİRİLMƏSİNDƏ İSTİFADƏ OLUNAN TEXNİKİ TƏMİNAT

**ABDULLAZADƏ F.F.**

***BDU, Kitabxanaşünaslıq kafedrasının dissertantı***
farida.abdullazade@gmail.com

*Məqalədə fiziki məhdudiyyətli şəxslər üçün kitabxana-informasiya xidmətinin yerinə yetirilməsində istifadə olunan texniki təminat və köməkçi texnologiyalardan bəhs olunur. Məqalədə əsasən Brayl Qabartma, Yenilənə bilən Brayl ekran, Sara Ce Oxu Aparatı, Fokus Brayl Ekran - Qabartma Ekran və s. cihazlarının funksionallığından və ümümiləşdirilməsindən bəhs edir.*

***Açar sözlər:*** *Mütaliə yardımı, İnkluziv kitabxana-informasiya xidmətləri, Görmə məhdudiyyəti, Fiziki məhdudiyyətli istifadəçilər, İnformasiya əlçatarlığı*

Bu gün fiziki məhdudiyyətli şəxslərin informasiya tələbatlarının ödənilməsində ən mühüm bir elm, təhsil, mədəniyyət, informasiya mərkəzi kimi kitabxanaların qarşısında böyük vəzifələr durur. Xüsusi köməkçi texniki avadanlıqların kitabxanalarda tətbiqi - daim qayğıya ehtiyacı olan insanların daha çox mütaliə etmələri üçün kitabxanalarda xüsusi köməkçi texniki avadanlıqlara üstünlük verilməsi əsas məsələlərdən biridir. Assistiv və yaxud adaptiv adlanan texnologiya fiziki məhdudiyyətli şəxslərə müstəqil yaşamaq imkanı verən elektron həllərdir. “Assistiv texnologiyalar” termini fiziki məhdudiyyətli şəxslərə kömək üçün köməkçi, adaptiv reabilitasiya cihazları, məhsulları və ya avadanlıqlarına aid bir termindir. Belə ki, müstəqil oxuma imkanı verən bu texnologiya sayəsində görmə məhdudiyyətli şəxslər kompüter mətnini eşidə bilər, görmə zəifliyi olan insanlar mətni genişləndirə bilərlər. Mousu manipulyasiya edə bilməyən insanlar məlumatları kompüterə daxil edə bilər və fiziki olaraq kompüterdəki sorğuların nəticələrini eşidə bilməyənlər sorğularını görüntüləyə bilərlər. Monitorda göstərilən informasiyanı görərək və ya eşidərək öyrənməyə kömək edən proqram təminatları da var.

Fiziki məhdudiyyətli insanlar, kompüterdən istifadə ilə əlaqədar olaraq bəzi fiziki işlərin yerinə yetirilməsində köməyə ehtiyac duya bilərlər. Əlil arabaları və ya skuterlərdən istifadə edən şəxslərə möhkəm, etibarlı kitabxana mühiti lazımdır. Misal üçün oxu masasının hündürlüyü və monitor mövqeyi buna uyğun tənzimlənməlidir. Aşağıdakı göstərilənlər ilə kompüter istifadəsini artırmaq mümkündür:

- Xüsusi giriş cihazları, məsələn, trackballs, joysticks, touch pad və genişlənmiş klaviaturlar (mikro klavişlər və ya böyüdülmüş düymələri olan böyük düymələr);
- Madentec Tracker - istifadəçilər alnına və ya eynəyinə kiçik bir əks nöqtə taxırlar. Kompüter kamerası / izləyicisi istifadəçilərə kursoru baş hərəkəti ilə idarə etməyə imkan verir (Şəkil 1);
- Softype - standart bir klaviaturanın funksiyasını tam xüsusiyyətli, ekrandakı klaviatura ilə əvəz edən bir proqram yardımçısı. Fiziki məhdudiyyətli istifadəçilər üçün olan xüsusi proqram və texniki təminatı ilə monitorda göstərilən informasiyanı böyüdür və yaxud səs sintezləyici üzərindən mətni istifadəçiyə səsləndirir. Bu texnologiya vasitəsilə həmçinin, səs daxil edilməsi də mümkündür.



***Şəkil 1. Madentac Tracker***

**Brayl Qabartma** - brayl yazı sistemində çap materialı istehsal etmək üçün kompüterə bağlanan bir cihazdır. Brayl arakəsmələri brayl yazılarını oxuyanların oxuması üçün kağız üzərində brayl işarələrini işarələyən printerlər kimi istifadə olunur. Brayl arakəsmələri assistiv texnologiyanın bir formasıdır, çünki kor və ya görmə qabiliyyəti zəif olan istifadəçilər üçün sənədlər çap edirlər. Konsepsiyası lazer və ya mürəkkəb reaktiv printerə bənzəyir, ancaq brayl qabartma, qaldırılmış nöqtələri mürəkkəb və ya toner istifadə etmək əvəzinə bir kağız parçasına yapışdıraraq işləyir.

Brayl arakəsmələri məlumatları kompüterlərdən, brayl notetakerlərindən, mobil cihazlardan və ya flaş disklərdən aldıqları xüsusi ağır kağıza yerləşdirilir. Brayl arakəsmələri bir tərəfli və ya cüt tərəfli (interpoint adlanır) qabarda bilər və 6 və ya 8 nöqtəli brayl hazırlaya bilər. Çap sürəti, xəttin eni və brayl sənədinin çəkisi kimi amillərin hamısı qabartma üçün fərqləndirici amildir.

Brayl arakəsmələri açıq-aydın görmə qabiliyyəti olmayan insanlar üçün çox faydalıdır, mənfi cəhəti odur ki, adi printerlərdən daha bahalıdır, peşəkar istifadə üçün hazırlanmış maşınlar üçün 2000 ABŞ dolları ilə 77.000 dollar arasında dəyişir. Buna görə də ekran oxuyucuları kimi daha ucuz texnologiyalar da populyardır.



*Şəkil 2. Brayl Qabartma*

Üstün cəhətlərini aşağıdakı kimi göstərmək olar:

- Nisbətən asanlıqla öyrənilir, oxunur və yazılır / çap olunur;
- Əvvəlki sistemlərdən daha kiçik, qabartma üçün daha yaxşıdır;
- Texnologiyaya uyğunlaşdırılıb, inteqrasiya edilə bilir.

Mənfi cəhətləri isə :

- Bu sistemi öyrənməmiş görmə məhdudiyyətli şəxslər oxuya bilməz;
- Səhvləri silmək olmur.

**Kitab Oxuma Cihazı – Sara CE** : SARA CE, kor və ya görmə qabiliyyəti zəif olan insanlar üçün yeni nəsil özünəməxsus skaner və oxu cihazıdır. İstifadəsi asandır və çap olunmuş mətni tez bir zamanda danışıq mətninə çevirir. Kompüter təcrübəsinə ehtiyac yoxdur. Görmə köməyi olmadan sənədləri oxuyur. SARA CE istifadəsi çox sadədir. Kameranın altına çap edilmiş bir səhifə qoyulur və SARA CE dərhal RealSpeak ™ insan səsləndirən nitqi ilə sənədi oxuyub, səsləndirməyə başlayır. Demək olar ki, hər hansı bir çap olunmuş materialı - kitab, jurnal, poçt və sair davamını oxumaq üçün yenidən düyməni basmağa ehtiyac yoxdur. Yeni bir səhifə təqdim edildikdə kamera avtomatik olaraq hiss edir. Kitab, jurnal, qəzet, broşur və s. fərqli dillərdəki yazılı materialları qısa zamanda səsləndirir və eyni zamanda zəif görənlər üçün LCD ekranıyla kontrastlar edərək ekrandan da əks etdirir. Görə bilməyən və zəif görən biri səsli olaraq bu cihazı özü tək istifadə edə bilər. Bu alətin ən əsas cəhəti isə Daisy kitab oxuma xüsusiyyətidir. Daisy kitab oxuma ilə görmə qüsurlular səsli kitabları, görə bilən insanlar kimi mütaliə edə bilirlər. Yəni, kitabda bir başa istədiyi səhifəyə gedib, o səhifəni oxuya bilərlər. Həmçinin MP3 formatı da mövcuddur, bunun vasitəsilə kitabı CD-ROM diskinə yükləmək də mümkündür. Kompüterə də qoşula bilən bu cihaz, minlərlə səhifənin yaddaşa yazılmasını, kitablar yükləndikdən sonra dəfələrlə dinlənilməsini və kompüte-

rə kitabların həm yazılı, həm də səsli köçürülməsini təmin edən yüksək texnologiyadır. Bu cihaz vasitəsilə auido kitabxana yaratmaq olar.

Cihaz aşağıda göstərilən xüsusiyyətləri daşıyır:

- Öyrənmək asandır, istifadəsi asandır - kompüter təcrübəsinə ehtiyac yoxdur;
- Çap formasında olan mətni istəyə uyğun seçilmiş səs və dillərdə insan nitqinə oxşayan nitqə çevirir;
- Parlaq rəngli toxunma düymələri və səsli menyu ilə quraşdırılmış klaviatura;
- Çap olunmuş materiallara dərhal çıxışı təmin edən sənəd kamerası;
- Tamamilə zəif görənlər üçün skanlaşdırma və oxu cihazı ilə təchiz olunmuş monitor;
- Güclü zəif görmə funksiyası, yazı tərzi, ölçüsü, xarakter boşluğu və rəngləri də daxil olmaqla ekrandakı mətnin görünüşünü tənzimləyir;
- Keyfiyyətli sənəd əldə etmək üçün sürətli, avtomatik səhifə skan etmə və faylları Sara CE-də yəni cihazın öz yaddaşında saxlayır və yaxud da usb fləş diskə göndərir;
- 200-dən çox kitabdan ibarət klassik ədəbiyyat kitabxanası;
- DAISY formatı da daxil olmaqla audio kitabları oxuyur;
- Müstəqil klaviatura sənədləri, menyuları, dialoq pəncərələrini və səs kitablarını oxumağa kömək edir;
- Daxili brayl dəstəyi.

Oxumağa fasilə verərək, səhifələri irəli və ya geriyə çevirə və ya yazılmış hər hansı bir sözü hecaları ilə eşitmək olur. Oxu sürətini və həcmini dəyişdirmək mümkündür. Fərqli bir səs seçmək mümkündür. İstifadə dili 18 dildən verilmişdir. Çox cildli kitabları skan etmək üçün skanlaşdırma rejimini dəyişdirərək 160GB sabit diskdə və ya USB fləş diskində saxlamaq olar. Demək olar ki, cihaz hər bir addımda istifadəçi ilə danışır. Cihazın həmçinin səsli audio istifadə kitabçası da var.

## ƏDƏBİYYAT

1. Abdullazadə F.F. Kitabxanalarda görmə qüsurlu şəxslərə kitabxana-informasiya xidmətinin təşkilində İKT-nin rolu // Kitabxanaşünaslıq və informasiya.- №1.- 2018.- s. 109-115.
2. Sağlamtunç T. Görme Engelliler ve Kütüphanecilik Hizmetleri // Bilgi dünyası .- 2010 .-s.178-191.
3. Subaşıoğlu F. Görme engellilere yönelik kütüphanecilik ve ders programları I. Ulusal Körler ve Kütüphanecilik Sempozyumu: Bitmeyen Gece Doç. Dr. Mithat Enç Anısına 16-17 Ekim 2007. Ankara.

4. Matthew T. Atkinson and Jatinder Dhiensa İmproving library services to people with print disabilities: The role of technology in public libraries // Research School of Informatics. - 2007.
5. https://www.freedomscientific.com/

## ТЕХНИЧЕСКАЯ ПОДДЕРЖКА, ИСПОЛЬЗУЕМАЯ ПРИ ОКАЗАНИИ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫХ УСЛУГ ЛИЦАМ С ОГРАНИЧЕННЫМИ ВОЗМОЖНОСТЯМИ

**АБДУЛЛАЗАДА Ф.Ф.**

***РЕЗЮМЕ***

Статья посвящена вспомогательным технологиям, а также вспомогательным технологиям, используемым для библиотечных и информационных услуг для людей с ограниченными возможностями. Основное внимание в статье уделяется функциональности и обобщению брайлевского тиснения, обновляемого брайлевского дисплея, считывающего устройства Sara Ce, фокусного брайлевского экрана - тисненого экрана и т. Д.

***Ключевые слова:*** *ассистент по чтению, инклюзивные библиотечные услуги, нарушения зрения, читатели с ограниченными возможностями, доступ к информации*

## TECHNİCAL SUPPORT USED İN THE PROVİSİON OF LİBRARY AND İNFORMATİON SERVİCES TO PERSONS WİTH DİSABİLİTİES

**ABDULLAZADE F.F.**

***SUMMARY***

The article deals with the technical support and also assistive technologies used for library and information services for persons with disabilities. The article mainly focuses on the functionality and generalization of Braille Embosser, Refreshable Braille display, Sara Ce Reading Appliance, Focus Braille Screen - Embossed Screen and etc.

***Key words:*** *reading assistance, inclusive library services, visual impairments, disabled readers, access to information*

## ƏLAMƏTDAR HADİSƏLƏR

# UNEC-DƏN DAHA BİR YENİLİK: ÖLKƏDƏ İLK DƏFƏ UNİVERSİTETLƏRARASI I KİTABXANA FORUMU KEÇİRİLİB

28-29 noyabr 2019-cu il tarixlərində Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Kitabxana İnformasiya Mərkəzi tərəfindən respublikada ilk dəfə olaraq "Universitetlərarası I Kitabxana Forumu" keçirilib.Forum çərçivəsində "Akademik kitabxanaların inkişaf perspektivləri: 24/7 modelindən yeni hədəflərə doğru" mövzusunda respublika elmi-praktik konfransı, UNEC KİM-in 1 saylı kitabxanasının açılışı, "Biliyin Carçıları" Milli Kvest Yarışması (Tələbə Elmi Cəmiyyəti ilə birgə), iqtisadçı-ekspert Vüqar Bayramovun tələbələrlə görüşü, UNEC KİM-in 24/7 kitabxanasının 1 yaşı münasibətilə tələbələrin fləşmobu, TEAS-Press nəşriyyatı tərəfindən endirimli kitab satışı-yarmarkası təşkil edilmişdir.

Forumun ilk günü Azərbaycan Respublikası Təhsil və Mədəniyyət nazirliklərinin nümayəndələri, ali məktəb rektorları, millət vəkilləri, aparıcı kitabxanaların rəhbərləri və digər qonaqların iştirak etdiyi "Akademik kitabxanaların inkişaf perspektivləri: 24/7 modelindən yeni hədəflərə doğru" mövzusunda respublika elmi-praktik konfransı ilə start götürüb. Forumu giriş sözü ilə açan UNEC-in rektoru, professor Ədalət Muradov bildirib ki, ölkə Prezidenti İlham Əliyev tərəfindən qəbul edilmiş 2013-cü il, 24 oktyabr tarixli "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda müəyyən edilmiş məqsədlərə nail olmaq baxımından kitabxanalar xüsusi əhəmiyyətə malikdir. Rektor təhsilin keyfiyyətinin artırılması, qloballaşan dünyada kitabxanaların hər kəsə əlçatanlığının təmin edilməsi üçün universitet kitabxanalarının çağdaş, innovativ sistemlərlə ayaqlaşmasının zəruriliyini qeyd edib. O, vurğulayıb ki, müasir universitet kitabxanasının inkişafı informasiya məkanında, təhsil sistemində və elmi kommunikasiyada baş verən dəyişikliklərin sürətinin artması ilə səciyyələnir. UNEC-də tədris prosesinin informasiya təminatının yaxşılaşdırılması istiqamətində atılan mühüm addımlardan biri kimi universitetdə fasiləsiz, yeddi gün 24 saat fəaliyyət göstərən, 24/7 kitabxananın yaradılması göstərilib. Eyni vaxtda 104 tələbəyə xidmət göstərmək imkanı olan 24/7 rejimli kitabxanada tələbələrin rahat və istənilən vaxt informasiya-bilik əldə etməsi üçün zəruri şəraitin olduğu da bildirilib. Bir ildir fəaliyyət göstərən UNEC KİM-in 24/7 kitabxanası Azərbaycan, türk, ingilis və rus dillərində zəngin fonda, bir milyona yaxın elektron resursa çıxış imkanına malikdir. MDB məkanında Azərbaycanla yanaşı, bu tip kitabxanalara yalnız Rusiya və Ukraynada rast gəlmək mümkündür. Qafqaz Universitetləri arasında isə ilk dəfə UNEC-də 24/7 rejimli kitabxana yaradılıb. UNEC rektoru Ədalət Mura-

dov çıxışında çox əhəmiyyətli təkliflər də səsləndirib. O, Azərbaycanda Universitet Kitabxanaları Assosiasiyasının təsis olunmasını, universitet kitabxanalarının elektron informasiya resurslarının birləşdirilməsini və həmin resurslara vahid pəncərə çərçivəsində giriş imkanının yaradılmasını təklif edib. Eləcə də universitet kitabxanaları arasında kitab mübadiləsi sisteminin qurulmasının zəruriliyini də bildirib.

Daha sonra çıxış edən millət vəkilləri akademik Ziyad Səmədzadə və Fazil Mustafa, Milli Kitabxananın direktoru, professor Kərim Tahirov UNEC rektorunun təkliflərini, ümumiyyətlə, forumun əhəmiyyətini və təşkilini yüksək qiymətləndirib. Məruzəçilər cəmiyyətdə kitaba marağın, dəyərin artırılması üçün atılmalı olan addımlardan, bu işdə kitabxanaların üzərinə düşən məsuliyyətdən də danışıblar.

Konfransdan sonra UNEC-in 1 saylı kitabxanasının açılışı olub. Əvvəllər oxu zalı kimi fəaliyyət göstərən kitabxana hazırda açıq rəf üsulu ilə oxucuların istifadəsinə təqdim edilib. Kitabxanada 09:00-dan axşam saat 22:00-adək Azərbaycan, rus, ingilis dillərində 5 minə yaxın ədəbiyyat, elmi jurnallar və ölkə ərazisində dərc edilən qəzetlər, eləcədə on beş kompüter vasitəsilə elektron resurslarla yüksək səviyyəli, rahat şəraitdə xidmət həyata keçirilir. Kitabxananın qarşısında iqtisadiyyatın müxtəlif sahələrinə aid kitablar nümayiş etdirilən sərgi də açılıb.

Qonaqlara, həmçinin UNEC-in 24/7 kitabxanası ilə tanışlıq imkanı da verilib. UNEC-in Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə 24/7 Kitabxanasının 1 yaşına həsr olunmuş fləşmob da qonaqlar tərəfindən maraqla qarşılanıb. Sonra "Akademik kitabxanaların inkişaf perspektivləri: 24/7 modelindən yeni hədəflərə doğru" mövzusunda respublika elmi-praktik konfransı öz işini davam etdirib. Ali təhsil müəssisələrinin kitabxana rəhbərlərinin və aparıcı mütəxəssislərin iştirakı ilə akademik kitabxanaların XXI əsrdə qarşılaşdıqları əsas problemlər, perspektivlər və yeni hədəflər ətrafında diskussiyalar aparılıb. Forum zamanı UNEC KİM ilə ADA Universitetinin kitabxanası arasında kitabxana fəaliyyətinə dair peşəkar əməkdaşlığı, kitabxana-informasiya resursları və kitabxana işi sahəsində təcrübə mübadiləsini inkişaf etdirmək məqsədilə qarşılıqlı əməkdaşlığa dair Memorandum da imzalanıb. Bu memorandumun imzalanması UNEC KİM-in digər universitet kitabxanaları ilə qarşılıqlı əməkdaşlığının başlanğıcı kimi qiymətləndirilə bilər.

Universitetlərarası I Kitabxana Forumunun 2-ci günündə UNEC Kitabxana İnformasiya Mərkəzi və Tələbə Elmi Cəmiyyəti İQuiz İntellektual klubunun birgə təşkilatçılığı ilə "Biliyin carçıları" Milli Kvest Yarışması keçirilib. Yarışmanın keçirilməsində əsas məqsəd oxumağa və öyrənməyə meylli tələbə kütləsinin iqtisadi, tarixi, mədəni, məntiqi bilik və bacarıqlarının üzə çıxarılması, tələbələrin komanda ilə işləmə qabiliyyətlərinin yüksəldilməsi, birgə və intensiv qərarvermə xüsusiyyətlərinin inkişaf etdirilməsidir. Azərbaycan Döv-

lət İqtisad Universitetinin (UNEC) Tələbələrlə iş üzrə prorektoru Səadət Qəndilova çıxış edərək forum çərçivəsində keçirilən intellekt yarışmasının məqsədi və əhəmiyyətindən, tələbələrin həyatında kitabın, kitabxananın, biliyin rolundan danışıb. Yarışda dörd - "Səfəvi" (Texnologiya və Dizayn fakültəsi), "Xəlifə" (Ekspertiza və Standartlaşdırma fakültəsi), "Ameteurs" (Maliyyə və Mühasibat fakültəsi), "Green wich" (Maliyyə və Mühasibat fakültəsi) adlı komandalar birincilik uğrunda mübarizə aparıb. İlk Milli Kvest Yarışmasında "Ameteurs" komandası qalib gəlib. Yarışan komandaların hər birinə sertifikatlar və kitablar təqdim olunub. Qalib komanda isə Tələbələrlə iş üzrə prorektor Səadət Qəndilovanın təqdimatı ilə UNEC rektoru, professor Ədalət Muradov tərəfindən imzalanmış diplomla, digər komandalar isə yarışda fəal iştirak etdiklərinə görə sertifikatla təltif edilib. Yarışın ardından UNEC Kitabxana İnformasiya Mərkəzinin 24/7 kitabxanasında iqtisadçı-ekspert Vüqar Bayramovun tələbələrlə görüşü keçirilib. Görüş tələbələrin istəyi ilə baş tutub. Görüşdə Vüqar Bayramov ölkədə mövcud iqtisadi vəziyyət, dünya dövlətləri ilə müqayisədə Azərbaycanda neft və qeyri-neft sektorunun inkişafı, xarici investorların ölkəyə cəlb edilməsi və s. kimi məsələlərdən danışıb. İqtisadçı-ekspert, həmçinin tələbələri maraqlandıran suallara cavab verib. Sonda isə Vüqar Bayramov görüşdə aktiv iştirak edən tələbələrə imzalı kitablarını təqdim edib.

Universitetlərarası I Kitabxana Forumu çərçivəsində "TEAS Press" Nəşriyyat evinin endirimli kitab satış yarmarkası təşkil edilib. 2 gün boyunca davam edən yarmarkada "TEAS Press" Azərbaycanın tarixi, mədəniyyəti, iqtisadiyyatına, yerli və xarici müəlliflərin əsərlərinə dair öz nəşrlərini sərgiləyib və kitabların satışını həyata keçirib. Qeyd edək ki, yarmarkada kitabların qiymətinə 20 % endirim edilib.

Düşünürük ki, hazırda ölkədə fəaliyyət göstərən ali təhsil ocaqlarının kitabxanalarının bir araya gəlməsi, təcrübə mübadiləsi, bir sıra layihələrin həyata keçirilməsində qarşılıqlı əməkdaşlığa dair müqavilələrin imzalanması bütövlükdə Azərbaycan təhsilinin, kitabxanaların və tələbələrin informasiya mədəniyyəti səviyyəsinin inkişafında uğurlu addım idi.

***Adilə Abdullayeva***
***Taix üzrə f əlsəfə doktoru , UNEC KİM-in direktoru***

**M Ü N D Ə R İ C A T**


| | | |
|---|---|---|
| AZAD QURBANOV, SƏADƏT MÜTƏLLİMOVA | ELMİ İSTİNAD ÜZRƏ VERİLƏNLƏR BAZALARI VƏ AXTARIŞ SİSTEMLƏRİ | 7 |
| QULİYEV N.Ə. | MÜASİR DÖVRDƏ GENİŞ YAYILMIŞ BİR KİBER HÜCUM HAQQINDA | 17 |
| KAZİMİ PƏRVİZ | MÜASİR KITABXANA-İNFORMASİYA MÜƏSSİSƏLƏRİNİN SOSİAL FUNKSİYALARI | 26 |
| MEHMANƏLİ MƏMMƏDOV | KİTABXANALARDA MENECMENTİN TƏTBİQİNİN METODİK TƏMİNATI | 32 |
| HƏSƏNOVA N.Ə., NOVRUZOVA S.M. | RƏQƏMSAL KİTABXANALARDA İNNOVATİV TEXNOLOGİYALAR | 38 |
| SOLMAZ SADIQOVA | İRAN İSLAM RESPUBLİKASINDA MİLLİ BİBLİOQRAFİYA | 46 |
| ŞAMİLOVA B.Q. | AZƏRBAYCAN MƏKTƏBLƏRİNDƏ TƏHSİL PROSESİNƏ İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYA-LARININ TƏTBİQİ | 55 |
| SİMA İSMAYILOVA | ABBAS SƏHHƏT YARADICILIĞININ BİBLİOQRAFİK TƏDQİQİ | 61 |
| NAĞIYEV H.Ə., ƏLİYEVA F.A | HƏYƏCANLANDIRICI TƏSİR FAKTORUNUN PAYLANMA FUNKSİYASININ NƏZƏRƏ ALINMASI İLƏ MƏHSULUN ORTA KEYFİYYƏTİNİN VERİLMİŞ PLANLAŞDIRMA PERİODU ÜZRƏ OPTİMALLAŞDIRILMASI | 66 |
| ƏLİYEVA AYGÜN | ŞƏXSİ TƏHSİL FASİLƏSİZ TƏHSİLİN ƏSAS TƏRKİB HİSSƏSİ KİMİ | 72 |
| HİCRAN ZEYNALOVA | İXTİSASLAŞDIRILMIŞ TİBB KİTABXANALARINDA TİBBİ STATİSTİKANIN ÖYRƏNİLMƏSİ MƏSƏLƏLƏRİ | 77 |
| HƏSƏNOVA A.V. | KİTAB RESENZİYASI KİTABIN TƏQDİMATI VASİTƏSİ KİMİ | 81 |
| ABDULLAZADƏ F.F. | FİZİKİ MƏHDUDİYYƏTLİ ŞƏXSLƏRƏ KİTABXANA-İNFORMASİYA XİDMƏTİNİN YERİNƏ YETİRİLMƏSİNDƏ İSTİFADƏ OLUNAN TEXNİKİ TƏMİNAT | 92 |
| **ƏLAMƏTDAR HADİSƏLƏR** | UNEC-DƏN DAHA BİR YENİLİK: ÖLKƏDƏ İLK DƏFƏ UNIVERSITETLƏRARASI I KİTABXANA FORUMU KEÇİRİLİB | 97 |

## С О Д Е Р Ж А Н И Е


| | | |
|---|---|---|
| КУРБАНОВ. А.И., МУТАЛЛИМОВА С.Ф. | БАЗЫ ДАННЫХ И ПОИСКОВЫЕ СИСТЕМЫ ПО НАУЧНОМУ ЦИТИРОВАНИЮ | 7 |
| ГУЛИЕВ Н.А. | ОБ ОДНОМ КИБЕРАТАКЕ, КОТОРАЯ ШИРОКО РАСПРОСТРАНЕНА В НАШЕ ВРЕМЯ | 17 |
| КАЗИМИ П.Ф. | СОЦИАЛЬНЫЕ ФУНКЦИИ СОВРЕМЕН-НЫХ ИНФОРМАЦИОННЫХ УЧИРЕЖДЕНИИ (БИБЛИОТЕК) | 26 |
| МАМЕДОВ М. А | МЕТОДИЧЕСКОЕ ОБЕСПЕЧЕНИЕ ПРИМЕНЕНИЕ МЕНЕДЖМЕНТА В БИБЛИОТЕКАХ | 32 |
| ГАСАНОВА Н.А., НОВРУЗОВА С.М. | ИННОВАЦИОННЫЕ ТЕХНОЛОГИИ В ЦИФРОВЫХ БИБЛИОТЕКАХ | 38 |
| САДЫГОВА С.А. | НАЦИОНАЛЬНАЯ БИБЛИОГРАФИЯ В ИРАНСКОЙ ИСЛАМСКОЙ РЕСПУБЛИКЕ | 46 |
| ШАМИЛОВА Б.Г. | ПРИМЕНЕНИЕ ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ОБРАЗОВАТЕЛЬНОМ ПРОЦЕССЕ В АЗЕРБАЙДЖАНСКИХ ШКОЛАХ | 55 |
| ИСМАИЛОВА С.П. | АББАС САХХАТ: БИБЛИОГРАФИЧЕСКИЙ УКАЗАТЕЛЬ | 61 |
| НАГИЕВ Г.А., АЛИЕВА Ф.А | ОПТИМИЗАЦИЯ СРЕДНЕГО КАЧЕСТВА ПРОДУКЦИИ В ЗАДАННЫЙ ПЕРИОД ПРОИЗВОДСТВА С УЧЕТОМ ФУНКЦИИ РАСПРЕДЕЛЕНИЯ ФАКТОРА ВОЗМУЩЕНИЯ | 66 |
| АЛИЕВА А.С. | САМООБРАЗОВАНИЕ - КАК СОСТАВНАЯ ЧАСТЬ НЕПРЕРЫВНОГО ОБРАЗОВАНИЯ | 72 |
| ЗЕЙНАЛОВА Х. О. | ВОПРОСЫ ИЗУЧЕНИЯ МЕДИЦИНСКОЙ СТАТИСТИКИ В СПЕЦИАЛИЗИРОВАННЫХ МЕДИЦИНСКИХ БИБЛИОТЕКАХ | 77 |
| ХАСАНОВА А.В. | РЕЦЕНЗИЯ КНИГИ КАК ИНСТРУМЕНТ ПРЕЗЕНТАЦИИ КНИГИ | 81 |
| АБДУЛЛАЗАДА Ф.Ф. | ТЕХНИЧЕСКАЯ ПОДДЕРЖКА, ИСПОЛЬЗУЕМАЯ ПРИ ОКАЗАНИИ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫХ УСЛУГ ЛИЦАМ С ОГРАНИЧЕННЫМИ ВОЗМОЖНОСТЯМИ | 92 |
| **ВАЖНЫЕ СОБЫТИЯ** | ЕЩЕ ОДНО НОВШЕСТВО ОТ UNEC: ВПЕРВЫЕ В СТРАНЕ БЫЛ ПРОВЕДЕН ПЕРВЫЙ МЕЖУНИВЕРСИТЕТСКИЙ БИБЛИОТЕЧНЫЙ ФОРУМ | 97 |

# C O N T E N T S


| | | |
|---|---|---|
| GURBANOV A.I., MUTALLIMOVA S.F. | DATABASES AND SEARCH SYSTEMS FOR SCIENTIFIC QUOTATION | 7 |
| QULIYEV N.A. | ABOUT ONE CYBER ATTACK, WHICH IS WIDESPREAD IN OUR TIME | 17 |
| MAMMADOV M. A. | METHODICAI PROVISION OF MANAGEMENT APPLICATION IN LIBRARIES | 26 |
| KAZIMI P.F. | SOCIAL FUNCTIONS MODERN INFORMATION INSTITUTIONS (LIBRARIES) | 32 |
| HASANOVA N.A., S.M.NOVRUZOVA | INNOVATIVE TECHNOLOGIES IN DIGITAL LIBRARIES | 38 |
| SOLMAZ S.A. | NATIONAL BIBLIOGRAPHY IN ISLAMIC REPUBLIC OF IRAN | 46 |
| SHAMILOVA B.Q. | APPLICATION OF INFORMATION AND COMMUNICATION TECHNOLOGIES IN THE EDUCATIONAL PROCESS IN THE AZERBAIJANI SCHOOLS | 55 |
| ISMAILOVA S.P. | ABBAS SAHHAT: BIBLIOGRAPHIC SOURCES | 61 |
| NAGIYEV G.A., ALIEVA F., A. | OPTIMIZATION OF AVERAGE PRODUCT QUALITY DURING THE PERIOD OF PRODUCTION TAKING INTO ACCOUNT THE PERTURBATION FACTOR DISTRIBUTION FUNCTION | 66 |
| ALIYEVA A.S. | SELF-EDUCATION AS AN INTEGRAL PART OF CONTINUING EDUCATION | 72 |
| ZEYNALOVA H.O. | ISSUES OF STUDYING MEDICAL STATISTICS IN SPECIALIZED MEDICAL LIBRARIES | 77 |
| HASANOVA A.V. | BOOK REVIEW AS A PRESENTATION OF THE BOOK | 81 |
| ABDULLAZADE F.F. | TECHNICAL SUPPORT USED IN THE PROVISION OF LIBRARY AND INFORMATION SERVICES TO PERSONS WITH DISABILITIES | 92 |
| **SIGNIFICANT EVENTS** | ANOTHER INNOVATION FROM UNEC: FOR THE FIRST TIME IN THE COUNTRY, THE FIRST INTER-UNIVERSITY LIBRARY FORUM WAS HELD | 97 |

## M Ü Ə L L İ F L Ə R İ N  N Ə Z Ə R İ N Ə !

***"Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və praktik jurnalının redaksiyasına təqdim edilən elmi məqalələr göstərilən qaydalar əsasında tərtib edilməlidir:***

***1) Format – A4; Sətirlərarası interval – 1,0;***
***Yuxarıdan 2,5 sm; Aşağıdan 2,5 sm; Soldan 3,5 sm; Sağdan 1,5 sm.***
***Məqalələrin həcmi 1 çap vərəqindən artıq olmamalıdır.***
***2) Şrift dəsti:***
***Azərbaycan dilində – Times New Roman***
***İngilis dilində – Times New Roman***
***Rus – Times New Roman***
***Şriftlərin ölçüsü 12 (Word 2003).***
***3) Hər bir elmi məqalənin ingilis və rus dillərində xülasələri olmalı, burada məqalənin ingilis və rus dillərində adı da öz əksini tapmalıdır.***
***4) Elmi məqalələr və xülasələr kompüterdə çap olunmuş şəkildə disklə birlikdə təqdim olunmalıdır. Disklər geri qaytarılmır.***
***5) Müəllif haqqında aydın məlumat verilməkli, ad, ata adı, soyad açıq yazılmalı, işlədiyi və ya oxuduğu müəssisənin adı tam şəkildə yazılmalıdır.***
***6) Hər bir elmi məqaləyə 2 mütəxəssis rəy verməlidir.***

*Nəşriyyat redaktoru:*
***Xəlilova Günay***

*Kompüter tərtibatı və dizayn:*
***Elnarə Qurbanova***

*Jurnal Azərbaycan Respublikası*
*Ədliyyə Nazirliyində qeydə alınmışdır.*
*Şəhadətnamə № 3135. 16.03.2010.*

*Jurnal "Mütərcim"*
*Nəşriyyat-Poliqrafiya*
*Mərkəzində*
*çap olunmuşdur.*

*Yığılmağa verilmişdir: 25.13.2019.*
*Çapa imzalanmışdır: 25.01.2020.*
*Formatı 70x100⅛*
*Həcmi 6,5 ç.v.*

*Az 1073, Bakı, Zahid Xəlilov küç.23*
*596 21 44; 497 06 25; (055)715 63 99*
*e-mail: mutarjim@mail.ru*
*www/mutercim.az*